Məhərrəm ZAMAN

# Aydın Əzimbəyov – TARİXLƏ SƏSLƏŞƏN ÖMÜR YOLU



Baş məsləhətçi: *Sabir Hüseynov*
Redaktor: *Sevda Mikayılqızı*
İdeya müəllifi
və koordinator: *Mirələkbər (Miri) Seyidov*
Koordinator: *Famil Bağırov*

**Məhərrəm Zaman.**
**Aydın Əzimbəyov- tarixlə səsləşən ömür yolu.**
*(Povest, xatirələr, fotolar və sənədlər toplusu).*
Bakı - 2012, “Ziya” NPM. 352 səh.

***Azərbaycanın və Özbəkistanın görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Özbəkistanda ilk Fövqəladə və Səlahiyyətli səfiri və Məkəzi Asiya Respublikalarında akkreditə olunmuş səfir Aydın Əlibəy oğlu Əzimbəyova həsr olunmuş bu kitab təkcə keşməkeşli, müsibətli sürgün həyatı yaşamasına baxmayaraq, həyatda özünü təsdiq etməyi, öz qürbət və doğma Vətəni üçün layiqli oğul olmağı bacarmış bir insanın taleyi haqqında deyil. Bu, həm də bu gün də təkrarlanan bir çox problemlərin çox uzağa - xalqımızın tarixi keçmişinə gedib çıxan köklərini bir daha işıqlandırmaqla, bu gün də davam etməkdə olan həmin proseslərin məğzini araşdırmaq cəhdidir. Nədən, əslində çar Rusiyasının sələfi olan “humanist sovet dövlətimiz”də daha çox bizim xalqımızın mütəfəkkir fikirli insanlarına, aydınlarına, ziyalılarına, millətini sevən oğullarına qarşı xüsusi ilə amansız mövqedə idi?***

***Kitabın səhifələrində Əsl İnsanla tanış olan oxucu həm də bu suallara cavab tapa biləcəkdir.***

**ISBN**

# GÖYLƏRİN İLTİFATI

*(Ön söz)*



**Sabir Hüseynov,**
fərdi təqayüdçü

*Doğma yurddan qovulanlar qəlblərini ox, səmanı dəyişlirlər.*
**Horatsiy**

*Tərk etməmiş Rəbbin səni,*
*Zəhləsi getməmiş səndən*
*Sənin üçün axirət dünyadan daha yaxşı!*
*Rəbbin verəcəyini sənə bol-bol verəcək,*
*Razı qalacaqsan.*
*Yetimdin, isti ocağa səni sığındırmadımı?*
*Sapmışdın, doğru yola yönəltmədimi?*
*Kasıbdın, səni varlandırmadımı?*

**"Qurani-Kərim"in 93-cü "Səhər" (Duha) surəsindən**
(N.Qasımoğlunun tərcüməsində).

Sözümə bir rəvayətlə başlamaq istərdim.

...Ordu düşmənlə döyüşə yollanırdı. Qoşunun sayı hesab yox idi. Doğma yerlərin hüdudlarını tərk etməz-

dən qabaq, sərkərdə öz döyüşçülərinə hündür bir yer düzəltmələrini əmr etdi ki, onların yolunu gözləyəcək analar, qadın və uşaqlar buradan baxanda uzaqları görə bilsinlər. Beləliklə, hər döyüşçünün bir papaq dolusu torpaq tökdüyü bü yerdə başı göylərə çatan bir dağ dikəldi.

Zaman keçdi. Ordu vətənə döndü. Qanlı döyüşlərə gedərkən Ana yurdun sərhəddində ucaltdıqları həmin dağın ətəyinə çatanda sərkərdə yenə buraya torpaq tökməyi əmr etdi. Ancaq döyüşçülər həmin yerə kisə və papaqlarla nə qədər torpaq daşıyıb töksələr də nəticədə başı göylərə çatan həmin dağla müqayisədə çox kiçik olan bir təpəcik əmələ gəldi. Təpə elə kiçik idi ki, kənardan baxanda babasının dizinə sığınaraq dayanmış nəvəni xatırladırdı.

Bununla belə, təpəciyin üstündən ən vacib və ən önəmli olanı görmək mümkün idi.

Bu, həmin yastı təpənin üstundən görünən Böyük Qələbə, bir də gələcək nəsillərin əmin-amanlığı idi.

Əziz dostum Aydın!

Sənin 80 yaşın həmin o kiçik təpənin zirvəsinə bənzəyir. Bu zirvədən boylananda sənin al qana bulaşmış, göz yaşları ilə islanmış keşmənkeşli həyatının yolları və ən əsası - sənin qalibiyyətin, sənin qələbən görünməkdədir.

Dostum, özün de, əgər həyat yollarında maneələr və onları dəf etmək səadəti olmasaydı, bəşəriyyət xoşbəxliyin dadını, ümumiyyətlə, “xoşbəxtlik” anlayışının mənasını, bilərdimi? Əlbəttə, yox!

Həyat dediyin əslində bir andır. Xoşbəxt anların işıqlı ləpədöyəni isə bu anın içindəki göz qırpımına bənzəyir. Hər şeydən ucada olan Yaradanın köməyi ilə bizim bəxtimiz, taleyimiz məhz belə işıqlı anlardan formalaşır.

...Sürgün edilmişlərlə dolu əcəl qatarı Əzimbəyovlar ailəsini və hələ məsum körpə olan səni də qaçılmaz ölümə tərəf aparırdı...

Ölümə məhkm olunmuşların çoxu bu yad, donimuş və ac torpağın qoynunda özlərinə son məkan taparaq, əbədiyyətə qovuşdular. Ancaq tale bu qatara Əzimbəyovlar ailəsi üçün gözlə görünməyən fərqli bir qismət lokomotivi qoşmuşdu. Odur ki, Allahın əl kölgəsi onların başı üstündən əskik olmadı. Və birdən birə sanki möcüzə baş verdi, bu sonsuz və çarəsiz qaranlığın içindən onlar üçün xoşbəxtliyin gözqamaşdırıcı parıltısı bərq vurdu, ümidin işıq ucu göründü. Sanki sehirkarın möcüzə göstərən əli ilə Əzimbəyovların qarşısında birdən birə ailənin başçısı, uşaqların atası - hələ onların sürgün edilməsindən çox-çox qabaq həbs edilən və həbsxana divarları arasında izsiz-soraqsız yox olub itgin düşmüş sayılan Əlibəy peyda oldu.

Sən demə onu da bu eşalonla qürbət ellərə ölüm-qalım sınağına aparırlarmış.

Aydın, yadındadırmı, atan od tutub yanan dodaqlarını sənin başına sıxdı. Bilirəmki, aradan 80 il keçməsinə baxmayaraq, sən hələ də onların sirayətedici istisini unutmamısan. Amma nə sən, nə də sənin atan

bilmirdiniz ki, bu sadəcə görüşüb, öpüşmək deyildi, bu, göylərin böyük iltifatı idi.

Əlibəyin müdrikliyi, qarşısıalınmaz iradə gücü, qeyri-adi əməksevərliyi və bir də Yaradanın verdiyi qismət çox çətinliklərdən sonra ailəni işıqlı yola çıxarardı.

Aclıq idi. Çox ağır günlər yaşanırdı. Amma, Sən göylərin ilitifatı ilə institutu əla qmymətlərlə bitirə bildin. Ata xarakterinin bütyn qüvvəsini, onun ağlının böyük gücünü özündə əxz etmiş Sən, əvvəlcə iri bir nəqliyyat sahəsinin rəhbəri oldun, sonra Sırdərya Vilayət Kommunist Partiyasının katibi seçildin, daha sonra Özbəkistanın avtonəqliyyat naziri kürsüsündə oturdun.

Dostum, Sən ilk dəfə dünyaya göz açdığın ana torpağa - bir vaxt səni və sənin kimi yüzlərlə günahsız insanın sürgün edilərək ölümə göndərildiyi yerə - doğma Vətəninə qayıtdın. Və Sən - Aydın Əlibəy oğlu Əzimbəyov yeniləşmiş Vətəninin Özbəkistanda Fövqəladə və Səlahiyyətli səfiri təyin edildin. Həmin o Özbəkistana ki, sənin və bütün Əzimbəyovlaraın ikinci Vətəni sayıla bilər.

Əcdadlar o vaxt xoşbəxt sayılırlar ki, törəmələri, davamçıları onların qazandıqları nəaliyyətlərə söykənir və ondan həyat bəxş edici qüvvə kimi bəhrələnərək öz nəslinin şərəfini daha yüksəklərə qaldıra bilir. Və Sən, mənim əziz dostum, buna ən layiqli və parlaq nümunəsən.

İndi övladların və nəvələrin sənin çiyinlərinin üstündən işıqlı günlərə boylanırlar. Amma başlannğıcda sənin bütün nəslin uçurumun kənarında dayanmalı olmuşdu.

...Vaqonun qapılırı səkkiz sutkadan sonra, gecə yarısı açıldı. Girəcəkdə iki nəfər konvoyun (silahlı mühafizəçinin - Red.) boz silueti göründü. İçəri girən kimi ağız-burunlarını əlləri ilə tutuaraq geri atıldılar. Çürüməkdə olan meyit iyi sanki onları qamarlayıb çölə tulladı.

Siluetlərin biri biganə səslə bəyan elədi: - Burada da gəbərənlər var!

Vaqondakı adamlardan bəziləri süsünə-sürünə, bəziləri ayaq üstə güclə hərəkət edərək qapıya tərəf irəlilədilər.

Konvoylar əllərindəki tüfəngi başları üzürəində silkələyərək bağırdılar: - Dayan! Atəş açacam!

Hardasa qabaqda porovozun yanında, sonra isə lap yaxında, qonşu vaqonda atəş səsləri gəldi. Sonra məlum oldu ki, iki qadını və bir uşağı güllələyiblər. Onlardan biri - bir neçə gün qabaq ölmüş uşağını bükdüyü bələyi döşünə sıxan ana, konvoyların qışqırığına məhəl qoymadan vaqondan yerə atılmış, mühafizəçilərin əlindən çıxmağa çalışaraq uşağını xilas etmək üçün həkim çağırırmış....

Eşalonda bərqərar olmuş sükutu yenidən uşaqların, qadın və qocaların ürək göynədən yalvarışları, ağlamaq səsləri pozur. Onların hamısını kip bağlanmış taxta vaqonlarda yemək-içməksiz, süsuz, çox az miq-

darda lazımı palpaltarla yenidən qürbətə, yad yerlərə aparırdılar. Elə aparırdılar ki, kənardan baxanda qanundankənar elan edilmiş ailələrlə ağzına kimi dolu bu vaqonlarda adam olduğunu heç kəs bilməsin.

Rəisin bağırtısı ümidsiz insanların naləsini, fəryad səslərini batırdı:

- Kəsin səsinizi! Ölənləri qırmızı ordu əsgərlərinə verin! Onları biz özümüz basdırarıq.

Və sonra, nisbətən sakit səslə əlavə etdi:

- Səhər açılanda stansiyaya çatacayıq. Hər istixana (*tepluşka - Red*.) gzünün üç nəfər nümayəndəsini seçməlidir. Onlar sizin üçün yemək alacaq və su ehtiyatı götürəcəklər.

Eşalon hənirtisiz çölün ortasında dayanmışdı. Ətrafı bürüyən zülmət qaranlıqda bir işartı belə gözə dəymirdi. Təkcə, ölü rəngli ayın zəifdən zəif şüası soluxmuş və şaxtadan donmuş otların üzərində əsəbiliklə gəzişirdi. Ordan o tərəfə, bumbuz, sanki adamın ətini iynələyən zülmət, elə bil bir az da qatılaşırdı. Əsgərlər, burunlarını qırışdıraraq , üzlərini o tərəf bu tərəfə çevirə-çevirə, ölənlərin cəsədləriəni dartıb ora aparırdılar.

Axırıncı cəsəd də atılandan sonra qatar yoluna davam etdi. Qadınların hıçqırıqları eşalonu silkələdi:

- Atdılar!.. Torpağa tapşırmadılar,...çaqqal-çuqqala yem elədilər..!

Qatar, konvoy rəisinin söz verdiyi stansiyaya gün günortadan əyiləndə çatdı.

- ... Deyirlər mən ağlamırmışam. Mənə isti idi. Anam məni bərk-bərk sinəsinə sıxmışdı, sağında solunda isə ona bərk-bərk sığınmış bacılarım otrumuşdu. Astadan içini çəkən anama bərk  yazığım gəlirdi. Onu sakitləşdirməyə çalışaraq, deyirdim, “-Ağlama, bax, gözümü bağlayıram, açanda yenə öz evimizdə olacayıq. Atam da yanımızda”.

O dediynə özü də inanaraq, ta ki yuxuya gedənə qədər gözlərini çoxlu-çoxlu açıb yumdu. Onun dediklərindən bir az da pis olan Əminə göz yaşlarını güclə saxlasa da, oğluna baxıb mehribanlıqla gülümsədi. O, əmin idi ki, “enkevedeşnik”lər ərinə ölüncəyə qədər əzab veriblər və indi o özü də, balaları da yetim və tək-tənha qalıblar. Əlibəyi səhər tezdən yatağından qaldırıb aparanda demişdiki, məni tezliklə buraxacaqlar, çünki, heç bir günahım yoxdur. Ancaq ərinnin taleyi haqqında nəsə öyrənə bilmək cəhdləri boşa çıxmışdı. Ona, “...əgər susurlarsa, heç nə demirlərsə, deməli, yazığı güllələyiblər”, deyirdilər.

Bu çox, lap çox adamın başına gələn iş idi. Lakin, bunula bitmədi, demə daha ağır günlər var imiş qabaqda. Günlərin birində qapıları yenə döyüldü. Bir dəstə “enkevedeşnik” evə soxularaq: “-Əminə Əzimbəyova! Yığışmaq üçün bir saat vaxtınız var. Siz azərbaycandan sürgün edilirsiniz!”, deyə bəyan etdilər.

Araya çökən qısa  sükutu  Aydın müəllimin tutqun səsi pozur:  -  O vaxtki dəhşətlərin hamısı yadımda deyil, axı çox balaca idim, beş yaşına təzəcə girmişdim.

Az keçməmiş onun nurlu çöhrəsi yenidən işıqlanır, və canlanaraq şövqlə davam edir:

- Amma mən möcüzəyə inanırdım. Mən nağıla inanırdım. Ona görə də bu, baş verdi...

...Konvoyun rəisi sözünə əməl elədi, hər vaqodan üç nəfər seçildi və onlar qaça-qaça yemək, su dalınca getdilər. Aydın bərk yatmışdı. Yəqin zəiflədiyindən idi. Onu, bir qədər canlanmış vaqon evin sakinlərinin hay-küyü də oyada bilməmişdi. On beş dəqiqədən sonra gedənlərdən biri geri qaydıb üzünə yayılmış nəsə qəribə bir təbəssümlə, Əminəyə yaxınnlaşıb, "-Mən sənə su gətirə bilmədim...", dedi. Özünü itirən, həmyerlisinini nəyə görə belə sevincək olduğunu başa düşə bilməyən və nə baş verdiyini anlamayan anam məəttəl qalaraq, özünü itirmiş halda, "Niyə?" deyə soruşur.

- Suyu sənə... Əlibəy gətirəcək, ona görə. O burdadır, bizim qatarda, o biri vaqonda. Sizin burda olduğunuzu bilən kimi qaçdı öz yerinə ki, şeylərini götürüb gəlsin sizin yanınza. İndi bu saat...

O, sözünü tamamlaya bilmədi. Əlibəy vaqonun işıqnlı girişində göründü... və içəriyə sıçradı.

- ...Mən yuxudan qəfil oyanaraq, gözlərimi açndım... Günü bu gün də həmin anları xatırlayan kimi atamın od kimi isti dodaqlarının ürəyimin dərinliklərinə kimi sirayət etmiş istisini yenidən hiss edirəm. Bax İndi özünüz deyin, belə bir möcüzədən sonra Allaha necə inanmamaq olar? Allahın özü bir möcüzədir! Həmin gün mən elə bil yenidən dünyaya gəlndim.

Taleyinin bu qəmli səhifələri haqqında Aydın mənə ilk dəfə Pxenyanın ən yaxşı otellərin birində qaldığımız zaman danışdı. Məhz həmin vaxt, üstündən düz dörddə bir əsrə bərabər zaman keçmiş həmin vaxt, təsadüf bizi görüşdürmüşdü.

Bu, doğurdan da xoş təsadüf idi. İkimizdə azərbaycanlı idik, hər ikimiz kommunist partiyasının xətti ilə Sovet İttifaqından Koreyaya təcrübə mübadiləsi üçün gəlmiş çox samballı bir nümayəndə heyətinin üzvləri idik. Mən, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin məsul işçilərindən biri, o isə Özbəkistan SSR-də vilayət partiya komitəsinin katibi idi. Koreya xalqının o vaxtkı başçısı və KXDR-nın indiki lideri Kim Çenın babası Kim İr Sen özü bizim hər ikimizi milli ordenlə - “Şərəf Ordeni” ilə təltif etdi. Bu hadisə bizi o qədər yaxınlaşdırmışdı ki, söhbət əsnasında mənim “Sən necə gedib çıxmısan Özbəkistana?” sualımın cavabında bu qüssəli baxışlı, təmkinli adam özünün heç də yüngül keçməyən həyatının tarixçəsini mənə danışmağa başladı...

Kənd orta məktəbində oxuduğu on ildə məktəb üzrə əlaçı olmuş Aydın DKTİMMİ-ni (Daşkənd Kənd Təsərrüfatının İrriqasiyası və Mexanizasiyası Mühəndisləri İnstitutu) də qırmızı diplomla bitirdi. Ona aspiranturada oxumağı təklif edəndə, imtina etdi, çünki alacağı 60 manat təqaüdlə valideynlərinə kömək eləyə bilməyəcəkdi. Odur ki, hərbiləşdirilmiş avtonnəqliyyat bazalarından birində münhəndis işlənməyə başladı.

Onun haqqında, adətən idarələrdən verilən xansiynyətnamələrin yazı stilində - “Mühəndis A.Ə.Əzimbəyov özünü bacarıqlı mühəndis, təşəbbüskar bir işçi kimi göstərnmişdir və baş mühəndis vəzifəsinə irəli çəkilir” - danışsaq, heç nə deməmiş olarıq. Çünki, Aydın cəmi bir neçə ayın ərzində bu bazada təmir emalatxanaları təşkil etməyi, buraya yüksək səviyyəli mütəxəssisləri cəlb etməyi, yaxşı avdanlıqlarla təmin etməyi və onlarla hesabdan silinəsi maşını yenidən həyata qaytarıb yola çıxarmağa nail olmuşdu. Onun təmir emalatxanaları tezliklə nümunəvi bir qurum kimi nümayiş etdirilməyə başladı.

Artıq bazanın direktoru təyin edilmiş Aydının yanına Özbəkistanın hər yerindən onun iş təcrübəsini öyrənmək və təcrübə keçmək üçün adamlar gəlirdilər. Qəzetlər onun necə istedadlı təşkilatçı omasından yazır, barəsində radio verilişləri hazırlayı, televiziyada göstərirdilər. O isə çiyinlərini çəkərək təəccüblənir, qeyri-adi bir iş görmədiyini deyir, yorulmadan çalışmağa davam edirdi. Məhz elə bu vaxtlarda onda sü, dəmiryolu və avtomobillər də daxil olmaqla respublikanın bütün nəqliyyat vasitələrini çoxşaxəli bir sistemdə birləşdirnməklə onların fasiləsiz işləməsinə və beləliklə, yük daşınmsının daha səmərəli yerinə yetirilməsinə nail olmaq ideyası yarandı.

Onun bu ideyasına Moskvanda, nə az nə çox, SSRİ Mərkəzi Komitəsinin Sənaye Şöbəsinin özündə də maraq göstərdilər. Ümumittifaq nəqliyyatçılar həra-

katı belə yarandı. İndi az adam var ki, bu ideyanın ölkəyə nə nəhənglikdə gəlir gətirdiyini, yaradıcısının isə Aydın Əzimbəyov olduğunu xatırlansın.

Düzdür, həmin vaxtlarda o, artıq ən iri trestlərdən birinə başçılıq edirdi. Amma bu vəzifədə də çox qalmadı. Özbəkistan Kommunist Partiyası Mərkəzi Komitəsində də onun haqqında məlumatlı idilər.

Çox keçmədən Aydın Əzimbəyov ökənin iqtisadi cəhətdən ən zəngin olan Sırdərya vilayət komitəsinin katibi seçildi. Təşkilatçılıq bacarığını realizə etməyə imkan verən bu vəzifədə o, özünü daha dolğun və hərtərəfli göstərə bildi. Elə buna görə də onu SSRİ Mərkəzi Komitəsinin Pxenyana təcrübə mübadiləsi və Koreya Kommunist Partiyası işçiləri, eləcə də təsərrüfat başçıları ilə praktik seminar aprmaq üçün təşkil edilmiş numanyəndə heyətinin tərkibinə daxil etdilər.

Sonra isə iqtinsandiyyatın daha da gücləndirilnməsinə imkan verəcək yenidənqurma başlandı. Ən yaxşı kadrlar məhz bu işə cəlb edildilər. Aydın Əzimbəyov Özbəkistanın Avtonəqliyyat naziri təyin edildi. O, bütöv Mərkəzi Asiyada yeganə Azərbacanlı nazir oldu.

Qarbaçovun özünün başladığı, elə özünün də məhvə gətirib çıxartdığı “uğurlu” əməliyyat - SSRİ kimi böyük bir derjavanın dağılmasına gətirib çıxaran yenidənqurma nəticəsində, sovetlər ittifaqına daxil olan bütün respublikalar öz “milli mənzillərinə” qayıtdılar.

Öz müstəqilliyini elan etmiş bir çox başqa respublikalar kimi Azərbaycan və Özbəkistan da aralarında səfirlik əlaqələri yaratdılar.

Bizim dövlətimizə bu məqsədlə layiqli namizəd tapmaq üçün çox vaxt lazım olmadı. Aydın Əzimbəyovun parlaq şəxsiyyəti o saat ön plana çıxaraq, diqqəti cəlb etdi. Bu seçim Özbəkistanda yaşayan çoxsaylı Azərbaycanlı diasporunın ürəyincə oldu. Axı, Əzimbəyov burada ən hörmətli və sözükeçən ağsaqqal idi.

Bu gün onun 80 yaşı tamam olur. Ailəsi və dostları üçün çox sevincdirici və əlamətdar gündür.

Aydın müəllim, “-Tale mənim üzümə güldü, heyif ki çoxları üçün o, faciəli oldu”, deyir.

Daşkəndə artıq diplomat kimi qayıdan Əzimbəyov çoxsaylı Azərbaycan diasporunu toplayıb, burada müxtəlif mədəni-maarif tədbirləri və xeyir-şər mərasimləri keçirmək üçün zallar da nəzərdə tutulmaqla, böyük bir Mədəniyyət Mərkəzi tikməyi təklif etdi. Çox keçmədən başlanan işə elə özü də rəhbərlik etdi.

İndi bu bina haçansa doğma vətənindən sürgün edilmiş və sağ qala bilmiş bütün azərbaycanlıların Böyük Yaradana minnətndarlıq rəmzi kimi ucalmaqdadır.

bu yubiley günündə əziz dostuma ürəkdən cansağlığı, uzun ömür arzu etmək istəyirəm.

Məhərrəm ZAMAN

# Körpü

*(Sənədli povest)*





Qapımız bərkdən döyüldü, atam elə yatağından yarıyuxulu kal səslə: "Kimdir?" - deyə, soruşdu.

Qapını döyənlərdən səs çıxmadı, əksinə, qapımızı daha bərkdən döyməkdə davam etdilər. Atam ikinci dəfə: "Ə, kimdir orada?" - deyəndə, hamımız oyanmışdıq. O, yerindən qalxıb, qapıya getdi, anam onun gödəkcəsini atama uzadaraq: "Bayır soyuqdur, al geyin"- deyəndə, atam özünəməxsus tərzdə anama cavab verdi: "Mən hara gedirəm ki, Əminə?". Anam çiyinlərini çəkib atama elə baxdı ki, sanki, əvvəlcədən nə baş verəcəyini anlamışdı. Mənə başqa bir şey maraqlı gəlirdi, anam nə vaxt yerindən durub, qapının ağzına getmiş, atamın gödəkcəsini əlində hazır tutmuşdu. Axı o da bizimlə birlikdə aramsız döyülən qapımızın taqqıltısına oyanmışdı. Atam qapını döyənlərdən soruşanda: " Ə, kimdir orada?", anam yataqdaydı.

Atam qapını açar-açmaz evə üç nəfər hündürboylu ruslar girdilər. Mən onların zabit və ya əsgər olduğunu bilmirdim. O vaxtlar biz kimi hərbi geyimdə görürdüksə, deyirdik, ruslardır. Bu dəfə isə yanılmamışdım, qapımızı döyənlər, həqiqətən də, ruslar idi. Mən və bacılarım yerimizdən qalxsaq da, durduğumuz yerdə donub qalmışdıq. Sanki, kimsə bizə deyirdi ki, bu üç nəfər - çağırılmamış qonaqlar qapımızı döyərək qarşıda bizi gözləyən bəlaların ilk notlarını “hədiyyə” gətiriblər. Hamımızın səsi kəsilmişdi, heç anam da dinmirdi.

Çağırılmamış qonaqlar atam qapını açan kimi bircə kəlmə bunu dedilər: “Bizimlə getməli olacaqsınız”. Atam: “Bu dəqiqə, əynimi dəyişim, gedək” - desə də, dilimizdə güclə danışan rus qəti və əmranə şəkildə: “Gərək yoxdur, gedək!” - dedi. Vəssalam...

Atam ev paltarında, gödəkcəsini çiyninə salıb, evdən çıxdı. Mən onun ardınca qaçdım, “Ata, hara? Məni də ...”- ancaq sözlərimi axıracan deyib, çatdıra bilmədim. Qapımız zərblə çırpıldı və mən yerimdə donub qaldım.

Atamı aparmağa gələnlər təkcə üç zabit deyildi, bayırda həyətimizdə və küçəmizdə daha on-on beş silahlı rus da vardı.

Atam gedəndən sonra təqribən yarım saat heç kim yerindən tərpənmədən donub, durmuşdu. Hətta

bir-birimizə baxmaqdan qorxurmuşuq kimi baxışlarımızı yerə dikmişdik. Əlbəttə, mən onda tam təfsilatı ilə nə baş verdiyini bilmirdim. Əslində bacılarım da, anam da mənim kimi hadisələrdən bixəbər idi. Evimizdəki çaşqınlığı anam aradan qaldırmaq üçün bizə azacıq hirsli şəkildə: "Nə qurumuşsunuz, yerinizə girib, yatsanız" - deyib, üzünü yana çevirdi. Anamın səsindən və hərəkətlərindən onun qəhərləndiyi hiss olunurdu. Amma o, bunu bizdən gizlətmək üçün tələsik bayıra çıxdı. Mən pəncərəmizdən anamın ardınca baxdım. O, bayıra çıxan kimi yaylığının ucu ilə gözlərini silib, balaca taxta darvazamıza tərəf getdi. Yarıaçıla qalmış darvazadan küçəyə çıxıb, darvazanın arxasında duraraq, uzun-uzadı o tərəf-bu tərəfə boylandı. Dan yeri yenicə işıqlandığından küçə-bacada kimsə görünmürdü. Anam darvazanı bağlayanda oktyabr ayının apaydın sıcaqlığını azacıq azaltmış günəşi dağlar arasından pəncərəmizə düşərək, gözlərimi qamaşdırdı.

Anamın təkidinə baxmayaraq, səhər yeməyini heç kim yemədi. Heç anam özü də lavaşının arasına pendir qoyub, dürməkləsə də, bir diş də götürmədi. Süzdüyü çaylar stəkanlarda qaldı.

Evimizdə elə süskünlük hökm sürürdü ki, kimin necə nəfəs aldığını aydınca eşitmək olurdu. Arada-bir anamın "Of!" eyləyib, inildəməsi bu sükutu pozan

və ən bərk eşidilən səs idi. Evimizdəki pərişanlıq düz altı ay davam etdi. Bu altı ay ərzində nə başqaları kimi yemək yeyə bildik, nə də ki deyib-gülə bildik. Evimizin dini, bərəkəti atamla birlikdə ərşə çəkilmişdi.

Atam məni bacılarımın üçündən də çox istəyirdi. Bu da səbəbsiz deyildi. Məndən öncə doğulan oğlan uşaqları bir yaşına çatmamış ölmüşdülər. Şərti olaraq, ortancıl qardaşım isə yaylaqda atdan yıxılıb dünyasını dəyişmişdi. Üç bacının bir qardaşı olduğumdan atam məni hədsiz sevirdi. Ümumiyyətlə, ailəmizdə məni çox istəmələrinin səbəbini evimizin gələcək varisi olmağımda görürdüm. Anam da məni bacılarımdan daha çox istəyər, ağzının son tikəsini mənə yedizdirərdi. Mən sağ qalıb, gözə gəlməyim deyə, anam qulağımı deşdirib, sap keçirmişdi. Bu, məni pis gözlərdən, nəzərlərdən qorumaq üçün bilərəkdən edilmişdi ki, məni oğlan yox, qız bilsinlər.

Atamın yoxluğunda məni ən çox kədərləndirən o idi ki, daha məni boynuna alıb evdə, həyətdə gəzdirən yox idi. Ana və bacılarım məni qucaqlarından yerə qoymasalar da, bu, atamın boynunun əvəzini verməzdi. Ən çox da mənə atamın boynunda olarkən onun qaçmağı ləzzət edərdi. Onda mən yırğalanar, özümü atın üstündəki kimi hiss edərdim.

Beləcə, atasız və sevincsiz günlərimiz biri-birini əvəz edirdi. Atam isə gəlmək bilmirdi ki, bilmirdi.

Mən hər gün anamdan ən azı üç-dörd dəfə atamın nə vaxt gələcəyini soruşardım. O isə hər dəfə eyni sözlərlə mənə təskinlik verib, ümidləndirərdi: “Darıxma, bala, atan tezliklə gələcək, kim bilir, bir də baxdın, elə bu axşam qapı açıldı, girdi içəri”.

Alışmışdım deyə, bu sözlər mənə kifayət edirdi, ən azından bu təskinlik ümidimi itirməyə qoymurdu. Bir çox hallarda gözlərim qapımıza dikili halda yuxuya gedərdim. Nədənsə, mənə elə gəlirdi ki, atam mən yatanda gələcək? Bu səbəbdən də yatmaq istəmirdim, istəyirdim, onun gedişini gördüyüm kimi dönüşünü də görüm.

Ancaq hər gün yuxudan duran kimi onun yoxluğunu görüb, ilk sözüm və sualım bu olurdu: “Atam yenə gəlmədi?”. Artıq hamı buna alışmışdı deyə, suala cavab eyni və qısa olurdu “Gələcək!”

Bax, beləcə, atasız günlərimiz bir-birini əvəz edirdi. O isə ...?!

Atam gedəndən sonra bizə gəlib-gedənlər də azalmışdı. Seyid əmidən, bir də ki xalamın əri Məmmədrza əmidən başqa, demək olar ki, həyətimizə kişi ayağı dəyməzdi. Seyid əmi isə həyətimizə girməzdi. Küçədə darvazamızın ağzında durub, məni səslərdi. Bu, mənə xüsusi ləzzət verirdi, axı o, məni evin kişisi sayıb, çağırırdı. Bunu o, özü mənə demişdi, demişdi ki, atan gələnə kimi evin

kişisi sən sayılırsan. Mən də qaça-qaça onun görüşünə gedər, boynuna sarılıb, üzündən öpərdim. Seyid əminin adını mən bilmirdim, hamı onu Seyid əmi çağırardı. O, atamın ən etibarlı dostu idi və bunu sübut edirdi. Hər dəfə gələndə mənə mütləq xoruz alardı. O vaxtlar şirədən düzəldilmiş xoruzlar uşaqlar üçün ən dəbdə olan hədiyyə idi. Mən, sanki, atamın iyini ondan alırmış kimi Seyid əmidən ayrılmaq istəmirdim. Heç o da məndən ayrılmaq istəməzdi. Ən azından beş-on dəqiqə darvazamızın ağzında mənimlə oynayar, sorğu-sual edər və sonda: “Mən gedirəm. Bacılarını çağır, bunları aparın evə” deyib, gətirdiyi ərzaq payını darvazanın ağzında qoyub gedərdi.

Bəlkə də, bu səbəbdən idi ki, həmişə Bilan məhləmizi xatırlayanda birinci, Seyid əminin siması, sonra da taxta darvazamız gözlərim önünə gələrdi. Üstü enli, dəmir rəzəli, balaca taxta darvazamız. Gülməli də olsa, mən darvazamızı evimizin qapısından çox sevərdim. Niyə? Bunu bilmirəm. Bəlkə, ona görə ki, bu darvazadan həmişə xoş xəbər gözləyirdim. Axı bizə gələnlərin əksəriyyəti darvazanı açıb, həyətə girsələr də, evimizə gəlməzdilər. Bir çox hallarda darvazamızı döyüb, xəbəri elə küçədən çatdırardılar. Bir sözlə, darvazamız hafizəmdə əbədi qalmışdı.

Nə isə... Sən demə, atasız günlərimiz bizim üçün bayram sayıla biləcək qədər yüngül və şükür ediləsiymiş. Belə ki, bir gün lap sübh tezdən Məmmədrza əmi gözləmədiyimiz halda bizə gəldi.

Məmmədrza əmi qara, arıq, bəstəboy kişi idi. Olduqca zəhmli gözləri vardı. Nadir hallarda onun üzündə təbəssüm görmək olardı. Başına dimdiyi uzunsov o vaxtlar dəbdə olan "şapqa" qoyar, uzun, qara, par-par parıldayan çəkmə geyərdi. O, boydan balaca olsa da, enli kürəyi olduğundan pencəyinin qolları çox qısa olar, belində isə kəmərinin cibliyində "şapban" tapançası adamı vahimələndirərdi. Kəmərinə bərkidilmiş ciblikdə "şapban" tapançası olurdu. Onun tapançasına "şapban" adını mən qoymuşdum.

Məmmədrza əmi həyət qapısına çatıb, atdan düşdü. Onun atı qəribə at idi, tez-tez kişnəyər, sanki, uzaqdan hamıya: "Məmmədrza kişi gəlir, özünüzü yığışdırın" - deyə, xəbər verərdi. Bu dəfə də belə oldu.  Onun atı hələ darvazamıza çatmamış dörd-beş dəfə ucadan kişnədi. Biz evdə özümüzü yığışdırdıq. Anam uzun yaylığını çiyinlərindən qaldırıb, başına bağlayaraq, yamşağını ağzına aldı. Baxmayaraq ki, anam bacısından yaşda böyük idi və Məmmədrza kişi onun kiçik bacısının əri idi. Amma anam ondan gizlənərdi, yəni yamşaqda danışardı.

Məmmədrza əmidən hamı - uşaqlar, böyüklər, qız-gəlinlər çəkinirdi. Onu uzaqdan görər-görməz hərə bir tərəfdə orasını-burasını dartışdırıb, səliqəyə salardılar, əsasən də, qadınlar. Atam da beləydi, ondan da çəkinərdilər. Ancaq Məmmədrza əmi daha zəhmli, daha qaraqabaq idi. O, bizə nadir hallarda gələrdi. Gələndə də xalamla uşaqlarını da gətirər, bir neçə saat oturub, gedərdilər. O vaxtlar bilməzdim ki, o, bizə gəlib-getməkdən qorxurmuş, axı biz bəy nəslindən idik, atam kulak olmuşdu.

Məmmədrza əminin gəlməsini ən çox biz - evin uşaqları istərdik. Çünki o, bizim hədiyyəmizi mütləq gətirərdi.

Məmmədrza əmi tənbəki, yəni makorka çəkərdi, özü də müştüksüz.... Maxorkasının iyi o həyətdə olanda belə, adamın ürəyini bulandırardı. Mən evdəkilərin danışığından bilirdim ki, Məmmədrza əmi böyük adamdır. Şəhərin sayılıb-seçilən vəzifəsində işləyir. Ondan hamı çəkinir.

Nədənsə, bu dəfə Məmmədrza əmi bizə gəlişini gizlətmək istəyirmiş kimi qapımıza çatana qədər, azından on dəfə ətrafa boylandı. Qapını əlindəki at qamçısının arxalığıyla bircə dəfə döyərək, çox yavaş səslə: “Əminə!”- deyərək, anamı səslədi.

Anam qapını açıb, onu evə dəvət etdi. Məmmədrza əmi evə girmədi. Anama bu dəfə lap yavaş-

ca, pıçıltıyla dedi: "Əminə, çıx çölə, qapını ört, deyəcəklərim var, mən tələsirəm". Anam bayıra çıxıb, qapını örtdü. Mən və böyük bacım Laçın pəncərəyə tərəf getdik. Məmmədrza əmim anama nələrisə deyirdi, anam isə ağlayırdı. Çünki o, aradabir neçə dəfə yaylığının ucu ilə gözlərini sildi. Məmmədrza əminin də zəhmli gözləri dolmuşdu. O, anamla çox danışmadı, dönüb getdi, gedəndə darvazamızdan çıxan kimi əlini cibinə salıb, dəsmalını çıxarıb, gözlərini sildi.

Anam içəri girdi, üzündə təbəssüm yaratmağa çalışsa da, dodaqları titrəyirdi, əlləri əsirdi. Nə qədər çalışdısa da, həyəcanını bizdən gizlətsin, alınmadı, gözləri dolmuş halda Laçına tərəf gəlib, onu qucaqlayaraq dedi: "Get nənəgilə. Nənənə de ki, mənim əmanətimi götürüb, bizə gətirsin, gələ bilməsə, özün gətir. Amma ehtiyatlı ol, salıb itirməyəsən ha... Di durma, get! Yola çıxma, kəsə yolla Əlirza əmigilin həyəti ilə get!"

Laçın anamdan soruşdu ki: "Niyə, ana?". Anam ona cavab vermək əvəzinə: "Qız, sənə dedim tez ol, sual vaxtı deyil" - deyə, acıqlandı.

Laçın getdi, anam tələm-tələsik o biri otağa keçib, qapını bağladı. Fəxriyyə, Föqiyə və mən otaqda qaldıq. Danışmırdıq. Nə baş verdiyini anlamasaq da, üçümüz də doluxsunmuşduq.

Bir azdan nənəm bizə gəldi. Otağa girən kimi dizlərini döyəcləyə-döyəcləyə bizi qucaqladı. Sonra da eyni şəkildə dizlərini döyəcləyə-döyəcləyə anamın otağına keçdi. Laçın da onlarla getdi. Hardasa üç saatdan çox o biri otaqda qaldılar.

Artıq günorta olmuşdu, amma nə mən, nə də bacılarım yerimizdən tərpənmədən anamgilin otaqdan çıxmasını gözləyirdik. Birinci nənəm otaqdan çıxdı, qaça-qaça hinimizə tərəf gedib, qırmızı xoruzumuzu qoltuğuna vurub, geri gəldi. Biz olan otağa girib, Fəxriyyəyə dedi: “Ağıllı bala, al bu xoruzu, keç Əlirza əmigilin həyətinə, küçəyə çıxma ha, divardan aş, gör, evdə kim var, ver, xoruzu kəssinlər, tez gətir”. Fəxriyyə xoruzu nənəmdən alıb getdi. Nənəm bizi də işsiz qoymadı, “Siz də gəlin, nənə qurban, mənə kömək eyləyin, ocağımızı qalayaq” - deyib, özü otaqdan çıxdı, biz də onun ardınca.

Həmişə mənimlə birgə olanda dil boğaza sığmadan nağıldan, şeirdən, bayatıdan söyləyən nənəm, elə bil ki, lal olmuşdu. Heç bir kəlmə də danışmırdı. Yalnız arada dizlərini şapalaqlayıb: “Of-of! Evimiz necə yıxıldı, evin yıxılsın, Şura hökuməti” - deyib, ocağa odun atırdı.

Dözmədim bu sükunətlərə, soruşdum nənəmdən: “Nənə, nə olub e, heç kim danışıb-dinmir? Atam da gəlib çıxmadı, anam durmadan ağlayır”-sualla-

rım çox oldu, ya yersiz, bilmirəm. Nənəm cavab vermədi. Saçımı tumarlayıb: “Of-of!”-deyə inildəməsinə davam etdi. O, xoruzu böyük qazanda bişirirdi, lap novruz bayramında olduğu kimi. Anam da həmişə bu qazanda plov süzərdi, sonra da axşam: “Bu gün ilin axır çərşənbəsidir”- deyib, bütün qonşulara və qohum-əqrəbaya pay göndərərdi. Mən hələ təzəcə ayaq tutub, yerisəm də, yaxın qonşuların payını aparmaqdan xüsusi ləzzət alar, bu işi sevinə-sevinə edərdim.

Təqribən nə baş verdiyini rus əsgərləri həyətimizə təkrar gələndə bildim. Bildim deyəndə ki, onların içərisində olduqca kök, uzun bığlı, şələ papaqlı rus güclə anlaşılacaq tərzdə anama əmr verəndə ki: “Ey! Ay arvad, sizə bir saat vaxt verirəm, özünüzlə nə götürə biləcəksiniz, götürün, bizimlə gedəcəksiniz!”

Anam: “Hara belə?”-soruşanda həmin yöndəmsiz, kələ-kötür rus cavab verdi ki, “Sibirə. Siz sürgün olunmuşsunuz. Sizin kimi qolçomaqların yeri oradadır”. Anam daha onunla danışmağın yersiz olduğunu görüb, susdu. Bəlkə də, Məmmədrza əminin əvvəlcədən anama xəbərdarlıq etməsindən bilirdi ki, mübahisə etmək yersizdir. Əlbəttə ki, mən bu həqiqəti çox-çox sonralar başa düşəcəkdim.

Anam əvvəlcədən məsələdən hali olduğundan bizə verilən bir saatdan tez hazır olduq. Lakin evimizdən heç birimiz çıxmaq istəmirdik. «Getməyə» hazır olsaq da, evin ortasında, əşyalarımız əlimizdə gözləyirdik.

Bayırdakı yöndəmsiz rus qolundakı saatına baxıb, əlindəki papirosunu tüstülədə-tüstülədə otağa girdi: «Vaxtdır, çıxın bayıra, oturun arabaya!»-deyib, anama tərəf gələndə anam: «Yaxşı, çıxırıq, artıq sözlər lazım deyil, uşaqları qorxudarsız» -deyib, bizə tərəf dönərək: «Uşaqlar, gəlin ardımca» - dedi.

Məhlədə qonum-qonşu hamı arabanın ətrafına toplaşmışdılar. Nənəm elə qıy çəkib ağlayırdı ki, adamın sümükləri sızıldayırdı. Xalam gəlməmişdi, yəqin, Məmmədrza əmim qoymamışdı. Bizimlə görüşməyə heç kimi qoymadılar. Qonşulardan, qohumlardan Fizzə xala, Fatma xala, Pənah və anası hamı oradaydı, hamı da halımıza yanıb, ağlayırdı. Kimi açıq-aşkar, kimi isə üzünü yana çevirib. Amma anam ağlamırdı, gözlərinin dərinliklərində bədbinlik, qəm-kədər, həyəcan, təlatüm olsa da, o, üzünə təbəssüm verməyə çalışır, qəhərini boğurdu. Bunun da səbəbini mən sonralar biləcəkdim. Biləcəkdim ki, yüz istəyənimiz varsa, 10-da istəməyənimiz var, qoy onlar ağladığımızı görüb, «sevinməsinlər».

Nə isə, arabaya oturana qədər bacılarımın hərəsi anamın enli, qat-qat tumanlarının bir tərəfindən tutmuşdular, mən də əlindən. Anamın və bacılarımın hərəsinin bir əlində də əvvəlcədən hazırlanmış boğçalarımız vardı.

Maraqlıdır ki, mən evdən heç nə götürməmişdim, bircə atamın aldığı təzə ayaqqabılar əlimdəydi. Toplaşanlar bizi səssiz-səmirsiz baxışlarla yola saldılar. Beləcə, doğma elimizdən baharın güllü-çiçəkli yaz günündə ayrılası olduq...

Arabaya minən kimi anamdan soruşdum: «Ana, biz hara gedirik?» Cavab məni qane etdi: «Atanın yanına, oğlum». Bu cavabdan sonra kefim bir az köküldi. Baxmayaraq,  böyük bacım durmadan ağlayır, anam ona: «Bəsdir, el-oba baxır» deyib, arabir də özü «Of, of..!» eləyə-eləyə kəlağayısının ucu ilə gözlərini silirdi. Məhlə uşaqlarımız bizi aparan araba bir neçə küçə aralanana qədər arxamızca qaçdılar. Nədənsə, balaca uşaqlara rus əsgərləri toxunmurdular, amma böyüklərə az qala bizə baxmağı da qadağan edəcəkdilər.

Yadımdadır, iki qardaş - Heydərlə Cəlal lap sonacan bizi «müşayiət» etdilər. Axırda əldən düşüb durdular, onlar mənə əl etdilər, mən də təzə başmaqlarım olan əlimi qaldırıb, yelləyərək, onlarla vidalaşdım.

Arabamızı «müşayiət» edən rus əsgərləri bizi düz dəmiryolu vağzalına qədər gətirdilər.

Burada mənim qandığım qədər dərd-qəmimiz yadımdan çıxdı. Çünki vağzalda adam əlindən tərpənmək olmurdu. Bizdən fərqli, digər ailələr fəryad edib ağlayır, qarğış edib, şura hökumətini lənətləyirdilər. Amma biz uşaqlar, az keçməmiş dil tapdıq, çəkilib, bir tərəfdə öz kefimizə oynamağa başladıq, düz hava qaralanacan. Axşam düşənə yaxın, uzun taxta vaqonlardan ibarət yük qatarı gəlib dayandı. Bizim hamımızı doldurdular qatara. Mən və mənim kimi uşaqlar nə baş verdiyini bilmədiyimizdən sevinir, atlanıb-düşürdük. Axı ilk dəfə qatara minirdik. Digərlərini deyə bilmərəm, mənə olduqca  maraqlı idi.

Mal-heyvan daşınması üçün nəzərdə tutulmuş vaqonlar iki mərtəbəliydi. Bizim necə deyərlər «evimiz» qatarın lap küncündə, ikinci qatdaydı, balaca bacaya yaxın. Oradan ətrafı görmək olurdu. Düzdür, baca balaca olmasına baxmayaraq, bayırdan dəmir barmaqlıqlarla bağlanmışdı. Amma bayır görünürdü. Mənə bu hər şeydən vacib idi.

İçəridə adamlar bir-birinin üstündə olsalar da, «Ax!», «Of!», «Vay!» və dərindən ötürülən köks səslərindən, birdəki biz uşaqların təəccüb doğuran, yarıkədərli yarısevincli səs-küyündən başqa,

elə də gur səs yox idi. Yox, arabir arvadlar dizlərini də döyürdülər. Vaqonlarımızın cırhacırla açılıb-bağlanan qapısı şaqqıldayıb bağlandı. Vaqonun içərisi bir az da qaranlıqlaşdı. Qatar üç-dörd dəfə fit verib, kük-kük edərək, asta-asta yerindən tərpəndi. Elə bu vaxt vaqonda elə vay-şivən qopdu ki, gəl, görəsən. Balaca bacamıza neçə adam yığışmışdı? Bircə bunu görməyin özü bəs edərdi, təsəvvür edəsən ki, vaqonda nələr baş verir. Valideynlərinin vay-şivəninə biz balacalar da qeyri-ixtiyari qoşulası olduq. Balaca bacamızdan azı iyirmi əl bayıra çıxmışdı. Onlar niyə əllərini bayıra çıxarmışdılar, hələ də anlaya bilmirəm. Axı bu əllərin kimə mənsub olduğunu bayırdan təyin etmək mümkün deyildi. Həm də bayırda rus əsgərlərindən başqa, kimsə yox idi ki... Vaqonumuzdakı səs-küydən qulaq tutulurdu. Bayırdan isə qatarın təkərlərinin şaqqıltısı, onun uzun-uzadı qulaqbatırıcı fiti bu vahiməli anı daha qorxunc edirdi. Zaman keçəcək, mən anlayacağam ki, balaca bacadan bayıra çıxan əllər, vətənlə, torpaqla vidalaşmaq üçün imiş...

Çox keçmədi ki, «vaqon evimizdə» təkrar sakitlik bərqərar oldu. Anam bacılarımı sakitləşdirsə də, məni yerimdə oturda bilmirdi. Boynuma alım ki, uşaqlıqda çox dəcəl olmuşam. Təsəvvür edin ki, elə

həmin vaqonda Kəlbəmalışın (onu belə çağırırdılar) papağını vaqonun balaca pəncərəsindən bayıra tullamışdım. Buna görə məni cəzalandırmasalar da, həyatım boyu bu hadisəni unuda bilmirdim. Sonralar hər dəfə o kişini görəndə, utandığımdan üzünə baxa bilmir, qulaqlarıma qədər qızarardım.

Qatar getdikcə surətini artırır, dayanıb-durmadan tak-tuk, tak-tuk edə-edə yoluna davam edirdi. Tam hava qaralıb bayır görünməz olana qədər, heç kimə imkan vermədən ətrafa baxdım. Axır ki, əldən düşüb başımı balaca dəmir barmaqlı bacadan çəkib, başqalarına hava almağa imkan verdim.

Mənim başım qatarın necə hərəkət etdiyinə, bir-bir kəndlərin necə arxada qalmasına qarışdığı vaxt, anam mələfədən kiçik «otaq» hazırlamışdı. Buna oxşar «otaqlar» başqa ailələrdə də vardı. Yalnız bizimlə bu səfərə ailəsiz gedənlər özləri üçün «otaq» hazırlamamışdılar.

Bizim vaqonda azından yüzə yaxın adam vardı. Əksəriyyəti də öz ailələri üçün daldalanacaq yuva düzəltmişdi. Bu görünüşlə vaqonumuz kiçik kəndi xatırladırdı.

Maraqlısı o idi ki, bu qədər yol getmişdik, heç kim yemək yemirdi. Bizim özümüz səhərdən bir tikə də olsun, yeməmişdik. Heç su da içdiyimiz yadıma gəlmirdi. Bax, bu «sükunəti» mən pozdum, anama

qısılıb: «Ana, acmışam»-dedim. Anam saçlarımı sığallayaraq: «İndi sənə yemək verərəm» dedi. Qəribəydi, ətrafdakı qadınların əksəriyyəti ağlayıb-sıtqasalar da, anam doluxsunmuşdu, amma ağlamırdı. Yalnız arada dərindən köks ötürür, hərdən də «of-of!» deməklə kifayətlənirdi. Anam süfrə açdı, yanımızdakı «evlərdən» bir neçə uşaq bizim süfrədə əyləşdi. Anam onlara da yemək verdi. Anamla bacılarım adama bir-iki tikə yeyib, həyətimizdən götürdüyümüz quyu suyundan bir qurtum içib, çəkildilər. Mən və vaqon evimizdəki qonşu uşaqlar doyunca yedik. Bu, mənim ən azından qarşıdakı iyirmi ildə axırıncı qarındolusu yeməyim oldu...

Axşamlar «vaqon evimiz» yatmaq üçün dözümlü olsa da, gündüzlər bunu demək çətin idi. Elə ki, günorta olurdu, nəfəs almaq çətinləşirdi. Əzablarımız bircə bununla bitsəydi, nə var idi ki? Vaqonumuzun baş tərəfində ayaqyolu quraşdırılmışdı. Yüz nəfər üçün bu ayaqyolu davamlı növbə yaradırdı. İçəridə iydən nəfəs tutulurdu. Digər tərəfdən isti vaqondakıları tərlədirdi və yuyunmaq üçün imkan olmadığından bu da bir tərəfdən «vaqon evimiz»in iyini daha da kəskinləşdirirdi.

Üç gündən bir böyük dayanacaqlarda vaqonların qapısını açır, hər vaqondan iki-üç nəfəri əsgərlərin müşayiəti ilə su və ərzaq götürməyə aparırdılar.

Bizim «vaqon evimizin» qapısı ilk dəfə üç gündən sonra açıldı. Hələ də Azərbaycanda olduğumuzu bayırdakı səslərdən anlamaq olurdu. «Vaqon evimizin» qapısını açan bir zabit və əlində uzun, ucu iti, nizəli iki silahlı əsgər qəti və əmranə şəkildə bağırdılar: «Üç nəfər kişilərdən qaynadılmış su və vaqonun ərzaq payını götürmək üçün yerə düşsünlər».

İlk əvvəl hamı bir-birinin üzünə baxdı, heç kim qabağa çıxmaq istəmədi. Yalnız ikinci dəfə zabit çox ədəbsiz söyüşlə üç nəfərin irəli gəlməsini tələb edəndə, vaqonumuzdakı beş-altı kişi irəli çıxdı. Zabit üç nəfəri bir-bir göstərərək: «Sən, sən, sən, ardımca gəlin! Qaçmağa cəhd etsəniz, xəbərdarlıq olunmadan güllələnəcəksiniz» - deyib, kənara çəkildi. Vaqonumuzdan üç nəfər düşüb, ruslarla getdi. Bir nəfər əsgər yaxınlaşıb, vaqonun qapısını bağlamaq istəyəndə vaqonumuzda hamıdan yaşlı (bəlkə də, onun yüz yaşı olardı) qoca əsgərə yalvarıcı səslə: «Oğul, qoy qapılar azca açıq qalsın, heç olmasa, yarımca saat rahat nəfəs alaq». Əsgər sərt və kobud səslə: «Yox, buna ixtiyarım yoxdur» - deyib, cırhacırla açılıb-bağlanan «vaqon evimizin» qapısını bağladı. Biz vaqonumuzdan ərzaq ardınca gedənlər gələnə qədər nəfəsimizi «dərməyi» saxlamağa məcbur olduq. O beş-üç dəqiqəlik təmiz hava üzlərdə təbəssüm yarada bilmişdi. Əhval-ruhiyyədə şən-

lənmə hiss olunurdu. Hətta bəzilərinin gözü azacıq işıqlanmışdı da. Bəlkə də, bu, təkcə vaqona dolan təmiz havadan deyildi, ola bilsin, zabitin vaqondan düşənlərin həm də ərzaq götürsəcəyini deməsi təsir etmişdi. Axı özü ilə heç nə götürə bilməyən, evindən sorğusuz-sualsız çıxarılmış, günahının nədən ibarət olduğunu hələ də bizim kimi bilməyən insanların, nəhayət ki, doyunca yemək yeyəcəkləri arzusu da buna təsir edə bilərdi, bunu deyə bilmərəm».

Vaqonumuzdan gedənlər gec gəldilər, azından saat yarım keçdi. Bu vaxt ərzində kimsə danışıb-dinmədən, gedənlərin nə vaxt gələcəyini sükutla, səbirsizliklə gözlədilər. Əksər vaqon əhli gedənlərin nə üçün getdiyini doğru-düzgün bilmədiklərindən, su qablarını onlara verməyə macal tapmamışdılar, biz də həmçinin. Yaxşı ki, ərzaq dalınca gedənlər fərasətli çıxmışdılar, hardansa əlavə su qabları tapıb, artıq su götürmüşdülər. Yoxsa ayaqyolundakı su çəninə güvənib, su götürməsəydilər, susuz qalacaqdıq.

Axır kı, vaqonumuzun qapıları təkrar açıldı, təxminən yüz nəfər üçün nəzərdə tutulmuş günü və vaxtı bəlli olmayan ərzaq və su payı gəlib çıxdı. Üç nəfərdən ikisi taxta yeşiklərdə yemək, bir nəfər isə əlində, çiynində, hətta kəmərində də su qablarında gətirdiklərini bizə çatdıra bildilər. Bundan əlavə, iki

əsgər də bizim üçün çörək dolu kisələr gətirmişdilər.

Zabit vaqonun qapısında dayanaraq deyirdi: «Adambaşına bir çörək verilir, şəkər beş ədəd, meyvə qurusu və qalan yeməklər hərəyə bir büküm paylanacaq. Növbəti dayanacaq üç gündən sonra nəzərdə tutulur. Ona görə də ərzağınızı elə bölün ki, sonrakı günlərə də çatsın. Əlavə «payok» heç kimə verilmir!». O, sözünü qurtarar-qurtarmaz vaqonumuzun qapısı təkrar bağlandı.

Sonrakı ərzaq bölgülərindən fərqli olaraq, bu dəfə basabas, qırhaqır düşmədi. Hamı növbə ilə yaxınlaşıb, paylarına düşən çovdar çörəyini, qaynadılmış kartofu, meyvə qurusunu və şəkər payını alıb, yerlərinə  qayıtdılar.

Bu vaxtacan anamdan ən azından iyirmi dəfə: «Bəs atamla nə vaxt görüşəcəyik?» -deyə, soruşmuşdum. Həmişə də, «Atanla görüşməyə gedirik, ağıllı balam» cavabını almışdım.

Su və ərzaq paylanandan sonra şərti evimizdə, daha doğrusu, yeni kəndimizdə bir canlanma vardı. Bir göz lazım idi ki, bu səhnəni yaxşı görsün, böyük dəmir qabdakı qaynar su soyumamış gilas qurusundan dəmlənmiş çay içmək üçün adamların az qala, yarısı əl-ayağa düşmüşdülər. Deyəsən, bizim kimi boxçasında quru çay götürənlər də tapılmışdı. Xülasə, çay dəmlənmə dəsgahı başa çatdı. Mən uşaq ol-

sam da, belə ac-gözlüklə çay içilməsini görməmişdim. Mənə çatan çay payım soyuduğundan ilıq idi. Bəlkə də, buna görə içmədim. Mənim çay payımı balaca bacımla ortancıl bacım yarı bölüb, içdilər.

Belə baxanda adi çay içirdik, amma bu çayı biz necə ləzzətlə, necə sevgi ilə içirdik, bunu görmək lazım idi. Gün ərzində ən azı beş-altı dəfə çay içməyə vərdiş etmiş insanlar üç gün çaysız qalmışdılar. Bəlkə də, onlar yemək üçün elə də darıxmamışdılar, aclıqlarını o qədər də hiss etmirdilər, nəinki çaysızlıqlarını.

Beləcə, çay içildi, ardınca yemək yeyildi və sakitlik bərqərar olundu. Mən öz yerimi almışdım. Balaca dəmir barmaqlı bacamdan çölə baxırdım. Qatarımız burada çox dayandı, azından altı-yeddi saat. Yola düşəndə isə qatarımızın vaqonları artmışdı, bunu mən daha yaxşı görürdüm. Çünki qatar bəzən əyri yollarda olarkən onun bu başı ilə sonu aydınca görünürdü. Hətta qatarı soxulcana da bənzədirdim. Yalnız bunların bircə fərqi vardı, soxulcan həm irəli, həm də geri hərəkət edə bilirdi, qatar isə yalnız bir tərəfə hərəkətdəydi (mən elə düşünürdüm ki, qatar arxaya gedə bilmir). İndi qatarımızın bu başından baxanda o biri başını görmək çətinləşmişdi. Belə əyri yollarda qatarımızı çəkib aparan parovoz elə tüstüləyirdi ki, onun qara tüstüsü burnuma, gözü-

mə dolub, acışdırırdı. Artıq balaca bacadan baxmaq məni yavaş-yavaş usandırırdı.

Növbəti günlərin birində ikimərtəbəli vaqonumuzda yenidən səs-küy qopdu. Kişilər hamısı yuxarı -»ikinci mərtəbəyə» qalxdılar. Mən nə baş verdiyini anlaya bilmirdim. Yanımdakıların danışığından başa düşdüm ki, gəlinlərdən birinin «sancısı» tutub. Onun nədən sancısının tutduğunu da başa düşmürdüm. Bircə onu bilirdim ki, həmin Qönçə adlı gəlin bağırır. Özü də elə bağırır ki, qatarın taq-tuku eşidilməz olur. Onun bağırtısından qorxduğuma görə ikinci qatdan yerə düşdüm, qaçıb anama qısıldım. Anam nə qədər desə də ki, yerimə dönüm, getmədim. Qönçə xalanın nədən ağladığını, niyə qışqırdığını anamdan soruşdum. O da dedi ki, bəs o doğur. Çox keçməz ki, dünyaya yeni bir uşaq gələcək. Gəlin isə bağırmağında davam edirdi, onun ətrafına beş-on arvad yığışmışdı. Hərəsi bir tərəfdən ona təskinlik verir, «Döz, döz!» deyə-deyə gah onun tərini silir, gah da qarnını sığallayırdılar. Bu, mənim Qönçə xalanın ətrafındakı arvadların arasından gördüklərim idi.

Qönçə xalanın doğmağı günortaya qədər uzandı. O, sakitləşəndə, artıq balaca uşaq səsi vaqonu bürümüşdü. Buna hamı sevinirdi, hərə bir tərəfdə: «Allaha min şükür, yaxşı qurtardıq» -deyirdi. Yeni dünyaya gələn uşağın adını «vaqon evimizin» ən

yaşlı sakini Əziz baba qoydu. Beləliklə də, «vaqon evimizin» yeni sakini Eldar bizə qoşuldu.

Sanki, Birinci Dünya müharibəsinin qalibi olmuş kimi «vaqon evimizdə» şən əhval-ruhiyyə vardı. Hamı Eldarın dünyaya gəlişindən sevinir: «Nə yaxşı oldu, oğlan doğuldu, bu, yaxşı əlamətdir. İnşallah, axırımız yaxşı olar» - deyib, adamlar bir-birlərinə təskinlik verirdilər.

Anam da sevinirdi, elə bil, Qönçə xala deyil, anam özü dünyaya uşaq gətirmişdi. Son altı ay yarımda ilk dəfə anamın üzündə əsl təbəssüm gördüm. Anam bu təbəssümlə axşamlar atam evə gələndə onu qarşılayar, səhər işə gedəndə yola salardı. Əlbəttə ki, bizə yemək verəndə, nənəm və ya xalam bizə gələndə, qonşu qadınlarla oturub söhbət edəndə də anamın sifətində bu sevinci, təbəssümü görmək olurdu.

Anamın üzündə sevincli anlarında yaranan bu qeyri-adi, cəzbedici təbəssüm atamı da valeh edərdi. Yadımdadır, bir dəfə atam nədənsə, anama hirslənmişdi. Anam isə atama beləcə, indiki təbəssümlə baxırdı. Bu vaxt atam dözməyib, güldü və anama dedi: «Əminə, mən sənə hirslənirəm, sən isə bunu təbəssümlə qarşılayırsan. Mənim də hirsimi soyudursan. Vallah, sənin təbəssümlü üzündə şeytan tükü var».

Bax, beləcə, həqiqətən də, anam çox gözəl idi, lakin üzündə təbəssüm olanda o, daha da cazibədar olurdu.

«Vaqon evimizdə» ailəmizə xüsusi hörmətlə yanaşır, böyük ehtiram göstərirdilər. Vaqona gətirilən ərzaq, qaynadılmış su ilk olaraq, bizə göndərilirdi. Biz növbəyə durmazdıq, ərzaq paylayan özü payımızı «yuvamıza» gətirərdi. Kişilərlə yanaşı, qadınlar da anamı çox istəyərdilər, bir şey olmamış: «Əminədən soruşun, o bilər» - deyərdilər.

Anam varlı-karlı ailədən olsa da, savadı yox idi. Amma heç fəlsəfəçilər də onun kimi tez və məntiqli nəticə çıxarmağı bacarmazdılar. Anam oxumamış alim idi. Bəlkə də, onun bu şəkil düşüncə tərzinin olmağında atamın danılmaz rolu vardı, bunu bilmirəm. Atam savadlıydı. O, uşaq vaxtı Molla məktəbinə getmiş, sonralar isə Şura hökuməti qurulanda yeni açılan məktəblərdə dərs almışdı. Bəlkə də, bu səbəbdən idi ki, atam həmişə yaxşı yerlərdə işləmişdi. O, ərəb, fars, öz dilimizi bilməklə yanaşı, azmaz da rus dilini bilirdi. Anamla yaşadıqları on dörd illik birgə həyat anamın dünyagörüşünü formalaşdıra bilmişdi.

Qatarımız böyük şəhərdən keçirdi, sürətini azaltmışdı. Mənim balaca, dəmir barmaqlı bacamdan baxan bir kişi ucadan: «Vay, dədə, vay! Biz

Həştərxandayıq»-dedi. Balaca bacaya axın başladı, hərə bir tərəfdən Həştərxanı seyr etmək istədi. Bilmirəm nədənsə, məndə bu şəhər maraq oyatmadı. Bəlkə də, qarnımın ağrımağı, fikrimi yayındırdığından belə oldu, deyə bilmərəm. Amma qatarımız Həştərxandan keçəndə baxmadım.

Bax, beləcə, get-gedə qarnımın ağrısı şiddətlənirdi. Saatda ən azından beş dəfə ayaqyoluna gedirdim. Bu halda təkcə mən deyildim, bütün balaca uşaqların hamısı mənim günümdəydilər. Böyüklərin sözlərindən anlamışdım ki, biz qarın yatalağına tutulmuşuq. Vaxtında qarşısı alınmasa, vaqondakıların hamısı yoluxacaq. Anam qəndi Cəfər kişinin çaxmağında yandırıb, mənə yedirdir, ya da ki, zəhər kimi tünd çay içirirdi. Amma nə faydası, düzəlmirdim ki, düzəlmirdim. Məndən bir gün sonra artıq böyüklərdən də bu xəstəliyə tutulanlar az deyildi. Qatarın nə zaman dayanacağı bəlli olmadığından dözməyə məcbur idik. Yalnız qatar dayananda biz rus zabitlərindən «tibbi kömək xahiş edə bilərdik». Deyilənlərə görə, orta vaqonların birində həkimlər varmış, onlar həddən artıq dözülməz xəstələrə yüngül tibbi yardım edirlərmiş. Ümidimizi üzmədən qatarın dayanacağı ani gözləməliydik və gözlədik.

Artıq gündüzlər vaqonumuzda dözülməz isti olduğundan kişilər bir neçə dəlmə-deşik açmışdılar.

Hətta vaqonun bir yerində taxtanın birini aralayıb, parçı əzərək, taxtanın arasına qoymuşdular. Bunun sayəsində də vaqonumuza daha çox təmiz hava daxil olurdu. Ancaq bununla belə, bütün səylərə baxmayaraq, iy-qoxu dözülməz həddə çatmışdı. Artıq mən də iyə dözə bilmirdim. Çox adam ağzını-burnunu dəsmalla sarıyırdı. Ancaq hava elə isti olurdu ki, ağzıbağlı heç bircə dəqiqə belə dözmək mümkün olmurdu. Daha bir gün, bir günorta qatarımız dayanmadan irəlilədi. Əvvəllər arada qatar stansiyalara çatanda yavaşıyaraq, bizi ümidləndirirdi ki, indicə dayanacaq. Amma Həştərxandan çıxandan qatarımız sürətini azaltmadan irəliləyirdi...

Yavaş-yavaş kəndlər-qəsəbələr seyrəldi. Cansıxıcı, uzun-uzadı günlər başladı. Dəmir yolunun hər iki tərəfi ya keçəl təpəliklər, ya da ki, göz işlədikcə uzanıb gedən meşəliklərlə əhatə olunurdu. Üç-dörd saatdan bir, bəzən də gün ərzində təsadüfən bir canlı görünürdü, ya yox.

İkinci gün idi ki, mən balaca bacamızdan bayıra baxa bilmirdim. Elə taqətdən düşmüşdüm ki, ayağa durmağa halım yox idi. Bəzən bədənim od verib yanır, bəzən də titrətmə tutub əsirdim. Deyəsən, haradasa qatar dayanmış və vaqonumuza bu zəhrimar qarın yatalağına qarşı həb vermişdilər. Anam mənə zəhər kimi acı dərmanlar içirirdi. Arada özümə gə-

ləndə gözümü açıb, ətrafıma baxırdım. Ən azından altı-yeddi adamı başım üzərində duran və ya yanımda oturan görürdüm. Anam durmadan ağlayır, bacılarım isə baş-gözlərinə döyürdülər. Nədən onların belə etdiklərini başa düşmürdüm və hər şeyi görsəm də, cavab verib, danışmaq istəmirdim. Daha ayaqyoluna özüm gedə bilmirdim. Növbə ilə hərdən biri aparırdı. Son vaxtlar balaca bacam üçün çox darıxmışdım. Bu halsız və huşsuz vəziyyətdə neçə gün qalmışdım, deyə bilmərəm. Halsızlıq, huşsuzluq məni üzürdü...

...Artıq böyümüşdüm, canlı-cüssəli, yaraşıqlı gənc idim. Evimiz qumlu səhranın tən arasındaydı. Neçə gün idi ki, su ehtiyatımız qurtardığından susuzluqdan yanırdıq. Hətta iş o yerə çatmışdı ki, anam və bacılarım su deyib, fəryad edirdilər. Susuzluq məni də taqətdən salırdı. İki iri su qabı götürüb, evdən çıxdım. Qumlu səhralıqda nə qədər yol getdiyimi deyə bilmərəm, taqətdən düşüb yıxıldım. Özümə gələndə yarıya qədər qumun içində olduğumu gördüm. Adamı havaya qaldırıb, apara biləcək qədər güclü külək əsirdi, daldalanacaq yer gözə dəymirdi. Bəlkə də, belə bir yer yaxınlıqda vardı, lakin küləyin üstümə sovurduğu qum dənəcikləri gözümü açmağa imkan vermirdi. Amma qaldığım yerdən qalxdım, arxam küləyə irəlilədim.

Lakin ciyərim suzundan yanırdı, dodaqlarım bir neçə yerdən partlamışdı, qan süzülürdü. Əlimi dodağımdan axan isti qana toxundurub, azacıq gözümü açıb, baxdım. Yanılmamışdım, həqiqətən də, dodağımdan qan axırdı. Su dalınca çıxmağıma peşman olmuşdum. Özümü danlayırdım ki, niyə evdə oturmadım? Elə həyətimizdə quyu qazardım, su çıxardı, lap yaxşı, çıxmazdı, azından doğmalarımın yanında ölərdim. Eh, nədən evdən çıxdım? Evdə qalsaydım, heç olmasa, bu zinhara qalmış, qumsovuran küləkdən xilas olmağa daldalanacaq yer vardı. Bütün bunlara baxmayaraq, dözülməz də olsa, irəliləməkdə davam edirdim. Bəlkə də, qumsovuran küləyə dözmək olardı, lakin susuzluq aman vermədən məni gücdən salırdı. Necə bu zülmlərə dözürdüm, başa düşmürdüm.

Hər çətinliyin bir sonu olar, deyiblər, lakin mənim bu qumsal səhrada, qumsovuran küləklə mübarizəm, deyəsən, bitmək bilmirdi. Yıxılıb-durub irəliləməkdə davam edirdim. Bununla belə, gücüm tükənirdi. Dizlərim boşalır, haldan düşür, iradəmə tabe olmaq istəmirdi.

Budur, bu da sonu. Mən özümə qarşı nifrətli səslə, sonu görünməyən qumsal səhrada qışqırıram: «Bəsdir, yetər, yoruldum, sən qalib çıxdın, əcəl!» -deyib dayanıram, dizlərim bükülür. İlk əvvəl

dizlərimi qumun üzərinə qoyuram, sonra isə əllərimi, sakitcə uzanıram. Gözüm önündə anam və bacılarım canlanır. Onlar: «Su, su, su!»-deyə, qışqırır, mənə tərəf əllərini uzadaraq kömək istəyirlər. Ümidsiz başımı bulayır: «Əlimdən gəlmədi, sizi xilas edə bilmədim»-deyib, gözlərimi yumuram.

Bu vaxt qaralmış gözlərim nurlanır, uzun, ağappaq saqqallı, gözlərindən işıq süzülən bir qoca mənə yaxınlaşır. Əlini başımın üzərində gəzdirir, yuxusunda diksinən adamlar kimi silkələnirəm. O, əlini başımdan götürür. Onun əli qalxdıqca mən də qalxıram. Bu xilaskar qoca hansısa anlaşılmaz dildə danışır. Amma mən onu başa düşürəm. O, mənə deyir: «Qalx, Aydın, qalx! Düz irəli get, sən istəyinə çatacaqsan. Görürsən, daha susuzluğun qalmayıb, gücün özünə qayıdıb. Axtardığın su isə dərindədir, onu tapmaq, qazıb çıxarmaq, ana və bacılarını xilas etmək lazımdır. Mən səni xilas etdim, sən də onları xilas et. Sənin qaranlıq yollarına işıq salacağam, qalanı sənlikdir». O, sözünə ara verir. Mən yerimdən qalxıram, hər tərəf qaranlıqdır. Gözlərimi ovuşdururam, açanda qarşımda işıqlı cığır görürəm. Heyrət məni bürüyür, ətrafıma baxıram, heç kim yoxdur. Hər tərəf zülmət qaranlıqdır, yalnız qarşımda uzun, sonu görünməyən cığır var. Gedirəm...

Yenicə bu işıqlı cığırla gedirdim ki, qulağıma səs gəldi. Bu, onun səsiydi, uzun ağappaq saqqallı, işıq saçan qocanın. O deyirdi: «Cığırla get, istədiyin cığırın sonundadır. Amma məni gördüyünü heç vaxt heç kimə demə, sənə gücnlü hissiyyat, öncədən bilmə, bir də xoşbəxt gələcək verdim!»

Nə susuzluğum qalmışdı, nə də ki yorğunluğum. İri addımlarla qarşımdakı cığırla gedirdim.

Bu yuxudanmı deyim, ölümayağı son vidadanmı, bir də ayıldım ki, qarşıda iri gövdəli, qollu-budaqlı, bəlkə də, qırx-əlli il bundan qabaq qurumuş, hətta gövdəsinin qabığı belə, çürümüş ağac var. Heç nə olmamış kimi qalxdım, zərrə qədər də susuzluğum, yorğunluğum yox idi. Özümü çox gümrah hiss edirdim.

Düşündüm, yaxşı susuzluğum, yorğunluğum yoxdur, bu əla, bəs bu qocanın dediyi su hanı? Axı onun dedikləri oldu. Mən su istəmirəm, yorğunluğum da yoxdur, bəs suyu haradan tapım? Bircə metrliyimdə olan ağaca söykənib, fikirləşdim. Burada səhranın ortasında bu böyüklükdə ağac varsa, deməli ki, burada, ətrafda, nə vaxtsa, su olub, yəqin, «mənim xilaskarım» buna işarə edirmiş.

Arxalığımdan asdığım balaca beli çıxardım, ağacdan iki-üç metr aralıda, tələnmiş qumsallığı qazmağa başladım.

Nə qədər qazdığım yadımda deyil, bir də onda hiss etdim ki, yerin dərinliyindəyəm. Qaranlıq bir yerdə, məndən yuxarıda çıraq kimi işıq görünür. «Bəs burdan necə çıxacağam?» -deyib, özümə sual etdim. Susuzluğum və yorğunluğum özümə qayıtmışdı. Necə haldan düşmüşdümsə, daha beli torpağa vura bilmirdim. Kürəyimi qazdığım quyunun divarına söykəyib, gözlərimi yumdum. «Bəsdir, mən qurtardım, ölürəm, heç olmasa, son nəfəsimdə sakitcə oturum, dincimi alım. Anam və bacılarım məni bağışlasınlar, onları xilas edə bilmədim» - deyib, özümə söz verdim ki, bir daha belə toxunmayacağam. Elə burdaca - qazdığım quyunun dibində canımı tapşıracağam. Qoy qazdığım bu quyu məzarım olsun.

Gözümü yuman kimi nə görsəm, yaxşıdır? «Vaqon evimizdəki» hamının baba deyə, müraciət etdiyi Əziz baba qarşımda durub deyir: «Oğlum, mən öz son gücümü sənə verdim, qalan ömrümü də. Götür belini, bir az da qaz. Son dəfə özünü sına, bəlkə, xilas ola bildin». Qocanın sözünü yerə salmadım, beli əlimə alıb, zərblə torpağa vurdum. Su fantan verdi. Doyunca içdim və bir də gördüm ki, suyun üzündəyəm, həmin o qabığı da tökülmüş ağacın altında, ancaq indi bu qupquru ağac yamyaşıl olub...

Gözümü açdım ki, anam və Əziz baba başımın üstündə durublar. Anam əlində su mənə deyir: «Al iç, oğlum. İç, bala, bizi bu günə salanların Allah cəzasını verər, inşallah».

Baş verənlərə inana bilmirdim, mən öz «vaqon evimizdə» anamgilin yanındaydım. Anam suyu mənə içirib, göz yaşlarını adəti üzrə yaylığının ucu ilə silərək, dedi: «Aydın, bala, hamını qorxutdun ha. Yuxuda elə sayıqlayırdın, elə bildim ki, daha səni...» -sözünü axıracan deyə bilmədi, bu dəfə hönkürüb ağladı. Anamı ilk dəfə belə ucadan ağlayan görürdüm. Baba əlini anamın çiyninə qoyub, dedi: «Əminə bala, daha ağlama, Allaha çox yalvardım ki, məni öldürsün, amma uşağa qıymasın, eşitdi məni Tanrı. O qayıtdı, mən gedirəm». O, belə deyib, getdi. Anam babamın ardınca: «Allah eləməsin, ay baba, elə demə» - deyib, alnımın tərini sildi. Heç üstündən on dəqiqə keçməmiş pıçapıç düşdü ki, Əziz baba canını tapşırıb...

Həmin gün axşama doğru anama gördüyüm yuxumu danışdım. O, elə sevindi ki, elə bil, xəzinə tapıb. «Nə yaxşı, ay bala, nə gözəl yuxu görmüşsən. Sən ki suyu çıxarıb, ağaca can vermişsən, demək, çox tezliklə atanla görüşəcəyik, inşallah»- dedi.

Mən də belə yaxşı yuxu gördüyümə sevindim. Bəs necə, mən yuxu görməsəydim, kim bilir,

atamla ayrılıq hələ nə qədər sürəcəkdi. Anamdan soruşdum ki, «Ana, yuxuların hamısı doğru olur?». Dedi ki: «Ay bala, yuxu bir növ insanın ruhudur. O, nədən narahatdırsa, o haqda da vücudu yuxular görür. Hələ insanlar yuxunun tam yozumunu başa düşmürlər, ondan istifadə edə bilmirlər. Hər yuxunun öz anlamı var. Dünyanın böyük şəxsiyyətləri, hikmətli insanları, şahları, xanları, sərkərdələri həmişə yanlarında yuxuyozan saxlayırmışlar və əksər hallarda yozulan yuxular düz çıxırmış.

Anam yuxu haqqında elə danışdı ki, istədim, yatım, yuxunun ardını təkrar görüm, alınmadı. Daha doğrusu, su içib, bircə tikə yemək yedikdən sonra yenidən yatdım. Lakin yuxumun ardını görə bilmədim. Təkrar ayılanda isə vaqonumuzda iydən nəfəs almaq olmurdu. Mənim balaca bacama azacıq təmiz hava üçün növbəyə durmuşdular. Adamlar növbə ilə burada durub, başlarını bacaya söykəyib, bir neçə dəqiqəlik normal nəfəs almağa çalışırdılar. Anamdan nə baş verdiyini soruşdum: «Bu nə iydir belə, ana?». Cavab verdi ki: «Oğlum, bu, sənin üçün Allaha canını tapşıran babanın meyitinin iyidir. İki gündür, qatar dayanmadan gedir. Meyit də iylənib. Çarəmiz yoxdur, ay bala, dözməliyik». Dözdük də. Növbəti dayanacağa qədər...

Əziz babanı el adəti ilə dəfn etməyə ruslar icazə vermədilər. «Bu sizin işiniz deyil. Onu necə dəfn etmək bizim işimizdir» - deyib, meyiti vaqondan endirdilər.

Əziz babanın, hətta ölümü də vaqondakılara xeyir verdi, qatar azından dörd saat dayandı. Mübahisələr, deyişmələr və şikayətlər vaqonumuzun cırhacır açılan qapısını açıq qoydu, doyunca nəfəs aldıq. Nədənsə, Əziz babanın ölümündən sonra vaqonumuza yaxşı baxmağa başladılar. Üç nəfər ağ xalatlı həkim vaqonumuza gəldi, hamımızı müayinə etdilər. Mənə xüsusi dərmanlar da verdilər. Yeməyimizi də artırmışdılar. Əvvəl üç günə iki kisə çovdar çörəyi verirdilərsə, indi yarım kisə artırmışdılar. Yəqin, bunlar belə edirdilər ki, vaqonumuzda yaranmış narazıçılıq çərçivəsindən çıxmasın. Həkimlərin gəlişi isə sırf epidemiya yayılmasına qarşı idi. Bunu vaqonumuzun «sakinləri» danışırdılar. Çünki meyit çox iylənmişdi. Hətta deyirdilər ki, Əziz babanın meyiti qurdlanıbmış. Beləcə, vaqonumuzun bir sakini artdısa, birini də itirdik.

Günlər bir-birini əvəzləyir, ancaq «səfərimiz» bitmirdi ki, bitmirdi.

Mən bir az özümə gəlmişdim. Yavaş-yavaş yeriyir, balaca bacamdan bayıra baxır, hətta iş-

tahla yeməyimi də yeyirdim. Düzdür, yeməyimiz elə də ürək açan deyildi. Amma, necə deyərlər, «buna da şükür». Anam əksər hallarda ona çatan kartof payını mənə yedizdirər, özü meyvə qurusu və yavan çörəklə ötüşərdi.

Bir dəfə hansısa stansiyada bizə isti şorba payladılar, hərəyə bir alüminium qab. Qabların içində alüminium qaşıq da vermişdilər. O mənzərə heç yadımdan çıxmır. Vaqonumuzun qapısında araba dayanmışdı. Arabanın üstündə böyük qazanabənzər qab vardı. İki rus əsgəri bizə şorba paylayırdı. Onlardan biri çömçəylə qazandan şorbanı qaba qoyur, o biri isə alüminium qabları əlində tutub, sonra vaqona verirdi. Vaqonumuzdakılar ailəmiz üçün ənənəni pozmadılar. Anamı şorba almağa getməyə qoymadılar, hərəmizə bir qab şorbanı «evimizə» gətirdilər. Şorba ilə bərabər bu dəfə bizə ağ çörək də vermişdilər. Mənə elə gəldi ki, qonşu qadınlarla anamgil yığışıb, həyətimizdəki təndirə lavaş yapırlar. Onun da ətri adamı valeh edirdi. Mən bu iy üçün elə darıxmışdım ki... Sonralar məlum oldu ki, bu, bizə bayram payıymış, «1 May - zəhmətkeşlərin bayramı». Biz onda tam aydınlığı ilə bu bayramın mahiyyətini bilməsək də, bayramı təmtəraqlı keçirdik. İsti şorba içdik, ağ çörək yedik. Bundan sonra hər şey əvvəlki günlərdə olduğu kimi öz axarı ilə davam etdi.

Bir dəfə anamdan soruşdum: «Ana, bəs deyirdin, yaxşı yuxu görmüşəm, atamla tezliklə görüşəcəyik, nə oldu?» Anam gülümsədi, uzanmış saçlarımı tumarlayaraq: «Darıxma, lap çoxu bir neçə günə onunla görüşəcəksən» - dedi. Anam belə deyib, üzünü yana çevirdi, adət etdiyi kimi yaylığının ucunu gözünə apararaq ağladığını yenə də məndən gizlətdi.

Elə bu vaxt qatarımız «şaqq» eyləyib, dayandı. Vaqonlar bir-birinə dəyib, əcaib səs çıxardılar. Yenə də əsgərlər hər üç gündən bir bağırdıqları kimi qışqırdılar. Vaqonumuzun cırhacırla açılan qapısı açılar-açılmaz: «Hər vaqondan üç nəfər düşsün aşağı» -səsi yenidən eşidildi. Əvvəllər heç kim bu «əməliyyata» maraq göstərməz, əsgərlər özləri bir-bir kişilərdən üç nəfər seçərdilər. «Ey sən, sən, bir də sən, gəlin bizimlə!»- deyərdilər. Amma son vaxtlar kişilərin hamısı ərzaq dalınca getməyə can atırdılar. Bu da səbəbsiz deyildi. Axı onlar əsgərlərlə gedəndə azından ayaqları torpağa dəyir, başqa-başqa adamlar görür və  təmiz hava alırdılar...

Bu dəfə su dalınca qonşumuz Məmmədnağı əmi gedirdi. Ona görə də anama yaxınlaşıb, dedi: «Əminə bacı, boş qablarınızdan verin, suya bu dəfə mən gedirəm». Anam ağır, mis çaydanımızı ona verdi.

Mən rus əsgərlərindən xoşlanmadığım üçün, daha doğrusu, qorxduğum üçün vaqonumuzun qapısı açılanda hamı kimi qapıya getməzdim, qalxıb, bacamın önündə oturub, bayıra baxardım. Sağ olsunlar, bütün vaqonumuzdakılar məni heç vaxt incitməzdilər. Nə vaxt mən balaca bacaya yaxınlaşırdım, hamı çəkilib gedir, mən öz yerimi alırdım. Bu dəfə də belə oldu. Məmmədnağı əmi gözdən itənəcən onun dalınca baxdım. Sonra fikrim yayındı. Bir az da mürgüləyəntəhər oldum, bəlkə də, xəyala daldım. Bir də onda ayıldım ki, bir nəfər vaqonumuza tərəf elə qaça-qaça gəlir ki, sanki, uçur. O, vaqonun qapısına çatıb, vaqona qalxmaq istəyəndə, rus onu qoymadı. «Tı çujoy!»- dedi. Həmin adam da rusa nəsə dedi. Mən uzaqdan Məmmədnağı əminin də qaça-qaça gəldiyini görüb, fikrimi ona yönəltdim. Elə bu vaxt vaqonumuzun qapısını qoruyan rusun havada uçub, vaqonumuzun altına düşməyini gördüm, ona köməyə gələn digər iki əsgər də o biri uçan əsgərin dalınca yerə yıxıldılar. Bundan sonra rusları quş kimi havaya uçuran vaqonumuza girib, qışqırdı: «Ə...mi...nə!»

Mən qulaqlarıma inanmadım. «Əminə!» - deyə, qışqıran atam idi, bu onun səsiydi. İkinci qatdan necə tullandım, anamın başı üzərindən atamın boynuna necə və nə vaxt sarıldım, bilmirəm. «A...t...a!»-

deyə, elə bağırırdım ki, bütün vaqondakılar bir yana, hətta vaqonun quru taxtaları da ağladı. Özünə gəlmiş əsgərlər bizim bir-birimizə sarılmaq səhnəmizə dözməyib, göz yaşılarına hakim ola bilmədilər. İlahi, insan sevinəndə necə ağlayarmış. Bəlkə də, ən əzizini itirəndə belə, insan bu qədər ürəkdən göz yaşı axıda bilməzdi. Anam atamın qucağında huşunu itirmişdi. Bacılarım onun ayaqlarına sarılmışdı. Mən isə artıq boynundaydım... Dayanmadan: «Atam gəldi, yuxum düz çıxdı» - deməkdə davam edirdim.

Bu vaxt nələr baş verdi, bilmirəm, amma onu bilirəm ki, «1 May» bayramında bizə şorba və ağ çörək verəndə vaqonumuzdakılar bu qədər sevinməmişdilər.

Biz bir-birimizə sarılanda bir zabit məsələdən hale olub, bura gəlibmiş. Bizi görüb, nə baş verdiyini öyrənəndən sonra  əsgərlərə rusca nəsə deyib, çıxıb gedibmiş və atam həmin gündən bizimlə birgə yaşadı. «Vaqon evimizdə» balaca «yurdumuzda» altı nəfər...

Bu qovuşmadan bir gün sonra mən öyrəndim ki, atam bizi necə tapıb.

Məmmədnağı əmi su götürməyə gedəndə görüb ki, bir nəfər də su götürür, onun da qabları çoxdur, tələsdiyi üçün ona deyib: «Ay yoldaş, mən tələsirəm, mümkünsə, icazə ver, mən qablarımı doldurum». Həmin adam başını qaldırıb, Məmmədnağı

əmiyə tərs-tərs baxıb və quruyub. Hər ikisi çaşıb qalıblar. Məmmədnağı əmi atamın adının baş hərfini, atam da Məmmədnağı əminin adının baş hərfini güclə deyib və sonra sarılıblar bir-birlərinə.

Handan-hana özlərini toparlayıb, hal-əhval ediblər. Atam soruşub: «Məmmədnağı, sən hara, bura hara? Məmmədnağı əmim də atama eyni sualı verib. Atam danışıb ki, onu bir həftə Naxçıvanda sorğu-sual etdikdən sonra «yatab» eləyiblər Bakıya. Burada da sorğu-sual altı ay davam edib və elə bizim qatarla da onu göndəriblər o vaxt dəbdə olan deyimdəkinə - «gedər gəlməzə».

Məmmədnağı əmi də atama deyib ki, onun iki inəyi və üç qoyunu olduğu üçün «burjua» hesab ediblər. İnəyin birini kolxoza verməsini tələb ediblər. O da imtina edib və nəticədə bu qatarın «sakini» olub. Atam ondan bizi soruşub ki: «Bizimkilər necədir, ay Məmmədnağı?». Yazıq Məmmədnağı əmi də çaşıb qalıb. Bilməyib, atamı sevindirsin, ya kədərləndirsin. Bir xeyli susduqdan sonra atama deyib ki: «Sizinkilər də buradadır, bizim vaqonda». Bundan sonra atamı saxlamaq mümkün olmayıb, o, şığıyıb bizim vaqona və budur, artıq o, bizimlədir.

Atamın gəlişi ilə mənim həyatımın bal kimi şirin günləri yenidən başlamışdı. Kim nə deyir, desin, ailə bir yerdə olanda aclıq və səfalət elə də təsirli olmur.

Bəlkə də, bunu uşaqlar hiss etmir. Böyüklər çətinlik çəkir, deyə bilmərəm. Amma mən və bacılarım artıq qanad açıb uçurduq. Mənə elə gəlirdi ki, daha bizə heç kim toxuna bilməz, atam bizimlədir. Mən onun boynunda - öz adət etdiyim yerimdəyəm. Demək olar ki, günün əsas vaxtını onun boynunda oturar, atamın doğmadan doğma iyini alardım. Atam heç vaxt mənə düş aşağı, deməzdi. Yəqin, o da mənim kimi bunun üçün darıxıbmış. Hətta çox vaxt o, yemək yeyəndə də mən onun boynundan düşməzdim. Baxmayaraq ki, anam mənim düşməyimi israr edər, atama deyərdi: «Əli, düşür onu, yeməyini rahat ye, sonra alarsan boynuna». Faydası olmazdı, nə atam mənə düş, deyər, nə də mən düşərdim.

Atamın dönüşü ilə «vaqon evimiz», sanki, işıqlanmış, bir az da genişlənmişdi. Mənə elə gəlirdi ki, indi mən hər şey edə bilərəm və heç kim mənə söz deyə bilməz. Baxmayaraq, atam olmayanda da indi etdiklərimi edərdim və heç kim xətrimə dəymirdi.

Bizim «vaqon evimizin» ən sevimli sakini mən idim. Səbəbini bilmirdim, məni hamı tanıyır, hamı sevir, hamı mənimlə oynamağa can atırdı. Atamdan əvvəl də, indi də. Buradakılara ən ləzzət eləyən isə mənim atama «ata» deməyim idi. Biz tərəflərdə belə müraciət çox az olardı. Bəlkə də, beş-on ailə öz atalarına mənim kimi ata deyə, müraciət edirdi.

Qonşuların uşaqları, «vaqon evimizdəki» digər uşaqlar atalarına dədə, qağa, ağa, dadaş, baba deyərdilər, hətta papa deyənlər də vardı. Yalnız mən və bacılarım «ata» deyə, atamızı çağırardıq. Mən isə bu sözü xüsusi vurğu ilə deyərdim, bu da hamının xoşuna gələrdi. Nədənsə, bu mövzu diqqətimdə özünəməxsus yer tutmuşdu. Biz anamıza ana desək də, qonşuların çoxu mama, nənə, hətta bacı deyənlər də vardı. Biz xalamıza xala deyərdik, bir çoxları çiçə deyə, xalalarına müraciət edərdilər.

«Vaqon evimizdə» bekarçılıq hamını təngə gətirmişdi, gün ərzində min bir oyun icad edib oynayardıq. Ən çox qızların vaxtını alan «qəcəmədaş», oğlanların isə «güllə-güllə» oyunu olardı. Orta yaşlılar isə günlərini Sovet hökumətinin az-çox imkanı olanlara divan tutmasından danışmaq və ya atamın danışdığı maraqlı nağıllara qulaq asmaqla keçirərdilər.

«Vaqon evimizdə» yüz dəfələrlə mən bizim vətəndən sürgün edilməyimizin səbəblərindən bəhs edən söhbətlərin «qulaq» şahidi olmuşdum. Heç vaxt da onlar ümumi fikrə gələ bilməzdilər. Axı kənd yerində beş qoyunu və ya bir inəyi, bir camışı olmaq varlı, imkanlı sayıla bilməzdi. Yaxud da kiminsə atası və ya babası bəy, xan, ağa, seyid və s. ilaxır olubsa, bu, hələ o demək deyil ki, bu şəxs-

lər dövlətə qarşı əks inqilabçı ola bilərdilər. Sürgünə göndərilənlərin demək olar ki, əksəriyyəti nə vaxtsa, könüllü olaraq, var-dövlətini Şura hökumətinə verib,  kolxoz quranlar idi, ya da ki, onların ata-babaları bunu etmişdilər. Belə olan halda, bunların harası düşmən sayıla bilərdi? Əlbəttə ki, mənim uşaq ağlım belə şeyləri o vaxt qavramazdı. Amma bu tipli və ya buna bənzər gileylərin tez-tez şahidi olurdum. Mən bizim və bizim kimilərin «gedər-gəlməzə» göndərilmə səbəblərini tam təvsilatıyla gec biləcəkdim. Atam bu haqda qonum-qonşuya, yerli, özbək və qazaxlara təşkil etdiyi gizli dərnəkdə danışanda biləcəkdim. Nə bilim, bəlkə də, mən və mənim kimi sürgünlük həyatında boy atan uşaqlar öz uşaqlıq illərini digər uşaqlar kimi keçirmədiklərindən  həddindən artıq tez böyüyürdülər.

Mən yaşca çox balaca olsam da, düşüncə tərzim böyüklər kimi mühakimə yürütməyə məhkum olmuşdu. Çünki zaman və mühit insanı özü formalaşdırır.

Beləcə, bizi «gedər-gəlməzə» aparan qatar öz tak-tuku və qara göz acışdıran tüstüsü ilə «vaqon evimizi» hələ ki naməlum istiqamətdə aparmağına davam edirdi. Saatlar günlərə, günlər həftələrə dönür, mənzil başına yetişməyimiz hələ ki qeyri-müəyyən qalırdı.

Artıq gün ərzində nə kənd, nə qəsəbə, nə də bir canlı gözə dəymirdi. Daha balaca bacamdan baxmırdım, çünki baxmalı heç nə yox idi. Ətrafda yalnız ucu-bucağı görünməyən düzənliklər idi. Balaca bacam «dəbdən» düşmüşdü. Bura hava almağa gələnlər də azalmışdı, çünki atam vaqonun yuxarı hissəsindəki dəmir qapaqlığı açıb, vaqonumuza yeni nəfəs vermişdi.

Qatarda yol getmək məni artıq bezdirmişdi. Bura minəndə nə qədər sevinmişdimsə, indi bir o qədər də nifrət edirdim. Kartofdan da iyrənmişdim, görən kimi ürəyim bulanırdı. Lakin nə etmək olardı? Bizim ən dadlı və vahid süfrə yeməyimiz elə bu iylənmiş katrof idi. Bizə verilən meyvə qurusu çox vaxt qurdlu olardı. Ancaq atmazdıq, onların qurdunu «çırpıb», təmizlər, sonra çarəsizlikdən yeyərdik.

Nəhayət ki, torpağa ayaq basmaq günü gəlib yetişdi. Düz otuz altı günün tamamında qatarımız hər üç gündən bir «şaraq» eyləyib, dayandığı kimi axırıncı dəfə dayandı. Yenə də cırhacırla açılan vaqon qapılarımız açıldı. Bu dəfə zabit və əsgərlər «hər vaqondan üç nəfər» demədilər, qısaca əmr gəldi: «Tökülüşün!» Bəli, tökülüşün, dedilər və mal-heyvan daşınması üçün nəzərdə tutulmuş vaqonlardan bizi mal-heyvan kimi düşürdülər. Yox, burasını, deyəsən, səhv dedim. Çünki mal-heyvana bizi mü-

şayiət edən ruslar, bəlkə də, daha çox hörmət qoyub, qiymət verərdilər. Təbii ki, bunu da mən sonra - azacıq özümü qananda biləcəkdim.

Biz düşdük, sıraya düzləndik, hava elə istiydi ki, göydən od yağırdı. Günəş adamın başını deşirdi. Sıramızdan kənarda at arabaları və mənim vətəndə gördüyüm atlardan çox-çox hündür atlar üzərində oturan əsgərlər bizi mühasirəyə almışdılar. Yerə düşəndə gördüm ki, bizim qatarın sakinləri on sıra düzülsələr də, sıramızın uzunluğu qatarımızdan daha uzun idi.

Təxminən hər vaqonda 80-100 nəfərin hesabı ilə qatarımız da otuz vaqon olsaydı, demək, üç min nəfərə yaxnın insan sürgün olunmuşların sırasındaydı.

Üzlərdə bədbinlik, gözlərdə intizar, taledə bədbəxtlik, həyatda qeyri-müəyyənlik, sabaha inamsızlıq hər bir kəsin simasında iri, qara hərflərlə yazılmışdı.

Bizi sıraya düzəndə də, arabaya mindirəndə də, yeni məkanımızda düşürəndə də rəftar qeyri-insani olurdu. Sanki, biz insan deyil, hansısa lazımsız əşyaydıq.

Necə deyərlər, atlandıq arabalara, bizi gildən tikilmiş ensiz, amma olduqca uzun taxıl anbarını xatırladan bir yerə gətirdilər. Həmin anbar boş idi.

Yerdə bardan üzləri görünürdü. Bardanların altına isə saman döşənmişdi (bizimkilər saman döşəməyə küləş döşəmə də deyirdilər), vəssalam. Yenidən «vaqon evimizdə» olduğu kimi hərə özü üçün daldalanacaq, «yurd» düzəltdi.. Bu adicə yorğan-döşək üzündən, bəzilərində isə geyim paltarlarından hazırlanmış «otaqlar» anbarı «gözəlləşdirdi». Həmin gün bizə yemək vermədilər. Yaxındakı qəsəbədən yerli qazaxlar kimin nəyə imkanı çatırdı, çörəkdən, sudan, meyvə qurusundan, yumurtadan və s. və i. yığıb bizə gətirmişdilər.

Əvvəl-əvvəl buna icazə verməsələr də, sonradan, deyəsən, vicdanları oyandı, gətirilən «yardımı» geri qaytarmadılar. Beləliklə, gecəni həmin anbarda, saman üstündə «rahatlanmalı» olduq.

Mənə görə bura «vaqon evimizdən» olduqca rahat idi. Lakin səhər tezdən qışqır-bağıra yuxudan oyananda belə fikirləşmədim. Daha burada qalmaq istəmədiyimi dedim. Lakin mənim başqa yerə getmək istəyim, yalnız arzu olaraq qala bilərdi.

Səs-küy aləmi bürüdü və birinci, burda Qazaxıstanın Çinlə sərhədində Taldi-Kurqanda ilk itkimizi verdik. Yeddi yaşında bir oğlanı ilan vurdu. Səhər tezdən yuxudan ayılanların hamısı bayıra qaçırdı. Çünki ilanlar təkcə bir nəfəri vurmaqla kifayətlənməmişdilər. Hər tərəfə doluşmuşdular.

Təxminən günortaya qədər anbarın sakinləri bayırda təlaş içərisində ilan tutanların gəlişini gözləməli oldular. Nəhayət ki, üç nəfərlik «manqa» anbara daxil oldu. Onların nə qədər ilan tutduğu bizə məlum olmadı. Ancaq anbardan çıxanda torbaları dolmuşdu.

Növbəti gecəni, bəlkə də, heç kim sübhə qədər yatmadı. Amma mən atamın qucağında mışıl-mışıl yatdım. Bir gün sonra isə daha bir uşağı ilan sancdı və o da dünyasını dəyişdi. Bu dəfə ilan uşağı quş yuvasına əlini uzadarkən vurmuşdu. Anbarın divarlarında iri çatlar vardı, quşlar uçub, bu çatların arasına girirdilər. Bunu görən uşaqlar quşları tutmaq istəyərkən əllərini həmin çatlara soxurdular və belə halların birində ilan uşağı vurmuşdu. Onun ata-anasının fəryadı anbarı bürümüşdü. Axı o uşaq ailənin tək övladı idi.

Bizi nə üçün bu yerlərə gətirdiklərini deyə bilməzdim, onda bunun mahiyyətini anlamırdım. Ancaq uşaq ağlımla düşünürdüm ki, deyəsən, bizim burada sağ-salamat qalıb, yaşamağımız, bizi bura gəlməyə vadar edənlərə elə də maraqlı deyil.

Səhərin açılmasıyla bir çoxları axşamın yuxusuzluğunu kənarlaşdırmaq üçün yatmağa hazırlaşırdılar ki, iyirmiyə yaxın rus əsgərləri anbara girdi. Onlardan biri yoğun, boğunuq səslə bağıraraq:

«Uşaqlar burada qalsın, böyüklər hamısı bayıra!» İlk əvvəl heç kim nə baş verdiyini bilmədiyindən bir-birinin üzünə baxa-baxa çaşıb, qalmışdılar.

Sonradan məlum oldu ki, yaxınlıqda kolxozun çəltik (düyü) sahələri varmış. Sahədən alağı təmizləmək üçün kolxoz rəhbərliyi ruslardan işçi qüvvə istəyib, ruslar da canla-başla işçi qüvvəsini kolxoza verib. Beləliklə, sürgünün ilk iş günü başladı. Biz uşaqlar uzun, qaranlıq taxıl anbarında döşəməsi samandan olan yerdə valideynlərimizsiz qaldıq, onları işləməyə apardılar.

Elə ilk gündən, necə deyərlər, bizimki, azacıq da olsa, gətirdi. Atamı sürgünçülərə briqadir təyin etdilər, bu da son nəticədə anamın burada - anbarda bir növ nəzarətçi kimi qalmasını təmin etdi.

Həmin gün işdən anbara dönənlər, çəltik sahəsində bədənlərinə dolmuş zəriləri hələ də təmizləyə bilmədiklərindən anbarda təmizləməyə başladılar. Anam zəlidən necə qorxmuşdusa, rəngi ağappaq idi. O, israrla atama yalvarırdı ki:» Əli qurban olum, nə edirsən et, mən bir də ora getməyim, yoxsa ölərəm».

Əlbəttə, anamı başa düşmək lazım idi. Bəy qızı, ömründə işləməyən, nazlı-duzlu ev qadını birdən-birə işə cəlb edilmişdi. Özü də çəltiyin alağını təmizləməyə. Bu azmış kimi hələ bu zəlilər də bir tərəfdən

daraşmışdılar anamın ayağına. Yazıq anam düz iki gün özünə gələ bilmədi, xəstələndi, yatağa düşdü. Qönçə ona da, bizə də qulluq etməyə məcbur oldu. Beləcə, çəltik «əməliyyat»ı iki həftə davam etdi və zəlilər sürgündəkilərin qanını içdi. Beləcə, sürgündəkilərin işdə parazitlər qanlarını, işdən sonra isə zabit və əsgərlər mənəviyyatlarını tari-mar edirdilər.

Sonra yenə də sürgündə hökm çıxarılmamış ölümə məhkum edilmişlər arabalara doldurulub, ətrafdakı aullara, kəndlərə, qəsəbələrə, yurdlara, kolxoz-sovxozlara bölüşdürüldülər.

Bizim bəxtimiz burada da gətirdi, belə ki, bizi yerləşdirdikləri sovxozda payımıza iki otaqlı taxta ev (ona taxta barak deyirdilər) düşdü, atamı briqadir təyin etdilər. Amma qalanlarını elə əvvəlki kimi anbarlarda yerləşdirdilər. Əgər «vaqon evimizi», sonra anbar sığınacağını nəzərə alsaq, yəqin ki, indiki yerimizi sanatoriya adlandıra bilərdik. Qismətimizə düşən sovxoz şəkər çuğunduru yetişdirməklə yanaşı, həm də heyvandarlıqla məşğul olurdu. Burda hər şeyimiz ala-babat olsa da, yemək sarıdan korluq çəkirdik. Əlbəttə, atamın işini nəzərə alanda yenə bizim halımıza şükür etmək olardı.

Sürgündə ac-yalavac, jımıx yeyə-yeyə biz gələcəkdə dünyaya meydan oxuyacaq, SSRİ adlanan, nəhəng imperiyanın təməlinə daşlar düzürdük.

Atamın işi ilə əlaqədar, həm də o, sayılıb-seçilən, hörmətli adam olduğundan evimizə gəlib-gedənlər çox olurdu. Bir sözlə, atam sürgündə səfalət yaşayanların ağsaqqalı olmuşdu. Bu səbəbdən də bizə çox vaxt ayıra bilmirdi. Hə, yadımdaykən onu da deyim ki, sovxozun komendatının xüsusi icazəsi olmadan sovxozdan kənara çıxmaq qadağan idi. Bizi mütəmadi yoxlayırdılar.

Sürgündə olsaq da, mədəniyyətimizi, adət-ənənələrimizi, dinimizi, dilimizi, folklorumuzu, musiqimizi, bir sözlə, hər şeyi olduğu kimi saxlamışdıq, təkcə Vətən dəyişmişdi.

Çox keçmədi ki, aclıq və səfalət, iqlim dəyişikliyi, dərd-qəm «epidemiyası» sürgündə olanları öz ağuşuna aldı. Bir-birinin ardınca «yarpaq tökümü» başlandı. Qışda isə ölənlərin sayı birə-beş artdı. Mən deyərdim ki, bir ildən sonra sürgün əhlinin azından altmış faizi dünyasını dəyişdi. Nə yaxşı ki, heç olmasa, indi ölənləri el adəti ilə dəfn etməyə icazə verirdilər.

Daha bir il ötüb keçdi. Bu ötən səfalət dolu bir ildə mən bir az da böyüdüm. Bir az deyəndə, mən boyumun artdığını nəzərdə tuturdum, ancaq ağlım, bəlkə də, on il böyümüşdü. Buna əmin idim. Çünki mən elə şeylərdən danışırdım, elə mülahizələr yürüdürdüm ki, böyüklər heyran qalırdı. Hə, az qala

unutmuşdum, biz burada Novruzu o qədər coşquyla, fərəhlə keçirirdik ki, yerli əhali də bizə qoşulurdu. Keçəl-kosa bir tərəfdə, yumurta döyüşənlər bir tərəfdə, aşıq oynayanlar bir tərəfdə, musiqi də ki öz yerində.

İnsan nə qədər çətinliklə üzləşirsə, bir o qədər düşüncə tərzi sürətlə inkişaf edir. Yaşamaq mübarizəsi üçün, həyatda qalmaq üçün bəzən ağlagəlməz ixtiralar edir, yeni-yeni metodlar tapır.

Axşamlar bizim iki otaqdan biri ağzına qədər qonum-qonşu ilə dolu olardı. Hətta bəzi hallarda qonşu aullardan gizlincə bizə gələnlər tapılırdı. Onlar güman yeri, inam yeri olan atamla məsləhətə gəlirdilər. Bunun da özünəməxsus subyektiv səbəbləri vardı. Birincisi, sürgündə olanlar içərisində yalnız atamla mənim gələcək kirvəm Əbdürrəhman dayı yazıb-oxumağı bacarırdılar. Bu səbəbdən də qonaqlarımızın çoxu onlara məktub yazdırır və ya aldıqları məktubları oxudurdular. İkincisi isə atamın maraqlı nağıllar danışması idi. Məhz atam fikirlərinin çoxusunu bu nağılları danışarkən gələnlərə çatdırırdı. Çünki o vaxtlar açıq-aşkar siyasi fikirləri birbaşa demək ölümə bərabər idi.

Ailəmizdən nə bacılarım, nə də anam qonaqlar olan otağa keçməzdilər, onlara bütün xidmətləri mən göstərərdim. Xidmət deyəndə bəzən onlara

çay verməli olurduq. O da ki, görürdün, kimsə özü ilə bir az qənd, bir az çay gətirib. Anam çayı bizim otaqda dəmləyər, hazırlayar, mən isə qonaqlara aparardım. Bundan başqa, atama lazım olan bəzi şeyləri ona çatdırardım. O, həmişə belə olanda deyərdi: «Aydın, bala, kişi bala, qeyrət bala, get, filan şeyi gətir mənə». Mən də ildırım sürəti ilə onun dediklərini yerinə yetirər və bundan qürur duyardım. Bu yığıncaqların adını nə qoyum, bilmirəm. Atamgil nə edirdilər? Bu dərs idi, yoxsa, sadəcə, məsləhətləşmələr, deyə bilməzdim. Bəlkə də, dövlət əleyhinə yaradılmış dərnək idi. Bunu da deyə bilməzdim. Lakin burada, yəni evimizdə atamın rəhbərliyi altında demək olar ki, hər gün, ya günaşırı, ən geci həftədə iki dəfə kişilər bizə yığışar, dərdləşər, atamın tapşırıqlarını alıb, dağılışırdılar.

Atamın bu tipli toplantılarda ayrı-ayrı vaxtlarda dediklərindən yadımda qalan bunlar idi.

«Qardaşlar, bizi bu yerlərə nədən köçürüblər?» Bu sual, yəqin ki, hər birinizi maraqlandırır. Səbəbini, guya, bizim Sovet hökumətinə yarada biləcəyimiz təhlükədə görüb, sinfi düşmən damğası ilə buralara, yəni vətəndən uzaqlara sürgün ediblər ki, biz təhlükə yaratmayaq. Amma bu, bizə nümayiş etdirilən görüntüdür. Əsl həqiqət belə deyil. Çünki səbəb bu ola bilməz. Əslində Sovet hökuməti bizi

bu yerlərə məhv etmək üçün göndərib. Bunun bariz nümunəsi: «Deyək ki, mən bəy oğluyam, mən Şura hökumətinə təhlükə yarada bilərəm. Bəs onda Qasım kişi burada nə gəzir? O ki araba düzəltməklə ailəsini dolandıran adi bir sənətkardır. Nə olsun ki, onun üç-beş qoyun-quzusu vardı. O, hökumətə hansı təhlükəni yarada bilərdi? Digər biri Mirmustafa dayı, o ki Şura hökumətini quranlardan, onun tərəfini saxlayanlardandır. Onu isə ağır seyid olduğu üçün sözü keçdiyi üçün bura - «gedər-gəlməzə» sürgün ediblər. Demək, buradan belə nəticə çıxarmaq olar ki, bizim qolçomaq olmağımız səbəb sadaladıqlarım deyil. Mənim düşüncəmlə burada qaranlıq məqamlar var. Birinci, mən dövlətin açıq siyasi gedişini deyim. Bu ondan ibarətdir ki, bura, yəni Orta Asiyanın düzənliklərinə bizləri sürgün etməklə hökumət bu yerlərdə kənd təsərrüfatını inkişaf etdirmək məqsədi güdür. Bunun üçün də məhz əsas ağırlıq Qafqaz azərbaycanlılarının üzərinə düşüb. Çünki azərbaycanlılar, əsasən, maldarlıq və əkinçiliklə məşğul olublar. İşlək millətdirlər, daşdan pul çıxaran, mətin insanlardırlar. Lakin bu da gizli saxlanılan planın əsas mahiyyəti deyil. Mənə görə yoldaş Stalin və onun yaxın silahdaşı Mikoyan birləşərək, Qafqazı müsəlmanlardan təmizləyib, öz milli qisaslarını alaraq, I Pyotrun vəsiyyətini həyata keçirirlər.

Bu yöndə bizim yerlərdə olan kütbeyin, bolşevik ideyasına «məftun» olub, məğzini bilmədən, onlara kömək etmiş azərbaycanlılarımızın da az rolu yoxdur. Beləliklə, ruslar Türk-İslam sindromundan yaxa qurtarmaq, İran-Turan təhlükəsizliyini təmin etmək üçün Qafqazı xristianlaşdırmaq, Turanı Türkiyədən ayırmaq planını həyata keçirir. Bax, budur, bizim səfalətin kökündə duran əsl səbəb.

Bu halda, bizim yaşamaq mücadiləmiz birliyimizdən asılıdır. Bir olsaq, arxa-arxaya dursaq, yaşaya biləcəyik. Əks halda, hamımız məhv olacağıq.

Bəs onda nə etməliyik?

İlk öncə hər bir azərbaycanlının qeydinə qalmalı, son tikəmizi bölüşməyi bacarmalı, sirrimizi kənara çıxarmamalı, ən əsası isə övladlarımızı savadlı böyütməli, bütün qüvvə və bacarığımızı bu yöndə səfərbər etməliyik. Uşaqlarımız elm öyrənməlidir. Gələcək - ağlın, zəkanın zəmanəsidir. Qarşıdakı 10-15 ildən sonra gücdən çox, ağıl hökmranlıq edəcək. Hamınızdan xahiş edirəm və bir növü də tələb edirəm, son tikənizi, son qəpiyinizi övladlarınızın savadına xərcləyin. Yalnız bu halda, biz vətənimizə xidmət etmiş olacağıq və nə vaxtsa, geri qayıda biləcəyik».

Bax, beləcə, atam hər çıxışının sonunda elm, oxumaq, savadlanmaq tezisini ortaya məqsəd kimi

qoyardı. Həqiqətən də, gələcək illərdə biz sürgün əhli bunun bəhrəsini gördük. O vaxt sağ qalmağı bacaran insanlar oxudular, elmləndilər və yaşadılar. Ağılla, düşüncəylə zülmə, səfalətə üstün gəldilər.

Zaman hər şeyi öz yerinə qoymağı bacarır.

Artıq böyümüşdüm, məktəbə gedirdim. Havalar çox soyuq olduğundan atamın sırıqlısını şərikli istifadə edirdik. Mən ona bürələnib, məktəbə gedər, atam isə mən məktəbdən gələndən sonra sırıqlısını geyinib, işə gedərdi. Məktəbimiz başqa aulda olduğundan biz uşaqlar - beş-altı nəfər yığışıb, dərsə birlikdə gedərdik. Havalar isinəndə isə iki-üç nəfər olan kimi o biriləri gözləməzdik. Bir dəfə necə oldusa, məktəbə təkcə gedəsi oldum.

Olduqca soyuq hava idi, qar yağırdı. Bizim məktəbə getdiyimiz yolun sağ-sol tərəfləri metr yarım hündürlüyündə qarla əhatə olunmuşdu. Yolun ortasında isə atlar və arabalar iki arabanın güclə, yanaşı keçəcəyi qədər yol açmışdılar. Yenə də atamın sırıqlısına bürünmüşdüm. Başımda köhnə, qulaqlı papaq vardı. Qar elə şiddətlə yağırdı ki, qarşıdakı iki-üç metr güclə görünürdü. Mən yalnız araba yolunda olduğumdan məktəbə aparan yoldan kənara çıxa bilmirdim. Həm də yoldan çıxmaq mümkün deyildi. Yolun hər tərəfi hündür qar təpəciyi ilə əhatə olunmuşdu.

Yarıyolda hiss elədim ki, gedə bilmirəm. Nədənsə, ətim ürpəşir, başımın tükləri biz-biz olur. Yerimdə dayandım, diqqətlə qarşıma baxdım. Qarşımda məndən üççə metr aralıda, par-par yanan gözləri gördüm. Mənə ilk öncə elə gəldi ki, qarşımdakı aulumuzun itləridir, ancaq onların mənə baxıb, dişlərini qıcayaraq itlərdən fərqli mırıldaması fikrimi dəyişdirdi. İstər anam, istərsə də, atam canavarlar haqqında danışanda bu vəhşi yırtıcının nəfəsinin ağır olduğunu, zəhmindən insanın tüklərinin biz-biz olduğunu dəfələrlə demişdilər. Bildim ki, işim fırıqdı, canavarlar məni parçalayacaq. İstədim qışqırım, amma nə fayda ki, qışqıra bilmədim. Necə qorxmuşdumsa, səsim çıxmadı. Matdım-matdım canavarlara baxdım. Nə qədər onlar mənə, mən onlara baxmışdımsa, bilmirəm. Bir də onda özümə gəldim ki, bir nəfər məni silkələyərək, rusca deyir: «Ay uşaq, belə havada səni kim təkcə buraxıb buralara. Möcüzə baş verib ki, canavarlar sənə toxunmayıb, gəl, otur arabaya».

Yerimdə neçə vaxt dayandığımı bilmirəm, çünki üzərimdəki qarın hündürlüyü özümdən hündür idi. Silkələnib, qarı üzərimdən tökdüm, geriyə arabanın səsinə məndən yan keçib, qaçan canavarların ardınca baxdım.

Doğurdan da, mözücə baş verdiyini anladım. Həmin adam məni arabaya mindirib, evimizə gətir-

di. Evdə başıma gələnləri demədim, amma bir daha məktəbə tək getmədim. Günü bu gün də düşünürəm, necə oldu ki, canavarlar mənə toxunmadı?

İllər bir-birini əvəzləyir, mən böyüyürdüm. Lakin nə aclıq-səfalət bizdən əl-çəkir, nə də ki sona yetmirdi. Bizə olan münasibətə, insan olduğumuza heyfslənirdim. Bəzən sovxozun mal-heyvanına, atlarına, itlərinə göstərilən qayğını görüb, kədərləndim. «Nədən biz insan doğulmuşuq?»-deyə, düşünürdüm. Təsəvvür edin, bir dəfə yay vaxtı qonşumuzun həyətini üfunət iyi bürümüşdü. Neçə gün idi ki, məndən bir sinif yuxarı oxuyan qonşumuz Həsəni görmürdüm. İstəyirdim, ondan soruşam ki, həyətlərindən gələn iy nə iyidir. Lakin bu mənə nəsib olmadı. Qonşular iyin nədən yarandığını öyrənəndə mən az qalmışdım, bu xəbərdən dəli olam. Çünki bu iy elə Həsənin öz meyitinin iyiymiş. Onun valideynləri bilərəkdən Həsənin ölümünü gizləyirlərmiş ki, onun ölümünü bilib, ərzaq payını kəsməsinlər. Həsəni dəfn etdilər, amma ona çatan ərzaq payını da kəsmədilər...

Bilirsiniz, mən böyüyəndə bir dəfə görkəmli yazıçımız  Fərman Kərimzadənin qəzet müxbirinə danışdığı bir hekayəni oxudum. Birbaşa da olmasa, dolayısıyla bu hekayə sürgündə olanların həyatına bənzədiyi üçün onu xatırlamaq qərarına gəldim.

O, müxbirə danışırdı ki: «Kənddə qonşumuz Qulamalı kişi ilə Lala xala vardı. Onların dolanışığı bircə keçilərindən sağdıqları südü satmaqdan olardı. Günün birində ər-avad gedərlər toya. Evə dönən kimi Qulamalı kişi girər tövləyə ki, «çörək ağaclarına» baş çəksin. İçəri girəndə gördüklərinə inanmaz. Keçinin nağıllarda deyildiyi kimi təkcə buynuzları qalıb. Sən demə, onlar evdə olmayanda canavar tövlənin divarının altını qazıyıb, girib tövləyə. Keçini yeyib, köpüb, qazıdığı dəlmədən çıxa bilməyib. Qulamalı kişi bayıra çıxıb, səs-küy salıb. Əlinə zopa alıb, tövləyə dönüb. Qonşuların köməkliyi ilə canavarı «boyunduruğa» keçiriblər.

Bu ailənin dolanışıq yerinin təkcə bu keçidən asılı olduğunu bilən qonşular «əsir» götürülən canavarı onlara verməsi müqabilində Qulamalı kişiyə əvvəl-əvvəl bir keçi, sonra dörd keçi təklif edirlər. Ancaq Qulamalı kişi təklifləri qəbul etməyib. O deyib ki: «Camaat, inciməyin, mən canavarı heç kimə verə bilmərəm. O, mənə elə dağ çəkib ki, bunun əvəzini ondan çıxmasam ürəyim partlayar.» Qulamalı kişi belə dedikdən sonra keçisinin zınqırovunu yerdən götürüb, keçirib canavarın boynuna və onu buraxıb. Sonra da qonum-qonşuya deyib ki:  «Bax, mən də ona belə dağ çəkdim. İndi o da ölənəcən ov edib, doyunca yemək yeyə bilməyəcək».

Beləcə, bizim sürgünlük həyatımız danışdığım canavarın günündəydi. Sovet hökuməti bizim boynumuza «qulaq» zınqırovu asmış, insanlıqdan xaric etmiş, həyatımızı zəhərə döndərmişdi. Nə bizi öldürən kimi öldürürdü, nə də yaşamağa imkan verirdi...

Deyirlər ki, çətin günün ömrü az olar. Düzdür, ömrü az olmadı, amma sona yetdi. Günün birində dağ boyda atam evə ağlaya-ağlaya gəldi. Əlində zərflə, uzun kağız parçasıyla. Qapıdan girib, bizimlə «vaqon evimizdə» yenidən qovuşduğu vaxt olduğu kimi «Ə...m...i...n...ə! Gözün aydın, biz azadıq! Əfv olunduq!» - deyərək, anamı qucaqladı. Evimizdə yalan olmasın, üç saat ağlaşma davam etdi. Dönə-dönə bir-birimizi qucaqladıq, dönə-dönə gözaydınlığı verdik. İlahi, bu azadlıq nə qədər şirin nemət imiş? Həmin gün atam sevinc göz yaşları içərisində «Yığışın, sabah dönürük Vətənə!» - deyəndən sonra əlavə etdiyi bu sözləri hələ də qulağımda cingildəyir: «Gedək Vətənə, bəlkə, ayağımız düşərli oldu, Vətən də azadlığa qovuşdu».

Nəhayət ki, 1947-ci ildə SSRİ Ali Sovetinin fərmanı ilə bizim günahsızlığımızın günahsızlığı dövlət səviyyəsində rəsmi olaraq təsdiq olundu.

Əşyalarımızı toparlayıb, qatarın yük yerinə verdik. Vətənə dönməmiş Özbəkistandakı bizim ki-

mi sürgünlük həyatı yaşayan qohumumuza da baş çəkmək qərarına gəldik və Sırdərya vilayətinin Pax-ta-Aral rayonuna gəldik. Qohumlarımızla görüşüb, hal-əhval tutduqdan sonra öyrəndik ki, biz sürgündə səfalət içərisində yaşadığımız kimi doğma yurdumuz Naxçıvanda da aclıq-səfalət baş alıb gedir. Sovetlər bu yerləri elə kökə salıblar ki, artıq burdan kimisə sür-gün etməyə ehtiyac qalmayıb. Hamı könüllü şəkildə bu yerlərdən köç edir. Belə qərara gəldik ki, Vətə-nə dönüşümüzü daha bir neçə illiyə təxirə salaq. Bu yerdə biz vətəndən köç edərkən anamın müdrikcəsi-nə paltarlarına tikib, götürdüyü qızıl əşyaları karımıza gəldi. Bu qızılları neçə illər, hətta çıxarıb satmaq da onu saxlamaq qədər qorxulu idi.

Deyirlər, hər gecənin bir işıqlı sabahı olur. Ol-du da. Özbəkistan mənim doğma Vətənimə çevrildi. Burda böyüdüm, burda dirçəldim, burada yüksəl-dim, burada evləndim, burada ata-baba oldum, bu-rada atamla, anamla əbədi ayrıldım və onları haqq dünyalarına yola saldım...

## EPİLOQ ƏVƏZİ

Bu illər ərzində Özbəkistan ictimaiyyəti arasında daha da tanındım. Müstəqil Özbəkistanın azadlığa qovuşduğu ilk illərdə canla-başla xidmət etdim. Onun ayaq tutub yeriməsində mənim də özünəməxsus rolum oldu! Lakin məni daxilən bir hiss nə vaxtsa, doğma Azərbaycanımıza da canla-başla xidmət edib, öz mənəvi borcumu layiqincə qaytarmağa sövq edirdi. Ömrümün ötən illərində də bu missiyanı yerinə yetirir, yeri gəldikcə, imkan olduqca Özbəkistanda yaşayan, bura qonaq və ya iş üçün gələn həmyerlilərimə bacardığım qədər, bəzən bir az da artıq öz köməyimi əsirgəmirdim. Ancaq bunlar mənim istədiyim tamlıq deyildi.

Mənə görə vətəndən kənarda yaşayan hər bir azərbaycanlı öz millətini layiqli təmsil edirsə, bunun özü də vətənə xidmətdir və mən, mənim kimi bu yerlərə sürgün edilən əksər soydaşlarımız azərbaycanlı missiyamızı lazımınca yerinə yetirirdik. Bu adı şərəflə daşıyıb, yüksəltməyi bacarırdıq. Bu səbəbdən idi ki, pillə-pillə yüksəldim, böyük öl-

kənin yüksək vəzifəsinə qədər qalxdım. Amma nə vaxtsa, atamın vəsiyyətinə tam əməl edib, birbaşa Azərbaycana xidmət etmək arzum hələ ki tam mənasında reallaşmamışdı.

Heydər Əliyevlə, dövrümüzün dahi şəxsiyyəti ilə görüşüb, onun xariqələr yaradan əlini sıxmamışdım, nurlu simasını yaxından görüb, nurlanmamışdım. Onun bəşəri məsləhətlərindən qidalanmamışdım.

Atam həmişə deyərdi ki, ürəyində hər hansı bir hasil olmayan niyyətin varsa, Əshabü-Kəfə get, orada dua et. Tanrı səni eşidər. Mən onun dediyinə əməd edib, ata-ana yurdum Naxçıvana səfərə çıxdım. Bu müqəddəs torpaqda Uca Yaradana dua etdim. O da dualarımı eşitdi.

Baharın ilk günlərindəki kimi günəş buludlar arxasından yavaş-yavaş öz nurlu istisini soyuq torpağa ərməğan etdiyi vaxtlarda olduğu kimi həyatımda yeni günlər başlayırdı. Mənim ayazlı-şaxtalı, tufanlı-təlatümlü həyatımın günəşində də, baharın ilk günlərindəki günəşin sıcaq şüaları altında olan parıltılar, istiləşmə sezilməkdəydi.

Orta məktəbi və institutu bitirib, müstəqil həyatımın ilk kövrək addımlarını atırdım. Onu da xüsusi qeyd edim ki, mənim ilk iş yerim yaylaqda ferma müdiri işləyən atamın yanında çobanlıqla başlayıb.

Atam dünyasını dəyişənə qədər ona deyərdim ki: «Ata, sənin yanında çoban işlədim, amma əmək kitabçama bunu qeyd etmədiyinə görə pensiyaya çıxanda stajım itəcək» -və hər ikimiz bu atmacadan gülərdik.

Sonrakı illərdə vəzifələrim bir-birini əvəzlədi. Deyirlər: «Bir sevinc min kədəri unutdurar»- doğru imiş, həqiqətən də, yavaş-yavaş rəzalət və səfalət dolu günlər arxada qalıb, acı tarixə çevrildi, mən isə pillə-pillə qalxırdım. 1957-ci ildə ilk vəzifəm növbətçi mexanik oldu. Bundan dörd ay sonra baş mühəndis, dörd ildən sonra isə avtobazanın direktoru təyin olundum. Bunlar karyeramın sonu deyildi. 1962-ci ildə Trestə baş mühəndis, bir az sonra isə direktor təyinatı aldım. Partiya və komsomol işlərində fəallığımla seçilirdim. Yaxşı təşkilatçı olmağım gələcək yüksəlişimə daha böyük təkan verirdi.

1967-ci ildə Sırdərya vilayət Partiya Komitəsinin plenumunda məni Partiya Komitəsinin nəqliyyat şöbəsinə müdir qoydular. İkicə ildən sonra isə mən Vilayət Partiya Komitəsinin katibi vəzifəsinə irəli çəkildim.

Qəlbimin dərinliyində bir hiss baş qaldırmışdı. Bu hiss məni daha yüksəklikləri fəth etməyə, yüksək nailiyyətlərə çatmağa vadar edirdi. Düşünürdüm, görəsən, nə vaxtsa, qəlbimin arzusu həyata

keçəcəkmi? Mən həyatımın ən xoşbəxt anını yaşaya biləcəyəmmi? Onunla təkbətək oturub, söhbət edib, əl verib, görüşə biləcəyəmmi?

Bu arzum da həyata keçdi. Necə deyərlər, «gec oldu, güc oldu».

Günün birində mənə dedilər ki, SSRİ nümayəndə heyətinin tərkibində Koreya Xalq Demokratik Respublikasına getməliyəm. Bu səfərin əsas məqsədi iki ölkə arasında dostluq əlaqələrini gücləndirmək, təcrübə mübadiləsi aparmaq və Şimali Koreyanın cənubdan ayrılmasının yubiley tədbirlərində iştirak etmək idi. Nümayəndə heyətinin tərkibində bütün SSRİ Respublikalarının təmsilçiləri vardı. Təbii ki, mən ilk növbədə Azərbaycandan gəlmiş nümayəndə heyəti ilə maraqlandım. Bu nümayəndə sonralar mənim doğma qardaşıma çevrilən, dostum Sabir Hüseynov oldu.  O vaxtlar Sabir Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsində İnzibati Orqanlar şöbəsinin müdiri işləyirdi.

Onunla tez tanış olduq və tez də dostlaşdıq. O, mənim repressiya «qurbanlarından» olduğumu bildikdən sonra daha da mehribanlaşdıq.

Bir gün sonra məlum oldu ki, Cənubi Koreyanın müstəqilliyinin 45 illik yubileyi münasibətilə Koreyaya SSRİ nümayəndə heyətinin rəhbəri, fəxrimiz, cənab Heydər Əliyev gələcək.

Olduqca təntənəli bir açılış oldu. Koreya Xalq Demokratik Respublikasının Mərkəzi Komitəsinin Baş katibi Kim İr Sen bu münasibətlə həmin axşam ziyafət təşkil etmişdi. Ziyafətdə SSRİ nümayəndə heyətinin üzvlərinə ordenlər təqdim etdi. Bu sırada üç azərbaycanlı da vardı. Mən, dostum Sabir və xalqımızın qüruru Heydər Əliyev. Sevincimin həddi-hüdudu yox idi. Təsəvvür edin, keçən illər qəlbimin dərinliyində gəzdirdiyim ən böyük arzum - «Heydər Əliyevi yaxından görmək» reallaşdı. Mən dahi şəxsiyyətlə görüşdüm. Bu, mənim ümummilli liderlə ilk görüşüm oldu.

Zaman hər şeyi öz yoluna qoyur, nizamlayır, yaralara sığal çəkir və sağaldır. Artıq mənim də ürəyimdə yığılıb, təpəliklər yaratmış dərd buzlaqları yavaş-yavaş əriyirdi. Sanki, Naxçıvandan ailəmizi sürgün edərkən bizi müşayiət edən yaz günəşi, qorabişirən ayına qədəm qoymuş, həm parlaq olmuş, həm də hərarəti artmışdı.

Mənə böyük etimad göstərilir, yüksək vəzifələr bir-birini əvəzləyirdi və 1985-ci ildə məni Özbəkistan SSR-nin Avtomobil Nəqliyyat naziri təyin etdilər. Qeyd edim ki, o vaxtlar belə yüksək vəzifələr Sovet İttifaqı Komunist Partiyasının Mərkəzi Komitəsinin xüsusi razılığı ilə həyata keçirdi.

Artıq haqq-ədalət öz yerini alırdı. Bəylikdən sür-

günə, sürgündən azadlığa, buradan da ən yüksək pillələrə qalxa bilmişdim. Vaxtı ilə atamın verdiyi tövsiyələr öz bəhrəsini verir, onun əkdiyi ağaclarda «bol-bol məhsul» yetişdirirdi. Təkcə mən deyildim. Özbəkistanın hər yerində, bütövlükdə Orta Asiyada sürgünlükdə salınan bağlar bəhrə verirdi. Biz Azərbaycanı layiqli təmsil edirdik.

Nazir işləyərkən tale üzümə bir daha güldü. Baxmayaraq ki, düşdüyüm bu vəziyyət heç də ürəkaçan deyildi, sevinclə yanaşı kədər də vardı. Bu səbəbdən mən Moskvaya gedəsi oldum.

Özbəkistana məxsus avtobus qəzaya uğramış və otuz altı nəfər dünyasını dəyişmişdi. Bu, o vaxtkı qəzaların miqyasına görə olduqca böyük faciə sayılırdı.

Mən Özbəkistanda bu sahənin rəhbəri kimi baş vermiş faciənin səbəblərini SSRİ Mərkəzi Komitəsinin Komissiyası önündə aydınlaşdırmalı və hesabat verməliydim. Bu səbəbdən daxilən sarsıntı keçirsəm də, qəlbimin fatehi, ürəyimin sərdarı, qürurumun zirvəsi Heydər Əliyevlə təkrar görüşəcəyimdən sevinirdim. O vaxtlar SSRİ Nazirlər Sovetinin sədrinin birinci müavini, Siyasi Büronun üç türk əsilli üzvündən biri olan Heydər Əliyev nəqliyyat sektoruna da kuratorluq edirdi və bu komissiyanın sədri idi.

Toplantı başladı, mən hesabat verməyə hazırlaşırdım. Lakin bu alınmadı, çünki o vaxt daha böyük bir faciə baş vermişdi. Don çayında iki gəmi toqquşmuş və üç yüzdən çox insan həlak olmuşdu. Məhz bu səbəbdən həmin məsələ ön plana çıxdı və müzakirələr qəzaya uğramış gəmilərin ətrafında aparılmağa başlandı.

Sonda təbii ki, məndən də sorğu-sual edildi, ancaq bu soruşdurma olduqca qısa çəkdi. Heydər Əliyev məni ayağa qaldırıb, dedi: «Yoldaş Əzimbəyov, yəqin ki, sizə hər şey aydın oldu. Nə deyirsiniz, çıxışınıza ehtiyac görürsünüzmü?»

Mən toplantıya tam hazır getmişdim. Bütün lazımi tədbirləri görmüşdüm. Ona görə də qısa iki-üç cümlə ilə kifayətləndim və toplantı bitdi. Toplantıdan sonra Heydər Əliyevin köməkçisi mənə yaxınlaşıb, harda qaldığımı, telefon nömrələrimi öyrəndi və mənə bildirdi ki, Heydər Əliyev mənimlə görüşmək istəyir. Sevincdən gözlərim par-par yanırdı. Özümə yer tapa bilmirdim. Gecədən xeyli keçənəcən hazır vəziyyətdə zəng gözlədim. Zəng oldu, ancaq təəssüf ki, mənə bildirdilər ki, Heydər Əliyev mənimlə görüşə bilməyəcək, çünki siyasi büroda təxirəsalınmaz işlər çıxıb. Yenə də təəssüf. Beləliklə, mən son arzumu - «dahi şəxsiyyətlə təkbətək görüşümü» düz on iki il təxirə salmalı oldum.

Bəzən düşünürdüm ki, Müqəddəs Tanrı mənə arzuladıqlarımı gec də olsa, vermiş, muradımı gözümdə qoymamışdı. Yəqin, bu arzum da Tanrının xeyir-duası ilə həyata keçər, inşallah. Bəlkə də, heç vaxt bu qədər səbirsiz olmamışdım. Düz on iki il sərtamam bu anın arzuları ilə yaşadım və bu anı 1995-ci ilin fevralında həyata keçirdim.

Mən həmin vaxt Özbəkistan Nazirlər Kabinetində Nəqliyyat, Rabitə və Kommunal şöbəsinin müdiri işləyirdim. Yaxın dostum Azərbaycan Respublikasının Baş Nazirinin I müavini Abbas Abbasov mənə zəng edərək, bildirdi ki, bəs mənimlə Heydər Əliyev ciddi maraqlanır və Bakıya gəlməyimi istəyir.

Biz Abbasla telefonda danışarkən ani olaraq düşündüm. «İlahi, insanda necə fenomen yaddaş olarmış? O, düz on iki il bundan əvvəl mənimlə maraqlanmışdı, amma unutmamışdı.

Tərəddüdsüz Abbasa söz verdim ki, mütləq gələcəyəm.

Onunla - o böyük fenomen yaddaş sahibi, siyasət dünyasının akademiki, dövlətçiliyin qurulması və idarə olunması kimi ağır, bir o qədər də məsuliyyətli peşənin banisi ilə görüşəcəkdim. Görüşümüz ümummilli liderlə gecə saat birin yarısında Prezident Aparatında baş tutdu.

Yadımdadır, nə qədər həyəcanlı idim, necə sevinirdim, özümü dünyanın ən xoşbəxt insanı sayırdım.

Görüşdük, onun xariqələrə imza atan əlini sıxdım. Göz-gözə baxışdıq, simasından ətrafa yayılan nurdan donyunca qidalandım. Söhbət etdik, əvəzolunmaz məslənhətnlərindən bəhrələndim.

Həmin vaxt hörmətli müğənnimiz, xalq artisti Zeynəb Xanlarovanın ifa etdiyi bir mahnının kiçik misrası davamlı olaraq, beynimdə təkrarlanırdı: «Dünyanın xoşbəxti mənəm dünyada».

İllərlə gözlədiyim arzum həyata keçdi...

Həmin gün ümummilli liderimiz mənə Özbəkistanda Azərbaycanın səfiri olmaq təklifini edərək, dedi: «Aydın, get, fikirləş, yaxınlarınla məsləhətləş». Mən tərəddüdsüz, filansız: «Razıyam, fikirləşməyə və məsləhətləşməyə ehtiyac yoxdur. Ömrüm boyu sizin kimi dahi şəxsiyyətlə birgə işləmək arzusunda olmuşam, mən bu fürsəti qaçıra bilmərəm».

Doğrusu, bu dahi şəxsiyyətdən ayrılmaq istəmirdim. Lakin gecədən xeyli keçmişdi və söhbətimiz yekunlaşmışdı. Sağollaşıb, ayrıldıq.

1996-cı ildə mənə Fövqəladə və Səlahiyyətli Səfir adı verildi. Mən Azərbaycanın Özbəkistandakı səfiri təyin edildim. Bununla yanaşı, həm də bü-

tövlükdə Orta Asiya Respublikalarının səfiri funksiyasını yerinə yetirirdim.

Beləliklə, mənim iki ən böyük arzum reallaşdı.

Birinci, ulu öndərlə işləmək, ikinci, doğma Azərbaycanımıza birbaşa xidmət etmək. Mənə meydan verilmişdi, qalırdı özünü meydanda sınaqdan keçirmək. Necə deyərlər: «Allahdan bərəkət var idi, özündən hərəkətə ehtiyac duyulurdu».

Qolumu çırmalayıb, başladım işə. Mənim üçün Özbəkistanda, ikinci doğma Vətənimdə işləmək elə də çətin deyildi. Amma o dövr Azərbaycan-Özbəkistan arasındakı qədimdən-qədim qardaşlıq körpüsünün təmirə ehtiyacı vardı. Təbii ki, qardaşlıq körpüsünün təmirinin memarı öz dəyərli məsləhətlərini vermişdi, qalırdı icrası.

Mən icraya başladım. Çox çəkmədi ki, Özbəkistanda Azərbaycan Səfirliyinin tikintisini başa çatdırdım və körpünün «ilk təmirini» bərpa etdim.

Orta Asiyada ilk dəfə Azərbaycanın səfirliyi fəaliyyətə başladı. Səfirliyin açılışında Azərbaycanın və Özbəkistanın əvəzsiz liderləri, prezidentlər Heydər Əliyev və İslam Kərimov iştirak etdilər. Açılış olduqca təntənəli keçdi.

Beləcə, ard-arda ulu öndərimizin tövsiyələrini həyata keçirir, Özbəkistan-Azərbaycan dostluğunun möhkəmlənməsini və inkişafını reallaşdırırdım.

Bu, mənim üçün ikiqat sevinc və qürur idi. Çünki bir növ iki qardaş ölkə arasındakı münasibətlərin bərpası ilə məşğul olduğum körpünün ortasında dayanan mən özüm idim. Və hər iki ölkə mənə doğmadan doğma və əziz idi.

Sevinirdim, gecə-gündüz Allahıma şükür edirdim, dahi öndərimizə dualar edirdim, nə yaxşı oldu ki, mən bu vəzifəyə irəli çəkildim. Məhz canım qədər sevdiyim Azərbaycan-Özbəkistan respublikalarının arasındakı körpünün təmirini mən icra edirdim. Axı mənə bu, bəlkə də, hamıdan çox lazım idi. Çünki ürəyimin bir parçası körpünün bu tərəfində, digəri isə o biri tərəfində idi. Özbəkistan-Azərbaycan əlaqələri sürətlə öz axarına düşür, günü-gündən vüsət alırdı.

2003-cü ilin dekabrında miqyası ölçüyə gəlməyən itki baş verdi. Azərbaycan və bütövlükdə türk dünyası böyük oğlunu - Heydər Əliyevi son mənzilə yola saldı. Xalq onu gül-çiçək dənizi ilə son mənzilə qədər müşayiət etdi.

«Təəssüf ki, mən öz müəllimimi son mənzilə yola sala bilmədim». Bu sözlər Özbəkistan prezidenti İslam Kərimova aiddir. O vaxt dəyərli şəxsiyyət İslam Kərimov soyuqladığından dəfnə gələ bilməmişdi. Bununla belə, xəstələndiyinə baxmayaraq, qüvvə tapıb, Azərbaycanın Özbəkistandakı

səfirliyinə gəldi. Başsağlığı verdi və ürək sözlərini səfirliyin fəxri kitabına qeyd etdi.

Mən o vaxt onunla görüşəndə bir neçə məsələ haqqında məsləhətləşmək istədiyimi Prezident İslam Kərimova bildirdim. O da məmnuniyyətlə məni dinləmək istədiyini dedi və köməkçisinə məni qəbuluna yazmağını tapşırdı.

Mənim qəbula getməyimə ehtiyac qalmadı. Belə ki, ertəsi gün Özbəkistan Respublikasının Xarici İşlər naziri mənə hansı məsələlər haqqında prezidentlə görüşmək istədiyimi soruşdu. Mən də əvvəlcədən hazırladığım beş məsələni dedim.

I. Daşkənd  küçələrindən birinə ümummilli liderin adının verilməsi.

II. Ümummilli liderin büstünün qoyulması.

III. Daşkənddə Azərbaycan evinin açılması.

IV. N.Gəncəvi  adına Daşkənd Dövlət Pedaqoji Universitetinin önündə böyük şairin heykəlinin ucaldılması.

(Bu dördüncü məsələ məni uzun illər narahat etmişdi. Bir dəfə həmin universitetin qarşısından keçərkən özbək xanımı mənə yaxınlaşıb nə desə, yaxşıdır? O, dedi ki, «Necə olur ki, 1945-ci ildən N.Gəncəvinin adını daşıyan universitetin önündə

Frunzenin heykəli dayanır? Sizcə ədalətin bərpasının vaxtı deyilmi?» Bu sözlərdən sonra ürəyimdə həmişə gəzdirdiyim arzumu həyata keçirməyin vaxtı çatıb deyə, IV məsələ kimi Nizami Gəncəvinin heykəlinin ucaldılması məsələsini qaldırdım).

V. Müstəqil Azərbaycan Respublikasının vəsaiti ilə xarici ölkədə tikilmiş Azərbaycan Respublikasının Səfirliyinin açılması.

Sağ olsun, Özbəkistan prezidenti İslam Kərimovun göstərişi ilə qaldırdığım məsələlərin beşi də həll edildi. Və beləlliklə mən iki qardaş xadq arasındakı dostluq körpüsünün təmirini başa çatdırdım.

İndi bərpa təməlini ulu öndərimiz Heydər Əliyevlə Özbəkistan prezidenti, dəyərli şəxsiyyət İslam Kərimovun qoyduğu, mənim icraçısı olduğum Özbəkistan-Azərbaycan dostluq körpüsü fəaliyyətdədir.

Bu körpü Xəzərin qərbi ilə şərqini birləşdirməklə yanaşı, bütövlükdə Türk dünyasının əlaqələndiricisi missyasını da yerinə yetirməkdədir.

# Dost sözü





***Nacim Xamrayev,***
*Özbəkistan və Rusiya*
*Kənd Təsərrüfatı Elmləri*
*Akademiyasının akademiki,*
*texnika elmləri doktoru, professor,*
*Sosialist Əməyi Qəhrəmanı*

## Əsl insan xarkterinin cizgiləri

Aydın Əlibəy oğlu Əzimbəyovla aramızda olan möhkəm kişi dostluğunun qırx illik tarixi var. Bu illər ərzində münasibətlərimizin dəyişməzliyinə, sadiqliyinə, onu qiymətləndirmək və qoruyub saxlamaq bacarığına görə daha çox Aydına minnətdar olmalıyam.

Onunla müxtəlif sahələrdə işləməyimizə baxmayaraq, Ac Çölün - Özbəkistanın Sırdərya vilayətinin 300 min hektar sahəni əhatə edən bu ən böyük, susuz və məskunlaşmamış massivinin fəth edilməsi ilə bağlı müxtəlif təsərrüfat məsələləri ilə əlaqədar tez-tez görüşməli olurduq.

Aydın Əzimbəyov kimi yüzlərlə mütəxəssisin sayəsində burada bir milyona yaxın əhalisi olan yeni inzibati vilayət yaradıldı.

İstehsal gücü 200 kub/san olan nəhəng, unikal Cizak Nasos Stansiyasnın inşasında və avadanlıqların montajı işlərinin təşkil olunmasında da Aydın Əlibəyoviç yaxından iştirak edirdi.

Çox qısa müddət ərzində pambıq tarlalarının suvarılması üçün təcili su verilməsi tələb olunduğundan bu istiqamətdə iş dayanmadan, bütün gün ərzində çox gərgin şəraitdə davam edirdi. Bu yerdə Aydın Əlibəyoviçin xarakterindəki çox dəyərli keyfiyyətləri xüsusi qeyd etmək istəyirəm. Aydın Əzimbəyov heç vaxt emosiyalara qapanmır və işçi kollektivində yaranan hər hansı neqativ əhval-ruhiyyənin qarşısını dərhal almağı bacarırdı. O, həssaslıqla vəziyyətin mürəkkəbliyini hiss edir və danışdığı bir qayda olaraq, çox yerinə düşən, yumoristik əhvalatlarla bu gərginliyin azaldılmasına nail olurdu. Həm də onun danışdıqları adi lətifə yox, çox mənalı, əyləncəli, həm də müdrik həyat hadisələri olurdu. Xeyirxahlığı, ünsiyyətcilliyi, həmkarları və fəhlələrlə hörmətlə davranması, təşkilati məsələləri operativ həll etmə qabiliyyəti Aydın Əlibəyoviçin böyük hörmət sahibi olmasına və onun professional inşaatçı kimi sayılıb-seçilməsinə zəmin yaradırdı. Özbəkistan Nazirlər Soveti Nəqliyyat şöbəsinin müdiri və Respublikanın Avtomobil Nəqliyyatı Naziri vəzifəsinə təyin olunanda da o, özünün heyrət doğuran fəallığı, gördüyü işə vicdanla və məsuliyyətlə yanaşması ilə fərqlənirdi.

Azərbaycan Respublikası rəhbərliyinin çox müdrik qərarı ilə Aydın Əlibəyoviç Əzimbəyovun Özbəkistana

səfir təyin edilməsi bizi - onun dostlarını heç də təəccübləndirmədi. Sözsüz ki, bu zaman onun uzun müddət bu Respublikada yaşaması, rəhbər vəzifələrdəki çoxillik təcrübəsi və adamlarla tez dil tapa bilməsi, fitrən tərbiyəli, təmkinli, olması və əlbəttə ki, diplomat kimi şəxsi keyfiyyətləri nəzərə alınmışdı. Onun təyinatı ilə Azərbaycan Respublikaının Özbəkistandakı səfirliyi ən fəal qurumlardan birinə çevrilə bildi.

Çoxlu sayda müxtəlif, birgə mədəni tədbirlər keçirilir, milli kalorit və adət-ənənələr nəzərə alınmaqla, geniş və rəngarəng milli bayramlar qeyd edilirdi.

Respublika rəhbərliyi ilə çox gözəl şəxsi və işgüzar əlaqələri olan Aydın Əzimbəyov Azərbaycan Mədəniyyət Mərkəzi üçün həlli heç də sadə olmayan yer seçilməsi, səfirliyin yeni binasının inşa edilməsi, dahi Azərbaycan şairi Nizami Gəncəvinin heykəlinin ucaldılması kimi bir çox məsələlərin operativ həllinə nail ola bilmişdi. Özünün çox zəngin inşaatçıt əcrübəsindən və təşkilatçılığından istifadə edərək, o, çox qısa bir müddət ərzində bu obyektlərin tikinti işlərini başa çatdırdı, ətraf ərazini abadlaşdırdı. İndi Daşkəndin gözəl ümumi memarlığına harmonik daxil olan bu tikililər, şübhəsiz, onu daha da gözəlləşdirmişdir.

Azərbaycan diasporu Özbəkistandakı ən önəmli diasporlardan biridir. Şişirtmədən demək olar ki, Aydın Əlibəyoviç hər bir həmvətənini şəxsən tanıyır. O, mübahisəli, hərdən konflikt xarakteri almış məsələlərin həllində şəxsən iştirak edir, əmək və müharibə vete-

ranları, yaşlı nəslin nümayəndələri və gənclərlə görüşlər təşkil edirdi. Göstərdiyi həssas və qayğıkeş münasibətə görə adamlar onunla təmasda olmağa can atır, səfirlə görüşdükdə xeyirxah məsləhət alacaqlarına və onların problemlərinin həllinə mütləq kömək ediləcəyinə inanırdılar. Aydın Əlibəyoviç Özbəkistanda akkreditə olunmuş digər ölkələrnin diplomatik korpusları ilə də çox gözəl, etibarlı münasibətlər yarada bilmişdi.

Azərbaycan və Özbəkistan Respublikaları arasında dostluq əlaqələrinin daha da möhkəmləndirilməsi və inkişaf etdirilməsinə görə Özbəkistan dövlətinin rəhbərliyi səfir Aydın Əlibəy oğlu Əzimbəyovu «Xalqlar Dostluğu» ordeni ilə təltif etmişdir.

Dost ölkənin səfirinin belə bir yüksək ordenlə təltif edilməsi kimi qeyri-ordinar bu fakt onun şəxsi və xidməti keyfiyyətlərinin yüksək səviyyədə etirafına şəhadət verirdi. Uzun illər boyu rəhbər vəzifələrdə çalışması Aydın Əzimbəyovun xarakterinin dəyişməsinə səbəb ola bilmədi. Zaman və şərait çox vaxt insanlar arasındakı münasibətlərə təsirsiz qalmır. Halal, ləyaqətli və əxlaqlı olmaq, yaxşılığı unutmamaq kimi qiymətli insani keyfiyyətləri necə qoruyub saxlamalı? Nadir hallarda kiməsə, bütün şüurlu həyatı boyunca, bu ən yaxşı insani keyfiyyətləri qoruyub saxlaya bilmək nəsib olur.

Mən çox şadam ki, həyatımda Aydın Əzimbəyov kimi bir insanın yeri var və ötən illər bizim qarşılıqlı mehribanlığımıza, ən yaxşı hisslərimizə təsir göstərib, dəyişdirə bilməyib.



***Viktor Haydurov***
*İttifaq əhəmiyyətli*
*fərdi təqaüdçü*

# Gözəl insan

Həyatda həmişə ünsiyyətdə olub, dostluq eləmək və birlikdə işləmək istədiyin adamlar o qədər də çox deyil. Belə adamlardan biri zəmanəmizin çox dəyərli insanı, yüksək mədəniyyət və erudisiya sahibi, səbirli, hərəkətlərində, oturuş-duruşunda təmkinli, fikirləri sanballı, götür-qoylu, ən ekstremal şəraitlərdə belə özünü itirməyən Aydın Əlibəyoviç Əzimbəyovdur.

Aydın Əzimbəyov Daşkənd Kənd Təsərrüfatının İrriqasiya və Mexanizasiyası İnstitutunu bitirərək, mühəndis-mexanik kimi əmək fəaliyyətinə başlamış, avtomobil nəqliyyatı sahəsində ilk addımlarını atmışdır. Xalq təsərrüfatının bu vacib sahəsini dərindən bilən tanınmış təşkilatçı-mütəxəssis sonda Özbəkistan Respublikası-

nın Avtomobil Nəqliyyatı naziri təyin edilmişdir. İti ağıla, hər şeydən məlumatı, hərtərfli biliyə malik rəhbər kimi o, vilayətin kənd təsərüfatı, sənaye, əsaslı tikinti və digər sahələrinin də  iqtisadiyyatını dərindən öyrənmişdi. Adamları tanıya bilir, çətin vəziyyətlərdə onlar köməyinə çatırdı.

Bütün bu keyfiyyətlər onun Sırdərya vilayətinin Partiya Komitəsində nəqliyyat və  əsaslı tikinti şöbəsinin müdiri işləməsinə imkan yaratdı. Bu vəzifədə, daha sonra isə Sırdərya vilayət Partiya Komtəsinin katibi işləyərkən iqtisadiyyatın inkişafına, istehsalat müəssisələrində nizam-intizamın möhkəmlənməsinə diqqət verir, sosial-məişət problemlərinin həllində aktiv iştirak edirdi. Ortaya çıxan çətinlikləri əmək kollektivinin, zəhmətkeşlərin və dövlətin  marağı çərçivəsində həll edir, hər bir işə həssaslıqla və diqqətlə yanaşırdı. Vilayət Partiya Komitəsinin üzvü kimi rayonlarda olur, müəssisələrdə zəhmətkeşlərlə görüşür, bir çox məsələləri yerindəcə həll edirdi.

Etibarlı bir insan kimi çətin məqamlarda həmişə ona güvənmək olardı. Özünün biliyi, hərəkətləri və davranışı ilə o, vilayətin çoxmillətli xalqlarının dostluğunun möhkəmlənməsi üçün böyük əmək sərf edirdi.Ona görə də vilayət fəalları da, zəhmətkeşləri də onu sevirdilər. Aydın Əzimbəyovun Sırdərya vilayətindəki fəal və vicdanlı fəaliyyəti Respublika rəhbərliyi tərəfindən yüksək qiymətləndirildi və o Respublikanın Avtomobil Nəqliyyatı naziri təyin edildi.

Sərnişin və yük daşınması ilə bağlı yeni, daha əlverişli marşrutların işlənməsi, daşınan yükün həcminin artırılması, xidmət keyfiyyətinin yaxşılaşdırılması, boşdayanmaların qarşısının alınması onun rəhbərliyi altında bir norma kimi təsdiqlənmiş oldu.

Özbəkistan Kommunist Partiyası MK-nın büro üzvü və Respublika Xalq Nəzarəti Komitəsinin sədri kimi Nəvai vilayətinin Zərəfşan şəhərində ezamiyyətdə olarkən bu şəhərdəki Orta Asiyanın ən böyük qızılçıxarma və emal müəssisəsində şəhər sakinləri mənə müraciət edərək, Zərəfşan-Daşkənd şəhərlərarası avtobus marşrutlarının əlverişsiz qrafikindən şikayət edərək, bu məsələdə onlara kömək etməyimi xahiş etdilər. Mən bu xahişi nazir Əzimbəyova çatdırdım. Cəmi bir həftəyə mənim xahişim təmin olundu.

A.Əzimbəyovun bir nazir kimi məsuliyyətli olması barədə daha bir misal çəkmək istəyirəm. Bir dəfə Fərqanə vilayətində ezamiyyətdə olarkən oradakı ağlı zəif inkişaf etmiş uşaqlar üçün uşaq evinə baş çəkdim. Burada yaxşı qayda-qanun var idi, uşaqlar üçün yaxşı şərait yaratmışdılar, onlara yaxşı qulluq göstərirdilər. Uşaq evinin direktoru uşaqları poliklinikaya və tədbirlərə aparmaq üçün onlara bir avtobus ayrılması barədə xahişlə mənə müraciət etdi. Mən də bu xahişi Aydın Əlibəyoviçə çatdırdım. Cəmi iki gündən sonra Fərqanədən mənə zəng etdilər. Danışan həmin uşaq evinin direktoru Antonova idi. O, böyük sevinclə aldıqları kiçik avtobusa görə minnətdarlığını bildirəndə, düzü, elə

mən özüm də heyrətləndim. Aydın Əzimbəyov zəhmətkeşlərin və adi vətəndaşların xahişinə həmişə bax belə həssaslıqla və diqqətlə yanaşırdı.

Aydın Əlibəyoviç xasiyyətinə görə hamıyla, onu əhatə edən müxtəlif millətlərin nümayəndələri ilə dostluq münasibətləri saxlamağı bacaran, olduqca ünsiyyətcil şəxs idi. Yeni və mütərəqqi olan hər şeyə maraq göstərirdi.

Daşkənddə işləyərkən Respublika rəhbərliyinin işçiləri arasında onun 30 ildən çox müddətdə işlədiyi Sırdərya vilayətindən olan həmyerliləri də var idi və Aydın onlarla sıx əlaqə saxlayır, imkan tapan kimi görüşürdü.

Sırdəryalı dostları ilə görüşə bilmək üçün Aydın Əzimbəyov «Sırdəryalılar Klubu» yaratmağı təklif etmişdi və biz uzun illər ad günləri, toy və digər tədbirləri keçirmək üçün ora yığışırdıq. Görüşlərimiz çox şən və maraqlı keçirdi. O, bizim yığıncaqların bəzəyi, hamının sevimlisi idi. Günü bu gün də onu hörmətlə xatırlayır və sevirik.

Aydın Azərbaycan Respublikasının Özbəkistandakı Fövqəladə və Səlahiyyətli səfiri işlədiyi 10 ilə yaxın müddətdə özünün işgüzarlıq xüsusiyyətlərini daha qabarıq göstərdi. Bu vəzifədə o, özünü əsl, anadangəlmə diplomat kimi təsdiqlədi. İki ölkə arasında dostluq və əməkdaşlığın möhkəmlənməsi işində vaxtaşırı Azərbaycan və Özbəkistan rəhbərlərinin, nazirlik və idarə rəhbərlərinin, parlament üzvlərinin, eləcə də mədə-

niyyət xadimlərinin görüşlərinin təşkil olunmasında çox böyük rol oynadı.

Daşkənddə akkreditə olunmuş diplomatik nümayəndəliklər arasında fərqlənərək, Daşkəndin mərkəzi küçələrin birində səfirliyin yeni binasının, eləcə də «Azərbaycan evi» Mədəniyyət Mərkəzinin tikilməsinə, ilk dəfə olaraq, Azərbaycanın hüdudlarından kənarda dünya şöhrətli dövlət xadimi Heydər Əliyevin büstünün qoyulmasına, böyük Azərbaycan şairi Nizami Gəncəvinin heykəlinin ucaldılmasına və Daşkəndin mərkəzi küçələrinin birinin Azərbaycan xalqının ümummilli liderinin adı ilə adlandırılmasına nail oldu.

Əzimbəyovun anadan olmasının 80 illiyi ərəfəsində onun yaşadığı ömür yoluna bir daha nəzər saldıqda onun çox gözəl və dolğun həyat yaşadığını, insanların rifahı naminə çox şey etdiyini, Özbəkistan kimi gözəl və yaxşılıqları heç vaxt unutnmayan ölkənin vətəndaşlarının qəlbində silinməz izlər qoyduğunu, buna görə də hər zaman hörmət və minnətdarlıqla xatırlandığını təsdiq etmək lazım gəlir.

Aydın, həm də yaxşı bir ailə başçısı, ailəcanlı ata kimi onu daima əziz tutan, həmişə, hər şeydə kömək etməyə hazır olan, onu həyatın özü qədər sevən iki gözəl qız və Əlibəy kimi layiqli oğul böyütmüşdür.

Sağ və salamat ol, əziz Aydın Əzimbəyov!

Yaşa və hələ uzun illər öz varlığınla dostlarını sevindir!



***Rauf Əbdürrəhmanov,***
*Sırdərya Vilayət İcraiyyə Komitəsinin keçmiş sədri, Vilayət Partiya Komitəsinin üzvü*

# Arxaya boylananda

1974-cü il fevralın 2-si yadımda qalan günlərdəndir. Həmin gün mən, Aydın Əzimbəyov və bir neçə başqa yoldaşlar Sırdərya vilayət Partiya Komitəsinin büro üzvü seçildik. Bu gün, insanların rifahı və vilayətin çiçəklənməsi uğrunda çox böyük quruculuq işlərinin başlanğıcı oldu. Mən konfransda Vilayət Komitəsinin Kənd Təsərrüfatı şöbəsinin, Aydın Əlibəyoviç isə Sənaye və Nəqliyyat şöbəsinin müdiri vəzifəsinə təsdiq edilmişdik. İnşaat şöbəsinə Aleksandr Vasilyeviç Timoşenko, inzibati şöbəyə isə Vyaçeslav Qavriloviç Kretov başçılıq edəcəkdilər.

Birgə işimizin ilk günündən biz - şöbə müdirləri dostlaşdıq və ümumi işlərin görülməsində həmişə həmrəy olduq. Bizim ömrü uzun olan bu dostluğumuz işimizə çox kömək etdi. Qarşılıqlı hörmət, şəraiti anlamaq, Vilayət Komitəsinin qarşısında duran vəzifələrin məğzini

başa düşmək və hər şeyi mümkün qədər yaxşı yerinə yetirmək istəyi bizi daha da yaxınlaşdırırdı və biz bir-birimizdən irəli getməyə mane olan çətinlikləri aradan qaldırmağı, nöqsanlardan uzaq olmağı öyrənirdik.

İllər keçir, Ac Çölün xəritəsi də dəyişirdi - yeni yaşayış məskənləri, qəsəbələr salınırdı, mədəni-məişət obyektləri, yaşayış evləri tikilirdi. Zaman insanların həyatının ritmini və keyfiyyətini dəyişmişdi. İndi bizim də fəaliyyət sahəmizdə dəyişikliklər baş vermişdi - mən Vilayət İcraiyyə Partiya Komitəsində rəhbər işə irəli çəkilmişdim, Aydın Əlibəyoviç sənaye, tikinti və nəqliyyat üzrə Vilayət Partiya Komitəsinin katibi olmuşdu.

O vaxtlar, həm çox çətin, həm də çox maraqlı illər idi. Çölün canlanması uğrunda «Средазиясовхозстрой»a rəhbərlik edən tanınmış irriqator, çox böyük ürək və enerji sahibi, sonralar Sosialist Əməyi Qəhrəmanı adı almış akademik Nacim Rəhimoviç Xamrayevin gördyüyü intensiv işlər öz bəhrəsini verməyə başlamışdı. Əvvəllər insan ayağı dəyməyən çöllərdə meyvə bağları salınır, tikinti, o cümlədən yeni suvarma sistemlərinin yaradılması işləri davam edirdi. Vilayət xam pambıq istehsalında, eləcə də digər kənd təsərrüfatı məhsullarının istehsalında durmadan irəliləyirdi. Hətta məktəblərin, uşaq bağçalarının da bağlanmasına səbəb olan qızmar yay günlərində, kəsici qış küləkləri tüğyan edəndə də məskunlaşma işi davam etdirilir - təcili qaydada qoruyucu yaşıl meşə zolaqları salınırdı. Belə çətin bir şəraitdə Aydın Əzimbəyov havanın şıltaq-

lıqlarına məhəl qoymadan öz daxili gücünü, yenilməzlik, qəbul edilmiş qərardan dönməzlik əzmini nümayiş etdirirdi. Onu çox nadir hallarda kabinetdə oturan görmək olurdu - həmişə nəqliyyatçıların, inşaatçıların, xam torpaqlara həyat verənlərin yanında idi.

O, insanlarla ümumi dil tapmağı bacarırdı - rəis pozasında dayanmadan sadə, anlaşılan və səmimi danışırdı, eşitməyi və qulaq asmağı bacarırdı.

Bir çox buldozerçilərin, bərkidicilərin, sürücülərin çoxunu yaxından tanıyır, onları adları ilə çağırır, ürəkdən salamlaşır, necə yaşayıb-dolandıqları ilə maraqlanırdı. Bu isə insanların xoşuna gəlir, onları daha yaxşı işləməyə ruhlandırırdı. Bir qayda olaraq, ən vacib problemlər yerindəcə həll olunurdu. Pambıq tarlalarına su verilməsi vaxtı çatanda isə iş gecə və gündüz dayanmadan davam edirdi. Nə irriqatorlar, nə də dehqanlar rahatlıq bilmirdilər. İşçi qüvvəsinin çatışmazlığı çox qabarıq hiss olunurdu. Əvəzində texniki fikir dəqiq işləyirdi - səmərələşdiricilər və ixtiraçıların yorulmaz axtarışları nəticəsində əl əməyinin çox böyük hissəsi mexanizmlərin öhdəsinə verildi. O illərdə Sırdərya vilayətini haqlı olaraq, kənd təsərrüfatının kompleks mexanikləşdirmə laboratoriyası adlandırırdılar.

Aydın Əzimbəyovun çox böyük əməyi sayəsində təzə salınmış tarlalardan yığılan pambığın 90 faizindən çoxu pambıqyığan maşınların payına düşürdü. Bu yorulmaz rəhbər respublikanın elektrik enerjisinin 33%-dən çoxunu istehsal edən Sırdərya HES-in də tikintisi-

nə çox böyük diqqət verdiyindən sözün əsl mənasında inşaatçıya çevrilmişdi.

Bu çox vacib obyektin kuratoru kimi o, tez-tez planlaşdırmada iştirak edir, işin gedişatı barədə məlumatlı olur və tikinti işləri ilə bağlı ən vacib detalları yadında saxlayırdı. Özbəkistan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Şəraf Rəşidoviç Rəşidovun vilayətə səfəri zamanı buradakı dövlət əhəmiyyətli obyektlərə baş çəkərkən onu bir qayda olaraq, Vilayət Bürosunun üzvlüyünə namizəd Viktor Alekseyeviç Haydurov, İbrahim Uraloviç Kuçkarov və Aydin Əlibəyoviç Əzimbəyov müşayiət edirdi.

Belə səfərlərdən birində Şəraf Rəşidoviç Rəşidov tikintisi tamalanmaqda olan dram teatrında işlərin gedişi ilə tanış olmağa qərar verdi. Aydın Əzimbəyov məmnuniyyətlə səlahiyyətli yoldaşı tikintinin gedişi barədə məlumatlandırdı və binanın görünüşünə milli kolorit motivlərinin əlavə edilməsi ilə bağlı ilkin layihədə dəyişikliklər edildiyini nəzərə çatdırdı. Şəraf Rəşidoviç tikintinin gedişinə, görülən işin keyfiyyətinə çox yüksək qiymət verərək, edilən dəyişikliklərdən razı qaldığını bildirərək, Gülüstanda dram teatrının olmasının Ac Çöllülərin mədəni səviyyəsinin artmasına kömək edəcəyini vurğuladı.

Sırdərya torpağının bir xüsusiyyəti var, bu torpaq ona qəlbən bağlananları heç vaxt «unutmur». Özbəkistan SSR Nazirlər Kabinetinin sədri, Dövlət Plan Komitəsinin sədri keçmiş sırdəyalı Qüdrətulla Əhmədov uzun illər burada Vilayət Komitəsinin birinci katibi işləmişdi. Respub-

lika «Olimp»ində yüksək yer tutsa da, görünür, Sırdərya torpağı üçün darıxan Qüdrətulla Əhmədov tez tez vilayətə baş çəkirdi. Onun tarlada məşhur pambıqçı Cabbar Ağəliyev ilə söhbətini xatırlayıram. Söhbət əsnasında Qüdrətulla Əhmədov pambıq qozasını əlinə götürərək, Aydın Əzimbəyovla birlikdə onu diqqətlə nəzərdən keçirərək gördüklərini bu sözlərlə şərh etdi: « - Bir baxın, cəmi 3-4 bölümdən ibarət olan bu qoza necə ağırdır? Hər bölümün içində isə 8-9 toxum var». Bir qədər fikrə getdikdən sonra sözünə davam edərək: « - Bütün bunların arxasında yüzlərlə adamın böyük əməyi durur», - dedi. Onun sözlərinin davamı kimi Aydın Əzimbəyov əlavə etdi: « - Bəli, pambıq və adamlar bizim ən böyük sərvətimizdir».

Qüdrətulla Əhmədov yenə üzünü Cabbara tutdu:

- Görürəm, bu il məhsulunuz pis deyil, hər hektardan neçə sentner məhsul yığmağı planlaşdırırsınız?

- Əgər keçən il 46 sentner verə bilmişdiksə, çox güman ki, bu il bu rəqəm 50-dən, yəni hər hektardan 800 ton xam pambıqdan az olmayacaq, - deyə, Cabbar Ağəliyev cavab verdi.

- Çox gözəl! - deyə, Qüdrətulla Əhmədov üzünü Aydın Əzimbəyova tutdu:

- Pambığın daşınması işində sizin də payınıza böyük işlər düşəcəkdir.

Bax, beləcə, iki yüksək vəzifə sahibi elə pambıq tarlasındaca vahid fikrə gələrək, gələcək planları barədə razılaşdılar. Bu, onların iş prinsipi, işə yanaşma tərzi idi və onlar bu prinsipə həmişə sadiq qaldılar.

Aydın Əlibəyoviç bütün xalq və rəhbərlik tərəfindən sevilən insandır. Onu xeyirxahlığına, təmkinli olmasına və ən kritik vəziyyətlərdə belə özünü ələ ala bilmək bacarığına görə qiymətləndirirlər. Heç kəs, heç yerdə, heç vaxt Aydın müəllimi özündən çıxan, hündür səslə danışan görməyib.

Aydın Əzimbəyovu hamıdan fərqləndirən bu cəhətləri onun böyük ağlına və xarakterinə söykənir.

Gülüstanda uzun illər Fikrət Abbasoviç Quliyevin rəhbərlik etdiyi, Sırdərya vilayəti üçün çox əhəmiyyətli olan bir obyektin, son dərəcə lazımlı məhsullar - yağ, jımıx, şrot (*heyvanlar üçün qış yemi - Red*.) və s. hazırlayan Yağ Ekstraksiya Zavodununun (YEZ) tikintisinin gedişinə vaxtilə nəzarət etmiş Aydın Əzimbəyov sonralar nə onun istehsal etdiyi məhsulun keyfiyyətini, nə də zavodun texniki təchizat məsələlərini nəzarətdən kənar qoymadı.

Bir-birilə yaxşı dil tapan, həm də həmyerli olan bu iki rəhbər öz aralarında çox yaxşı yola getsələr də, bu, Aydın Əzimbəyova iş barədə Fikrət Quliyevdən ciddi hesabat tələb etməyə mane olmurdu.

Fikrət Abbasoviç bu barədə xatırlayaraq, deyir:

« ...Prinsipial bir rəhbər, ali səviyyəli mütəxəssis kimi bizim müəssisədə Aydın Əzimbəyovu çox sevir və hörmət edirdilər. İstənilən vaxt, istənilən mövzuda - istehsalat, həyati, yaxud ictimai problemlərlə bağlı ona müraciət etmək olardı. O, kömək etməyi bacarır və bunu ürəkdən edirdi.

Yəqin ki, məhz ona xas olan işgüzarlıq, təşkilatçılıq və insani keyfiyyətlərə görə Aydın Əzimbəyov Özbəkistanın Avtomobil Nəqliyyatı naziri təyin olundu. Bu zaman onun vəzifə dairəsi müqayisə edilməz dərəcədə genişlənmiş və mürəkkəbləşmiş oldu. Amma o, yenə də həmişəki kimi xeyirxah, açıq, mehriban və sadə olmağı ilə onunla birgə işləyən adamlarda bir qayda olaraq, son dərəcə xoş təəssürat yaradırdı.

Çoxları onu öz müəllimi hesab edir və hörmətlə ona: «Aydın müəllim» -deyə, müraciət edirdilər.

Təkcə Sırdərya vilayətində vilayət avtotrestinin keçmiş rəhbəri Uluqbəy Tursunoviç Umarov və nəqliyyatçı Əbdüvəli Camaloviç yox, Respublikanın digər regionlarında da onun hörməti, nüfuzu böyük idi.

Buna misal olaraq, xatırlayıram ki, bir dəfə vəzifə borcumla əlaqədar olaraq, Səmərqənddə olanda «Avtotaksobaza»nın direktoru Aleksandr Varsakoviç Arakelov və 18 saylı avtobazanın direktoru Nemət İsmətoviç Abdullayev öz sualları ilə üstümə, necə deyərlər, hücum çəkərək, mənim doğrudanmı «bizim nazirlə» bir yerdə işlədiyimi soruşurdular. Mən bunun doğru olmasını təsdiq edəndə, onlar dil-boğaza qoymadan A.Əzimbəyovun ünvanına «yüksək səviyyəli mütəxəssis», «əla təşkilatçı», «parlaq rəhbər» kimi epitetlərlə təriflər yağdırmağa başlayaraq, «onunla yanaşı işləmək nə əla olardı», «ondan dəqiq və aydın göstərişlər alıb, yerinə yetirmək nə xoş olardı» və s. bu qəbildən olan arzularını bildirdilər. Onların dedikləri vilayət

və bütövlükdə Özbəkistan Respublikası üçün çox işlər görmüş bu insana hörmət və məhəbbət ifadəsi idi.

Aydın Əlibəyoviçin həyatında yeni dövr başlayanda və o, Azərbaycanın Özbəkistandakı Fövqəladə və Səlahiyyətli səfiri kimi fəaliyyət göstərəndə də tez-tez Sırdərya vilayətinin qonağı olurdu. Öz həmkarları, digər ölkələrin səfirləri ilə buraya öz doğma evinə gəlirmiş kimi gəlirdi, axı necə olsa, ömrünün yarıdan çoxunu burada - onu həmişə öz doğmaları kimi qarşılayan, hörmətini saxlayan və dostluq münasibətlərini nümayiş etdirən sırdəryalıların arasında keçirmişdi.

Öz növbəsində heç nəyi unutmayan Aydın Əlibəyoviç həyatına əbədi daxil olmuş, məskunlaşmasında, tərəqqi və inkişafında özünün də az əməyi olmayan bu vilayəti, bu Ac Çölü öz doğma torpağı kimi qəbul edir. Burada onun hər gəlişinə, hər görüşünə ürəkdən sevinən çoxlu dostları yaşayır.

Bu gün biz, sırdəryalılar - Aydın Əzimbəyovun dostları və kolleqaları, arada olan illərə və məsafələrə baxmayaraq, onun 80 illik yubilleyini ürəkdən qeyd edir, həmişəki kimi möhkəm cansağlığına malik olmasını, uzun ömür yaşamasını arzulayırıq.

Həmişə könül xoşluğuiçində, dost əhatəsində olasınız, əziz Aydın müəllim!

Biz xoşbəxtik ki, bir vaxtlar sizin kimi kamil bir şəxsiyyətlə çiyin-çiyinə işləmək səadəti nəsibimiz olub.

Tanrı sizi qorusun!



***Zərri (Nəsibə) Sultanova,***
*IX-X çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı (1975-1985), 1982-ci ildən Azərbaycan SSR-in əməkdar müəllimi*

## Süd qardaşım

Aydın mənim süd qardaşımdır...

1932-ci ildə Aydınla bərabər, onun xalası - mənim anam Həcərin də bir oğlu olmuşdu. Onlar 7 gün fərqlə dünyaya gəliblər. Əminə xalam xəstə olduğuna və hər iki bacı ata evində bir yerdə yaşadığına görə mənim anam körpə Aydını da yedizdirirmiş.

Anam danışırdı ki, 1937-ci ilin may ayında onlar köçürülən zaman mən 1 yaş 3 aylıq olmuşam. Anamın deməsinə görə, onlar köçürüləndən sonra mən hər səhər gedib, xalamın evinin qapısında durub, xalamı çağıraraq: «Annan, annan!» deyə-deyə ağlayarmışam.

Sonralar mən və qardaşlarım böyüdükdən sonra evimizin əsas söz-söhbəti xalamın ailəsi haqqında olardı.

Kərim Ağa adlı bir poçtalyon vardı, bizə onlardan məktub gətirərdi. Məktub gələn gün bizim ailədə toy-bayram olardı. Qəcələ quşu bizim həyətdə ağaca qonanda sevinirdik ki, bu gün xalamgildən məktub gələcək. Və çox vaxt bu doğru çıxardı. Ara-sıra mənim anam Həcər xanım xalamgilə pasılka (*poçt bağlaması - Red.*) göndərərdi. Pasılkanı göndərməyə gedəndə isə anam həmişə çadra örtərdi ki, pasılka görünməsin. Pasılkanın üstünə göndəriləcək ünvanı evdə yazmırdı ki, kimsə yolda görüb-bilməsin. Anamın qorxduğu o idi ki, bizi də sürgün edərlər.

Anamın dediyinə görə, bacısının əri Əlibəyin heç bir var-dövləti yox idi, qayınatası ilə birgə yaşayırdı. Onları ancaq bəy nəslindən olduqları üçün sürgün etdilər.

1937-ci ilə kimi Əlibəyi bir dəfə də 1932-ci ildə tutub, bir neçə il Murmanskiyə sürgünə göndərmişdilər.

Xalam oğlu Aydının anadan olduğu ev keçmiş Pioner küçəsi 13-də, Naxçıvanın Bilan məhləsində yerləşirdi. Qonşularımız diş texniki Pənah Əlixanov, Abbas Əliyev (Səhiyyə nazirinin müavini), Mirismayıl Seyidov (ailənin ən yaxşı dostu), Kamil və Rauf Bektaşilər olmuşdur.

Ayrılıqdan sonra ilk dəfə Əminə xalam oğlu Aydın və qızı Foqiyə ilə 1949-cu ildə bəraət aldıqdan sonra Naxçıvana gəldi. Onların görüşünə Naxçıvan Muxtar Respublikasının müxtəlif yerlərindən evimizə gələnlə-

rin aradı-arası bir ay kəsilmədi. Aydıngil qayıdanda qardaşım Qeysi də özləri ilə Özbəkistana oxumağa apardılar. O, çox fərasətli olduğu üçün 2 ilə 4 sinfi qurtardı.

Bir neçə il sonra Əlibəy Naxçıvana gələndə isə daha gur qələbəlik olmuşdu. 1950-ci ildə biz: anam Həcər, mən Zərri və kiçik qardaşım Mehdi ilə birlikdə Cənubi Qazaxıstanın Paxta-Aral vilayətinin Slavyanka kəndinə, xalamgilə getdik. Qayıdanda qardaşım Qeysi də özümüzlə geriyə - Naxçıvana gətirdik. Bundan sonra isə get-gəl başladı. Demək olar ki, biz hər il görüşürdük.

Həm həmin vaxtlar və həm də sonralar Aydın haqqında çox gözəl xəbərlər almışıq: məktəbi medalla qurtarıb, Avtonəqliyyat İnstitutuna qəbul olub, oranı bitirdikdən sonra müxtəlif işlərdə çalışaraq, yüksək zirvələrə çatmışdır.

Tale belə gətirdi ki, xalamın bütün uşaqları sürgündə olsalar da, orada da azərbaycanlılarla ailə qurdular, o cümlədən Aydının bacılarının hamısı qürbət eldə də elə naxçıvanlılara ərə getdilər. Aydının böyük qızı Rufiyyə isə Cənubi Azərbaycandan sürgün edilən Hüseyn kişinin oğlu Həsənə ərə getdi. Yadıma gəlir ki, Slavyankada Laçını - Lida, Fəxriyyəni - Fenya, Foqiyəni - Olya çağırırdılar. Aydını isə elə Aydın çağırırdılar.

Yadıma gəlir və qardaşım Qeys də danışırdı ki, Aydın orta məktəbdə oxuyanda dəftərində öz adını belə yazardı - **A**$^4$. Bu, **A**zimbekov, **A**ydın, **A**libekoviç, **A**zerbaydjanetc demək idi

Həyatının bu gününə kimi o elə bu cür də qaldı: AZƏR-BAYCANLI.

Sovet, rus, fars, erməni hiylələri sonadək baş tutmadı. Azərbaycanlı Azər oğlu Aydın öz müdrik xalqının Azər adını bütün Orta Asiya Respublikalarında yüksəklərə qaldırdı, ləyaqətlə təmsil etdi. 19 il Özbəkistanın Avtomobil Nəqliyyatı sistemində işlədi, adi avtobaza mexanikliyindən Özbəkistanın Avtomobil Nəqliyyatı nazirinə kimi yüksəldi, 12 il Sırdərya vilayətində partiya işində işləyərək, Vilayət Partiya Komitəsinin katibliyinə qədər qalxdı, 10 il Özbəkistan Respublikasının Nazirlər Kabinetində məsul vəzifələrində çalışdı, 1996-cı ildən 2005-ci ilədək (təqaüdə çıxanadək) müstəqil Azərbaycanın həm Özbəkistanda, həm də bütün Mərkəzi Asiya Respublikalarında Fövqəladə və Səlahiyyətli səfiri oldu...

Aydın haqqında xatirələr çoxdur. Onlardan bir-ikisi indi xatirimə gəlir...1979-cu ildə məni və Şəfiqə Əliyevanı Naxçıvan MR-ın qabaqcıl müəllimləri kimi SSRİ müəllimlər qurultayına nümayəndə seçmişdilər, qatarla Moskvaya getdik. Çox maraqlı səfər idi. «Moskva» mehmanxanasında yaşayırdıq. Restoranda nahar edərkən bir də gördüm ki, bir nəfər bizim stola yaxınlaşıb, əyləşdi, əlini üzünə qoyub, diqqətlə üzümə baxıb, dedi: «Məni tanıyırsan?» Əlim üzümdə qaldı. Baxdım ki, Aydındır. Sonra həyat yoldaşı Rahilə xanım da bizə yaxınlaşdı, demə bizi o görübmüş. Məlum oldu ki, onlar sabah səhər təyyarə ilə Almaniyaya istirahətə gedirlər.

Aydın haqda mənim xatirələrim çox olsa da, sonda iki əsas amili xatırlamaq istərdim:

**Böyük Yaradan** belə istədi və tale elə gətirdi ki, tarix yenə təkrar oldu. Hər şey yenə öz yerini tutdu. Mənim böyük oğlum Samirlə Miri (Mirələkbər) müəllimin (onun atası rəhmətlik Mirmöhsünlə Aydının rəhmətlik atası Əlibəy dost olmuşdu) qızı Günay 1999-cu ildə ailə həyatı qurdular, iki övladları dünyaya gəldi. Bizim ailələr yenidən yaxınlaşdı...

Mən Aydını həmişə özümə qardaş bilmişəm, onunla həmişə fəxr etmişəm və indi də fəxr edirəm.

Həyatının bu müdriklik dövründə - 80 yaşında onu özüm və ailəm adından ürəkdən təbrik edir, ona həyatda qalmış arzularına da çatmasını arzulayıram.

**Çünki O, bütün bunlara layiqdir!**



***İlham Zamanov,***
*Azərbaycan Republikasının*
*Tacikistan Respublikasındakı*
*Səfirliyinin müşaviri*

# Böyük diplomatiya və həyat məktəbi

XX əsrin 90-cı illəri Sovet İttifaqının dağılması və post sovet məkanında yeni müstəqil dövlətlərin yaranması ilə müşaiyət olundu. Azərbaycan üçün isə bu, hələ 28 may 1928-ci ildə əldə edilmiş müstəqilliyin bərpası demək idi.

Bu tarixi dövr həm də vətəndaş qarşıdurması ilə yadda qaldı ki, bu da öz növbəsində o cümlədən Azərbaycanla Özbəkistan arasında mövcud olan çoxəsrlik dostluq əlaqələrinin pozulmasına səbəb oldu.

Məhz 1993-cü ildə Ümumilli Lider Heydər Əliyevin hakimiyyətə qayıtması ilə bu tarixi əlaqələr bərpa olunmağa başladı. Özbəkistanın çoxminli azərbay-

canlı ictimaiyyəti də ölkələrimiz arasında bu dostluq əlaqələrinin yenidən möhkəmlənməsini və inkişafını arzulayırdılar. Heydər Əliyevin və İslam Kərimovun şəxsi səyləri nəticəsində bu əlaqələr bərpa olunmağa başladı.

Aydın Əzimbəyovun Azərbaycan Respublikasının Özbəkistandakı Fövqəladə və Səlahiyyətli səfiri təyin edilməsi bu istiqamətdə qəbul edilən qərarlardan ən vacibi və ən müdriki idi.

Azərbaycanın bu şərəfli oğlunun çox çətin həyat yolu və ağır taleyi olmuşdur. Cəmi dörd yaşında o da bir çox günahsız azərbaycanlılar kimi valideynləri ilə repressiya qurbanına çevrilərək öz doğma vətənindən Mərkəzi Asiyaya sürgün edilmişdi. Qürbətdə yaşasa da əcdadlarının milli ruhunu qoruyub yaşada bilən bu gənc zəngin biliklərə yiyələnərək Vilayət Kommunist Partiyası Mərkəzi Komitəsinin Katibi, daha sonra Özbəkistanın nəqliyyat naziri kimi vəzifələrə qədər yüksələ bildi.

O, fəaliyyətinin mürəkkəb sovet dövrünə təsadüf edən illərində də öz tarixi köklərini unutmamışdı. O doğma vətənə bağlılığına xələl gətirmədən Özbəkistan Resnpublikasının çiçəklənməsi uğrunda özünün nöqsansız əməyi və fəaliyyəti ilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin də diqqətini cəlb etmişdi. Özbəkistanla Azərbaycan arasındakı siyasi münasibətlərin mürəkkəb olduğu dövrdə o, Özbəkistan Respublikasına Azərbaycanın Fovqəladə və Səlahiyyətli səfiri təyin edildi.

Xoşbəxtəm və fəxr edirəm ki Azərbaycanın Özbəkistandakı ilk diplomatik missiyasının yaradılnmasında mənə  Aydın Əlibəyoviç Əzimbəyov kimi müdrik, ağıllı və siyasi uzaqgörənliyə malik bir insanla birgə çalışmaq nəsib olmuşdur.

Konsulluğun rəhbəri kimi onun Özbəkistanın ərazisində yaşayan bütün azərbaycanlıları  bir məqsəd - dostluq və əmkdaşlığın möhkəmləndirilməsi, eləcə də qarşılıqlı səmərəli iqtisadi əlaqələrin genişləndirlməsi naminə  birləşmələrinə nail ola bilmək bacarığı məni heyrətləndirir və heyran edirdi.

Fəaliyyətə başlamasından keçən qısa bir müddət ərzində Azərbacanın Özbəkistandakı səfirliyi buradakı diplomatik missiyaların arasında artıq  öz layiqli yeini tuta bilmişdi. Bu ölkədə fəaliyyətdə olan  diplomatik korpusların başçılarının öz  aralarında söhbətləri zamanı onların bu ölkdə iki ən fəal səfirliyin - Azərbaycan və Amerika səfirliklərinin olmasını etiraf etdiklərini özüm eşitmişdim.

Bu sadəcə tərif deyildi, bu, səfir A.A. Əzimbəyovun qısa vaxt ərzində xalqlarımız arasındakı ikitərəfli münasibətlərin möhkəmləndirilməsi və inkişaf etdirilməsi, eləcə də  burada yaşayan bütün azərbaycanlıların konsolidasiyası, onların bütün hüquqi xarakterli məsələlərinin həll edilməsi və «Vətənim Azərbaycan, evim Özbəkistandır!» şüarı altında birləşmələri istiqamətində Prezident Heydər Əliyevin tövsiyyələri və göstərişlərinin həyata keçirilməsi  sahsindəki fəaliyyətinə verilən yüksək qiymət idi.

Bununla əlaqədar olaraq 1997-ci ilin yayında Azərbaycanın Özbəkistandakı səfirliyinin rəsmi dövlət səviyyəsində baş tutmuş açılışında hər iki dost ölkə prezidentinin - Heydər Əliyev və İslam Kərimovun da iştirak etməsi xalqlarımız arasındakı çoxəsrlik mədəni və dostluq əlaqələrinin bir daha ön plana çəkilərək işıqlandırılması, yuxarıda deyilənlərin təsdiqi və möhkəmləndirlməsi demək idi.

Prezident Heydər Əliyevin Özbəkistana rəsmi dövlət səfəri zamanı bir çox rəsmi tədbirlər həyata keçirildi, Özbəkistanın görkəmli dövlət və siyasət xadimi Şərəf Rəşidovun abidəsi önünə əklillər qoyuldu.

Bu tədbirlərin sırasında, Heydər Əlirza oğlu Əliyevin və İslam Əbdüqəniyeviç Kərimovun da iştirak etdikləri, Daşkənd Böyük Opera və Balet Teatrında görkəmli azərbaycan bəstəkarı Arif Məlikovun «Sevən ürəklərin poeması» baletinin nümayişinin təşkil edilməsində Azərbaycanın səfiri Aydın Əzimbəyovun rolunu xüsusi qeyd etmək lazımdır.

Bütün diplomatik missiyalarda vətəndaşların hüquq və maraqlarının qorunması konsulların vəzifə borcu hesab olunur, ancaq səfir Aydın Əzimbəyov azərbaycanlı vətəndaşların bu və ya digər problemlərinin həll edilməsində birbaşa özü iştirak edir, hər cür kömək edirdi və belə adamların sayı yüzlərlə idi.

Ölkənin əsas probleminin - bir vaxt sığınacaq verdiyimiz, rus çarının fərmanı ilə bizim əzəli torpaqlarımızda yerləşdirilmiş seperatçı erməni nyu-daşnakla-

rının yaratdığı Dağlıq Qarabağ probleminin məğzini və Ermənistanın Azərbaycana hərbi təcavüzünün nəticəsində torpaqlarımızın 20 faizdən artıq ərazisinin işğal altında saxlanmasını, burada yaşayan yerli əhalinin doğma yürd-yüvasından qaçqın-didərgin düşməsini, işıqlandıraraq, düşmənin iç üzünü, onun əsl simasını dünya ictimaiyyətinə çatdırmaq Səfir Aydın Əzimbəyovun və onun diplomatik fəaliyyətinin bir nömlrəli vəzifəsinə çevrilmişdi. Bununla əlaqədar olaraq Azərbaycan Respublikasının Özbəkistandakı səfirliyi tərəfindən rus və ingilis dillərində kitabçalar və broşürlər hazılandı, çoxsaylı təşviqat tədbirləri həyata keçirildi.

Aydın Əlibəyoviç təkcə diplomatik korpusdakı kolleqaları, Özbəkistan Respublikasının dövlət başçıları arasında deyil, həm də gənclər arasnda böyük hörmətə malik idi.

Hər il Novruz Bayramı vaxtı ölkənin ali məktəblərində təhsil alan azərbaycanlı tələbələr arasından əlaçıları bir yerə yığan, onları fəxri fərmanlarla təltif edən, hədiyyələr bağışlayan bu dünyagörmüş, müdrik insanın öyüd-nəsihətləri gənclər üçün böyük bir həyat məktəbi idi.

Əzimbəyovun diplomatik fəaliyyəti həmişə sadə vətəndaşlar tərəfindən böyük hörmətlə qarşılanırdı. Bu insan özünün bütün şüurlu həyatını dilindən, dinindən və millətindən asılı olmayaraq xalqa həsr edirdi. «Özünə qarşı hansı münasibəti görmək istəyirsənsə, başqa-

ları ilə də o cür davran» - bu Aydın Əzimbəyovun həyat leytmotivi idi.

Bu adamla təmasda olan hər bir kəsdə onun həyat məktəbini öyrənmək istəyi yaranırdı.

Azərbaycan xalqının dəyərli oğlu Heydər Əliyevin ideyalarını rəhbər tutan və azərbaycan və özbək xalqlarının milli maraqlarını ümumiləşdirən səfir Aydın Əzimbəyov Daşkənddə Azərbaycan mədəniyyəti mərkəzi yaratmaq istədi və yaratdı da. Bu mərkəz Özbəkistanın bütün azərbaycanlılarını öz gümbəzi alitına toplaya bildi.

Özbək və Azərbaycan xalqının tarixindən mədəniyyətindən və bilavasitə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin tövsiyyələrindən ilhamlanan Aydın Əzimbəyov xalqlarımızın pozulmaz dostluğunun təməlini təşkil edən dəyərləri vurğulayır, bu dostluğa yeni həyati çalarlar əlavə edirdi.

Hələ mən Daşkənddə işləyərkən Aydın Əzimbəyovun şəxsi dəstəyi ilə mənim rəsm əsərlərimdən ibarət fərdi sərgim təşkil olunmuşdu və bu əsərlər bu gun də Özbəkistanın Beynəlxalq Mədəniyyət Məprkəzində nümayiş olunmaqdadır.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin Özbəkistan Respublikasına səfəri Azərbaycan Respublikasının yeni səfirliyinin, Azərbaycan Mədəniyyəti Mərkəzinin açılması, Nizami Gəncəvi adına Dövlət Pedoqoji İnstivtunnun qarşısında dahi azərbaycan şairinin büstünün qoyulması və Daşkəndin mərkəzi

küçələrdən birinə Heydər Əliyevin adının verilməsi kimi çoxsaylı tədbirlərin keçirildiyi analoqu olmayan bir səfər kimi yaddaşlara yazıldı.

Bütün bu əlamətdar və yaddaqalan hadisələrin şahidi kimi həmişə tükənməz enerji mənbəyi, siyasi cəhətdən savadlı, əla diplomat olan bu insana heyrət etməkdən, heyran olmaqdan və həyat təcrübəsi əxz etməkdən yorulmadım.

Aydın Əibəyoviç Əzimbəyovun 80 illik yubileyi ərəfəsində Azərbaycan Respublikasının sadə bir vətəndaşı, adi bir diplomatı kimi ona çox uzun ömür, gənc azərbaycanlı diplomatların yetişməsi və mənim xalqımın naminə cansağlığı  arzulayıram.



***Qafur Əbdürəhmanov,***
*Həmkarı və sadiq dostu,*
*Özbəkistanın Azərbaycandakı*
*keçmiş Fövqəladə və Səlahiyyətli*
*Səfiri*

## İki xalqın ləyaqətli və sadiq oğlu

Mən bu heyrət doğuracaq qədər mülayim davranışlı (iş vaxtı isə çox ciddi olan), yüksək səviyyəli ziyalı, xeyirxah, səmimi və müdrik insanla 1992-ci ildə tanış olmuşam. Bu, Xarici İqtisadi Əlaqələr Nazirinin müavini kimi 650 mln. dollar məbləğində türk kreditinin realizasiyası üçün Türkiyəyə ezam olunduğum vaxt baş vermişdi. Kredit sənədlərinin doldurulması və konraktlaşdırmasından əlavə mən həm də çox böyük həcmdə malın Türkiyədən Özbəkistana nəql edilməsini də təşkil etməli idim.

Respublikanın rəhbərliyi tərəfindən bu yükün öz gücümüz hesabına daşınması qərara alınmışdı

və bunun üçün İstanbulda «İpək yolu» Nəqliyyat-Ekspedisiya Kompaniyası yaradılmışdı. Çox geniş çeşidli bu malları Aralıq, Mərmərə və Qara dəniz limanlarından müxtəlif tipli gəmilərlə yükləmək lazım idi. Bütün bu işlər hələ banklar arasında müxbir hesab münasibətləri olmayanda icra edildiyindən pul köçürmələrində problemlər mövcud olduğu bir vaxtda həyata keçirilirdi. Və bunun nəticəsi kimi gəmilərin fraxtalanması, yüklənməsi və boşaldılması, eləcə də sonradan vaqonlara vurulmasında çətinliklər ortaya çıxırdı. Üstəlik də Ukraynanın limanlarında tez-tez liman yükvuranlarının və dəmiryolu işçilərinin tətilləri baş verirdi. Məhz belə bir çətin vaxtda bu problemlərin aradan qaldırlımasına kömək məqsədi ilə Aydın Əzimbəyov ekspert qismində Türkiyəyə göndərilmişdi. O vaxta qədər mən onunla qiyabi tanış idim və onun nəqliyyat işində çox güclü mütəxəssis olduğunu bilirdim. Onu da bilirdim ki, əvvəllər Özbəkistan SSR-in Nəqliyyat Naziri olub, sonra müstəqillik illərində isə Özbəkistan Respublikasının Nazirlər Kabinetində Nəqliyyat şöbəsinə rəhbərlik etmişdir.

Birgə fəaliyyətimiz zamanı baş vermiş çox maraqlı və fikrimcə, taleyüklü bir epizod heç vaxt yadımdan çıxmır. Kredit üzrə malgöndərənlər arasında Türkiyənin məşhur «Qoç» firması xüsusi yer tuturdu. İş belə gətirdi ki, bizim İstanbulda olmaq vaxtımız həmin firmanın prezidentinin nəvəsinin bi-

zim də Aydın müəllimlə birlikdə fəxri qonaq kimi dəvət olunduğumuz toyu ilə eyni vaxta düşdü. Toy günü bizi mərasiminin keçirildiyi «Çırağan» sarayına gətirdilər və mərasim protokolunun tələbinə uyğun olaraq bizə smokinq geyindirdilər. Bu zaman otağımıza daxil olan fotoqraf bizim bir neçə şəklimizi çəkdi. Bu zamn Aydın müəllim üzünü mənə tutaraq, «***Sənə el gəlmirmi ki, biz indicə iki ölkənin səfiri kimi şəkil çəkdirdik?»*** dedi. Təbii ki, zaman keçdikcə bu söhbət də unuduldu. Sonradan - 1988-ci ildə Türkiyədəki beş illik səfir fəaliyyətimdən sonra mən Azərbaycana Özbəkistanın Fövqəladə və Səlahiyyəti səfiri təyin olundum. Yola düşməzdən qabaq mən Azərbaycanın Daşkənddəki Səfirliyinə - səfir Aydın Əzimbəyovun yanına dəvət olundum. Məni qarşılayan Aydın müəllimin əlində o vaxt «Çırağan sarayda çəkdirdiyimiz şəkilin iri masştabda böyüdülmüşünü görəndə məəttəl qaldım. O isə təntənəli surətdə xatırlatdı: «Yadındadır, o vaxt bu şəkli çəkdirəndə nə demişdim? Gəl bundan sonra mələklərin olmasına inanma! Demək, onlar o vaxt mənim sözlərimi eşidib, xeyir-dua veriblər ki, indi ikimiz də səfir olmuşuq».

O vaxtdan ta ki, fəaliyyətimizin sonuna qədər biz iki qardaş dövlətin səfiri kimi ölkələrimizin riafahı naminə sıx və məhsuldar əməkdaşlıq etdik. Hər sahədə olduğu kimi, diplomatiya sahəsinin də protokol xidmətində kələkötür məqamlar, müxtəlif xo-

şagəlməz anlar olur. Böyük həyat və iş təcrübəsinə malik olan Aydın müəllim hər zaman iti küncləri hamarlamağı, vəziyyətdən düzgün çıxış yolu tapmağı bacarırdı. Belə anlarda o, «Milçəyi şişirdib fil eləməyin», deyirdi. Etiraf etməliyəm ki, diplomatiya mənə nisbətən onda daha yaxşı alınırdı. Çünki, o, uzun illər Özbəkistanda yaşamışdı, yüksək vəzifələrdə çalışmışdı, böyük təcrübə əldə etmişdi, saysız-hesabsız dostlar, layiq olduğu hörmət-izzət qazanmışdı. Bütün bunlara onun şəxsi və işgüzarlıq keyfiyyətlərini də əlavə etsək bu fərqli şəxsiyyətin portretinin cizgilərini tamamlamış olarıq.

SSRİ dövründə Əzimbəyovun başçılıq etdiyi Özbəkistan SSR-in nəqliyyat sistemi nahaq yerə nümunəvi sayılmırdı. Onun fədakar əməyi dəfələrlə Özbəkistan hökuməti tərəfindən layiqincə qiymətləndirilmiş və o, dəfələrlə orden və medallarla təltif olunmuşdu.

Digər tərəfdən, Özbəkistandakı çoxillik həyatı və əmək fəaliyyəti onun səfir kimi işləməsində belə demək mümkünsə, bəzi «maneələr» yaradırdı. Belə ki, bütün keçmiş dostları, dövlət məmurları A.Əzibəyovu azərbaycanlı kimi yox, özbək kimi qəbul edirdilər.

İşin bu yerdə olması bəzən onu təbəssüm doğuran (protokol nonsensi) vəziyyətlərə salırdı. Məsələn, o, səfir etibarnaməsini Özbəkistan Prezidenti İslam Kərimova təqdim etməzdən bir gün qabaq

onun pasportunda Özbəkistan vətəndaşı olması qeyd edildiyi məlum olanda da belə olmuşdu.

Yəqin, Əzimbəyov kimi adamlar haqqında deyirlər ki, onun iki Vətəni var. Harada yaşamasından və hansı vəzifədə işləməsindən aslı olmayaraq Aydın Əzimbəyov həmişə azərbaycan və özbək xalqlarının ləyaqətli və sadiq oğlu olmuşdur.

Onun həyat və fəaliyyəti Azərbaycan və Özbəkistan qardaşlığının nümunəsi olmaqla, həm də xalqlarımızın tarixi birliyinin simvoludur.



***Hüseyn Hüseynov,***
*«Azəravtonəqliyyat»*
*Dövlət Konserninin*
*eks- prezidenti*

# Taleyimin yol göstərən ulduzu

Aydın Əlibəyovla 1968-ci ilin yanvarında tanış olmuşam. Həmin il mən orta məktəbi bitirirdim. Odur ki, qarşımda təhsilimi Sovet İttifaqının harasında və hansı şəhərində davam etdirmək kimi dilemma dayanmışdı. Tomsk şəhərində oxuyan böyük qardaşım mənim də bu şəhərdə ali məktəbə daxil olmağımı təkid edirdi.

Beləliklə, qış tətili zamanı mən əvvəlcə Tomskda oldum və bu yerlərin Azərbaycanla müqayisə olunmayacaq sərt Sibir şaxtasını gördükdən sonra təyyarə ilə Daşkəndə uçdum. Yanvar ayı olmasına baxmayaraq, Daşkəndin yaz havası, adamların pencəkdə gəzmələri məni təəccübləndirdi və mən başa düşdüm ki, axtardığım yer elə buradır.

Valideynlərimə Daşkənddə təhsil alacağımı bildirəndə Aydın Əlibəyoviçi doğma oğlu kimi çox istəyən anam fərəh hissi ilə mənə dedi ki: «Olsun oğlum, Aydını tap, o, sənə kömək edər, onu Özbəkistanın və Cənubi Qazaxstanın bütün nəqliyyatçıları tanıyırlar». Gəlib çıxdım Daşkəndə. Aydın müəllimin atası Əlibəy əminin yaşadığı, Daşkənddən 100 km aralıda yerləşən Çimkənd vilayətinin Paxta-Aral rayonunun Slavyanka kəndinə getmək üçün taksiyə oturdum. Sadəlövhlüyümdən və (cəmi 16 yaşım var idi) anamın sözünə inandığımdan arxayın-arxayın taksi sürücüsündən Aydın Əzimbəyovu tanıyıb-tanımadığını soruşdum. Əlbəttə ki, o, belə adam tanımadığını söylədi. Onda başa düşdüm ki, sorğu-sual eləmək hələ tezdi.

Slavyankaya getmək üçün avtobusa oturanda da sürücünün Aydın Əzimbəyovu tanıyıb-tanıması ilə maraqlandım. Sürücü cavab verdi ki, nəinki tanıyır, onun doğmaca bacısı ilə evləndiyindən üstəlik qohumluğu da çatır. Ertəsi gün Aydın Əlibəyovun bütün qohumlarına baş çəkdim. Axşam olanda isə onun özü ilə tanış oldum. Mən qarşımda, doğrudan da, çox gözəl, qamətli, sonradan mənə məlum olduğu kimi, həm də mərd və iti ağıl sahibi bir kişi gördüm.

O vaxtlar o, Özbəkistanın Sırdərya vilayətinin avtomobil trestinin rəhbəri işləyirdi. Bu xeyirxah baxışlı, gülümsər çöhrəli insanın üzündən onun dəqiq, tələbkar, öz işini yaxşı bilən, istedadlı, ağıllı və daxilən nizam-intizamlı bir adam olduğu bilinirdi.

Aydın Əzimbəyov həyatda mənim kumirim oldu. Onu tanıyandan sonra mən artıq bilirdim ki, kimi örnək hesab etmək, kimə oxşamaq lazımdır.

O, mənim planlarımla maraqlananda, onun kimi nəqliyyatçı olmaq istədiyimi bildirdim. Mənim seçimim xoşuna gəldi və o, mənə Daşkənd Politexnik İnstitutunun «Avtomobil nəqliyyatı» fakültəsinə daxil olmağı məsləhət gördü.

Beləliklə, məktəbi qurtadığım ilin yayında mən onun yanına gəldim və bundan sonra bütün həyatım boyu onun yanında oldum. İnstituta daxil olmaq üçün qəbul imtahanlarını verən zaman Aydın Əzimbəyov mənə mənəvi dayaq oldu. Sonradan təhsil prossesi zamanı da mən onunla təmasda olur, onun doğru və düzgün məsləhətlərindən faydalanırdım. İnstitutu bitirəndə isə Aydın müəllim mənə avtotrestdə, öz yanında işləməyi təklif etdi. Bu trestdə mən onunla yarım il bir yerdə işlədim, sonra onu Sırdərya vilayət Partiya Komitəsinə göndərdilər.

Təzə təyin olunmuş rəhbər onun yerini tutandan sonra mən onların arasında nə qədər böyük fərq olduğunu gördüm. Əzimbəyovun vaxtında trest arı pətəyinə oxşayırdı, hamı arı kimi işləyirdi, tapşırıqların icrasına adi addımlarla yox, qaça-qaça gedirdilər.

Yadımdadır, mənim işlədiyim yükdaşıma şöbəsinin rəisi keçmiş müharibə iştirakçısı Starovoytov idi. Hərdən çox içdiyinə görə işə çıxmazdı və bu zaman şöbənin bütün məsuliyyəti bizim, yəni şöbə işçilərinin

üzərinə düşərdü. Belə günlərin birində Aydın Əlibəyoviç baş mühəndisi yanına çağıraraq, ondan hansısa sənədləri istədi. Bütün şöbə bu sənədi axtarmaqla məşğul oldu və nəhayət, tapa bildik. Baş mühəndis onu təqdim edəndə məlum oldu ki, bu, tələb olunan sənəd deyil. Bu zaman o, məni yanına çağırıb, nəyi axtarmaq lazım olduğunu başa saldı, ancaq mən də əliboş qayıtdım. İşi belə görüb, o, özü şöbəyə gəldi və lazım olan kağızları tapa bildi. O, bizi buna görə cəzalandırmadı, əvəzində Starovoytovun «payına çox düşdü» ki, niyə işi bizə yaxşı öyrətməyib və hər şeyi bizdən gizli saxlayıb.

Trestdə kağız-kuğuzla işləmək məni bezdirdi və məni bilavasitə istehsalatla bağlı avtomüəssisəyə keçirilməyimi ondan xahiş etdim. Cavabında o, mənə elmlə ciddi məşğul olmağı, aspiranturaya daxil olmağı tövsiyə etdi.

Mən bunu o qədər də bərk arzulamasam da, onun sözündən çıxa bilmədim. İnstitutdan aspiranturaya göndəriş almaq üçün Daşkəndə gedəsi oldum. Ancaq institutun elmi işlər üzrə prorektoru Albert Baqdasarov (erməni) məni get-gələ salır, mənə göndəriş vermirdi. Görəndə ki aspiranturaya (Moskva Yol-Nəqliyyat İnstituna) daxil olmaq üçün sənəd verilməsi bu gün-sabah başa çatacaq, onda Aydın Əzimbəyovun yanına gələrək, bu Baqdasarovun nəsə mənə göndəriş vermək istəməməsi barədə ona danışmalı oldum. Bunu eşidən Aydın müəllim elə mənim yanımdaca

Moskvaya, həmin institutun iqtisadiyyat fakültəsinin kafedra müdiri Bronşteynə zəng vurdu. Lev Abramoviç: «Bir halda ki, bu oğlan sizin yetirmənizdir, heç bir göndərişə ehtiyac yoxdur, hesab edin ki, o, artıq bizim aspirantımızdır» - dedi. Az sonra mən Moskvaya gəldim və Bronşteynlə görüşdüm. Onun institutun aspirantura şöbəsinin rəisi N. Urekmenə ( o da erməni idi, ancaq ruslaşmışlarından) zəngindən sonra mənim sənədlərim qəbul olundu.

Bir müddətdən sonra qəbul imtahanları başladı. Mən ixtisas üzrə imtahana gələrək, dəhlizdə gözləməyə başladım. Oturmuşam dəhlizdə, görürəm ki, iddiaçıların hamısı bir-bir imtahana girirlər, məni isə çağıran yoxdur. Hamı dağılışandan sonra imtahan otağına girərək, niyə məni çağırmadıqlarını aydınlaşdırmaq istədim. Cavabında qəbul komissiyasının sədri: «Əzizim, sən burada neynirsən? Çıx get işinə-gücünə, sən çoxdan bütün imtahanları «əla» qiymətlə verib, qəbul olmuşsan!»-dedi. Deyəndə ki, axı mən heç bir imtahan verməmişəm, Lev Abramoviç cavab verdi ki: «Səni Aydın Əzimbəyov kimi adam tövsiyyə edibsə, deməli, bütün imtahanları «əla» bilirsən, odur ki, heç bir imtahana ehtiyac qalmayıb».

Bütün həyatım boyu da belə oldu. Dissertasiyamı müdafiə edəndən sonra Daşkənd Yol Nəqliyyat İnstitutunda işləyəndə də Aydın Əzimbəyovun adı məni, eləcə də mənim kimi yüzlərlə insanı müşayiət edirdi.

Aralarında azərbaycanlılar da olmaqla, bəlkə də, minlərlə cavan həmvətənlimiz bu adın köməyi ilə həyatda layiqli yer tutaraq, oxuya, işləyə və yaşaya bildi. Çünki Aydın Əlibəyoviç heç vaxt, heç kimdən öz köməyini əsirgəmirdi. Haçan bu adamladan soruşsaydın ki: «Aydın müəllim sənin nəyindir?» hamı eyni cavabı verərdi: «Dayımdır!». O, elə doğrudan öz qayğısı, canıyananlığı və çətin anda köməyə çatmağı ilə hamıya dayılıq edirdi. Milliyətindən asılı olmayaraq, heç kəsin dərdinə biganə qalmırdı. Əlbəttə, azərbaycanlı uşaqlara qarşı münasibətdə bu qayğı daha isti çalarlarla özünü göstərirdi. O, həmişə xalqımızın, millətimizin nümayəndələrini təhsilli, mədəni və düzgün yolda görmək istəyirdi.

Mən Aydın Əzimbəyov məktəbini keçdiyimə görə fəxr edirəm.

1985-ci ildə özümü istehsalatda sınamaq və bir növ öz elmi biliklərimi burada tətbiq etmək istədim. O zaman Aydın Əzimbəyov artıq Sırdərya vilayət Partiya Komitəsində Nəqliyyat, Rabitə və İnşaat üzrə katib işləyirdi. Bilirdim ki, mənim elm sahəsini ataraq, istehsalatla məşğul olmağımı istəmir. Odur ki, onun istirahətdə olduğu vaxtı münasib bilib, o vaxt Özbəkistanın Avtonəqliyyat naziri olan A.F.Qavrilovun yanına gəldim və istehsalatda işləmək istəyimi ona bildirdim. O da məni ölkənin ən ağır vilayətlərindən biri olan Cizak vilayətindəki avtonəqliyyatın istismarı üzrə ən iri və ən mürəkkəb bir müəssisəyə direktor müavini vəzifəsinə göndərdi.

Cizaka gələndən az sonra vilayət komitəsinin nəqliyyat sahəsi üzrə şöbə müdiri M.Narzıkulov məni yanına çağırtdırdı. Bir az söhbət edəndən sonra məni vilayət komitəsinin bu sahə üzrə katibi A.Sabircanovun yanına apardı və məni təqdim edərək, institutda çalışdığımı ona söylədi. O, mənə işimdə uğurlar arzuladı və getmək üçün qapıya yaxınlaşarkən geriyə dönüb: «Bəs o müəssisənin direktoru kimdir?» -deyə, soruşdu. Cavabında Narzıkulov bildirdi ki, hələlik oranın direktoru yoxdur. Təzə direktor sabah təyin olunacaq. Sabircanov bizi yenidən otağa qaytararaq, mənim sənədləimi bir daha diqqətlə nəzərdən keçirməyə başladı və az sonra başını qaldırıb: «Elə bu oğlanı direktor təyin edərsiniz!» -dedi. Mən etiraz etməyə başladım ki, mənim praktik təcrübəm yoxdur və s. O isə cavab vermək əvəzinə, məndən soruşdu, «Sən, Aydın Əzimbəyovla işləmişsən?» Mən, «Bəli» deyən kimi o, sözünə davam etdi: «Deməli, direktor işləyə bilərsən. Heç bir etiraz qəbul olunmur!».

1986-cı ildə Aydın Əzimbəyov Özbəkistanın Avtonəqliyyat naziri təyin edildi və mənə bir daha onun rəhbərliyi altında işləmək xoşbəxtliyi nəsib oldu.

1991-ci ildə Əzimbəyovun zəmanəti ilə məni Özbəkistanın Xarici İqtisadi Əlaqələr nazirliyi sisemində işə göndərdilər. Burada mən təkcə ölkənin beynəlxalq idxal-ixrac yüklərinin daşınması ilə deyil, həm də həmin vaxtda Nazirlər Kabinetinin Nəqliyyat şöbəsinin müdiri işləyən A.Əzimbəyovun rəhbərliyi altında artıq müs-

təqillik əldə etmiş Özbəkistan Respublikasının praktiki olaraq, sıfırdan başlayan müstəqil nəqliyyat siyasətini formalaşdırılması ilə məşğul olmalı idim.

1995-ci ildə Aydın Əlibəyoviç Əzimbəyov beş Orta Asiya respublikası üzrə Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiri təyin edildi.

1996-cı ildə səfirliyin işləri ilə əlaqədar Bakıya gəlmişdi. O, Aərbaycan prezidenti Heydər Əliyevin qəbulunda olduğu zaman o vaxtkı nəqliyyat konserninin rəhbəri təzəcə işdən çıxarılmışdı və Aydın Əzimbəyov söhbət əsnasında  bu vəzifəyə mənim namizədliyimi irəli sürmüşdü.

Cəmi iyirmi gündən sonra mən Azərbaycanda, prezident Heydər Əliyevin qəbulunda oldum və Azərbaycan Respublikası «Azəravtonəqliyyat» Dövlət Konserninin prezidenti təyin edildim.

Deyilənlərə yekun olaraq, onu demək istəyirəm ki, Aydın Əzimbəyov bütün ömrüm boyu mənim yol göstərən ulduzum olmuşdur.

**Bu ulduzun işığının heç vaxt azalmamasını arzu edirəm.**



***Şahin Məmmədxanoğlu***
*Azərbaycan Respublikasının*
*Qazaxıstan Respublikasındakı*
*Səfirliyinin müşaviri*

# Vətəndaş, dost, insan

Mənim Aydın müəllimlə (birgə işlədiyim müddət ərzində mən həmişə ona belə müraciət edirdim) ilk tanışlığım 2000-ci ilin oktyabr ayına təsadüf edir.

O zaman mən UNESCO üzrə Azərbaycan Milli Komissiyasının daimi katibliyində birinci katib vəzifəsində çalışırdım və məni 2001-ci ilin əvvəlində Daşkəndə ezam etməli idilər. Amma Azərbaycanın Daşkənd səfirliyindən cavab daxil olmadığı üçün məsələ bir qədər ləngiyirdi. 2000-ci ilin oktyabr ayında Hindistanda UNESCO çərçivə-

sində konfrans keçirilirdi və mən də oraya ezam olunmuşdum. Dehliyə yolumu da məhz Daşkənd üzərindən salmışdım ki, vəziyyəti öyrənim, dəqiqləşdirim. Xoşbəxtlikdən Aydın müəllim məni qəbul etdi, təxminən 20 dəqiqə söhbət etdik. Deyə bilmərəm ki, mən həmin vaxt ilk baxışdan onda xoş təəssürat oyada bilmişdim, ya yox. Mənim xaricdə çalışmaq təcrübəm yox idi, əvəz edəcəyim əməkdaşın da sahəsi məsuliyyətli olduğundan Aydın müəllim haqlı olaraq, digər sahədə təcrübə əldə etmək variantını daha uyğun hesab etmişdi (sonralar bu variant özünü tamamilə doğrultdu). Danışıqlar nəticəsində mənim Daşkəndə ezam olunmağım məsələsi həll olundu və 2001-ci ilin əvvəlindən səfirlikdə müvəqqəti olaraq, (I katib yeri boşalana qədər) mədəniyyət məsələləri üzrə III katib vəzifəsinə təyin olundum.

Aydın müəllim tələbkar olmaqla yanaşı, eyni zamanda hər əməkdaşa təşəbbüs irəli sürmək imkanı yaradırdı. Yadıma gəlir ki, 2001-ci ilin ortaları idi. Səmərqənddə III Beynəlxalq Musiqi Festivalı keçirilməli idi. Azərbaycandan gələcək nümayəndənin adı isə hələ məlum deyildi. Aydın müəllim mənim məşhur xanəndə, muğam ustadı Alim Qasımovla şəxsi tanışlığım olduğunu bilirdi. Ona görə də Alim Qasımovun iştirakı ilə bağlı təklifimi bəyəndi və bu məsələdə məni dəstəkləyəcəyini bildirdi. Sevinirəm

ki, o zaman Alim Qasımov da mənim xahişimi yerə salmadı və birbaşa Parisdən Daşkəndə gəldi...

Hər bir insanın hansısa bir yerdə işlədiyi müddət ərzində özünü təsdiq zamanı var. Hesab edirəm ki, ilk üç ay ərzində mən Aydın müəllimin etimadını qazana bildim və Aydın müəllim 2002-ci ilin yanvarında mənim I katib - konsul olmağıma böyük dəstək verdi. Deyərdim ki, məhz onun təkidi və qətiyyətli mövqeyi sayəsində konsulluq məsələləri mənə həvalə olundu. O, bu addımı ilə özünü yalnız səfir kimi göstərmədi, həm də nümayiş etdirdi ki, ən adi bir əməkdaşın da dostu və yoldaşıdır.

Amma bununla mənim üzərimə böyük yük qoymuş oldu. Mən həm konsul kimi orada yaşayan insanların etimadını qazanmalı, həm də Aydın müəllimin mənə olan inamını doğrultmalı idim. Buna nə qədər nail ola bildiyimi yalnız Aydın müəllim özü deyə bilər. Lakin mən xoşbəxtəm ki, indi də Aydın müəllimə zəng etdiyim zaman onun şən, nikbin danışığını eşidir və məndə belə bir nikbinlik yaranır ki, rəhbərlik etdiyi üç il yarım müddət ərzində o, məndən narazı qalmayıb.

Məlumdur ki, Aydın müəllim hələ 3-4 yaşında olduğu zaman ailəsi ilə birlikdə Naxçıvandan Qazaxıstana sürgün edilmişdir. Orada çox çətin, məşəqqətli günlərdən keçmiş, sınmamış, əyilməmişdir.

Hər zaman başı uca, alnı açıq, vicdanı təmiz olmuş, sıravi bir işçidən Özbəkistanın nəqliyyat naziri vəzifəsinə qədər ucalmışdır. 1996-cı ildə ulu öndərimiz Heydər Əliyev onu Azərbaycanın Özbəkistandakı səfiri vəzifəsinə təyin etmişdir. İşlədiyi müddət ərzində o, həmişə Özbəkistanda yaşayan azərbaycanlıları düşünmüş, onları ən müxtəlif səviyyələrdə dəstəkləmişdir.

Daşkənd şəhərində Azərbaycan Mədəniyyət Mərkəzi binasının inşası da məhz Aydın müəllimin layihəsi idi. 2001-2004-cü illər ərzində Azərbaycan Mədənyyət Mərkəzinin inşasında nə qədər zəhmət çəkdiyini, nə qədər əsəb gərginliyinin baş verdiyini isə bir Aydın müəllim bilir. Sonu bilinməyən danışıqlar, maliyyə vəsaitlərinin məhdudluğu, Azərbaycan diasporunun yekdil olmaması və bir sıra subyektiv səbəblər tikintinin tikintisini gecikdirirdi. Aydın müəllimin gərgin əməyinin, yorulmadan fəaliyyətnin nəticəsində məsələ müsbət həll edildi.

Bütün bu çətinliklərə baxmayaraq, 2004-cü ilin mart ayında Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin iştirakı ilə həmin binanın açılışı oldu və Azərbaycan Mədəniyyət Mərkəzinə ulu öndər Heydər Əliyevin adı verildi... Rəhmətlik ulu öndər Heydər Əliyev vəfat edərkən Mədəniyyət Mərkəzinin «Qız qalası» olan hissəsində bu münasibətlə mərasimlər də keçirildi. Binanın yerləşdiyi

küçə də Aydın müəllimin təkidli xahişlərindən sonra Heydər Əliyev küçəsi adlandırıldı. Xatırlatdığım bu hadisə göstərir ki, Aydın müəllim əsl vətəndaş, əsl dost olmaqla bərabər, həm də həmişə öz xalqını düşünən vətənpərvər bir insandır.

Bu qədər müsbət cəhətlərə xas olan insanın incə yumor hissinə malik olması isə deyərdim, ən gözəl məqamlardan biridir. Aydın müəllim mənim zarafatcıl olduğumu bilirdi və məni səfirliyin «ərköyün övladı» kimi qələmə verirdi və həmişə şən, gülməli vəziyyətlər yarananda mənə işarə edərək: «Əşşi, siz bununla bacara bilməzsiniz!» - deyirdi.

Aydın müəllimin böyüklüyü ondadır ki, hər insanı olduğu kimi qəbul edir və ona xarakterindəki müsbət cəhətlərə uyğun olaraq, hörmət edir, yanaşır.

Əgər mənə müraciət etsəydilər ki, Aydın müəllimi üç kəlmə ilə xarakrerizə edim, dərhal və düşünmədən deyərdim:

- ***Vətəndaş. Dost. İnsan.***



***Marat Əkbərov,***
*Şəki İpək Kombinatının keçmiş direktoru*

# İki çayın bir mənbəyi...

*(Aydın Əzimbəyov haqqında)*

Aydın Əzimbəyov görkəmli bir dövlət xadimi kimi xarici dövlət siyasəti sahəsində çox əhəmiyətli iz qoymuş, o cümlədən tamamilə haqlı olaraq, iki çayın bir mənbəyi adlandırılan iki qardaş xalqın - özbək və Azərbaycan xalqlarının arasında dostluq əlaqələrinin və mehriban münasibətlərin möhkəmlənməsində dəyərli rol oynamışdır.

Aydın Əzimbəyov uzun müddət, dəqiq desək, 1995-ci ildən 2004-cü ilə kimi Azərbaycanın Özbəkistandakı Fövqəladə və Səlahiyyətli səfiri kimi siyasi fəaliyyətlə məşğul olmuşdur. Həmin çətin keçid

dövrü illərində də Aydın Əlibəyoviç qardaş özbək xalqı ilə çiyin-çiyinə duraraq, onun kədərinə də, sevincinə də şərik olmuşdur.

Siyasi xadim olsa da, Aydın Əzimbəyov xalq təsərrüfatnın heç bir sahəsinə kənar müşahidəçi kimi yanaşmamışdır.

O, qardaş respublikalar arasında yaranmış ikitərfli dostluq əlaqələrindən bəhrələnərək, Azərbaycan ipəkçilik sahəsinin müasir və mükəmməl texnologiyalarla təchiz olunması işinə çox böyük əmək sərf etmişdir. Belə ki, onun birbaşa rəhbərliyi altında Azərbaycana bu yerlərin iqliminə uyğunlaşdırılmış ən yaxşı tut ağacı növləri gətirilmiş və bu iş üçün Özbəkistanın bu sahə üzrə ən yaxşı mütəxəssisləri cəlb edilmişdi.

Şəki İpək Kombinatının işi bərpa edilərək, yeniləşdirilmişdir. Baramaların açılması üçün investorlar tərəfindən Çin Xalq Respublikasından ən yeni texnoloji avadanlıqların gətirilməsi və quraşdırılması bu qəbildən olan, onun təşkil etdiyi işlərdən biridir ki, bu da nəticədə kombinatda hazır məhsulun yüksək keyfiyyətlə buraxılmasına nail ola bilinməsinə imkan yaratmışdı.



***Cəlil Nağıyev,***
*Bakı Asiya Universitetinin rektoru, Bakı Dövlət Universitetinin Dünya ədəbiyyatı kafedrasının müdiri, əməkdar müəllim, filologiya elmləri doktoru, professor*

## Aydının qürbət vətəni

Günlərin bir günü, yolumuz qardaş Özbəkistan diyarına düşmüşdü. Bu qədim türk diyarının paytaxtı Daşkənddə Azərbaycanla bağlı dövlət səviyyəsində bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulurdu. Əvvəla, möhtərəm Prezidentimiz İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti, UNESKO-nun xoşməramlı səfiri, millət vəkili, birinci xanım Mehriban Əliyevanın da qatıldığı bu tədbirlərdə xaricdə ilk dəfə olaraq Özbəkistanda yeni inşa edilmiş Azərbaycan Səfirliyinin binasının, Mədəniyyət Mərkəzinin, Nizami Gəncəvi adına Daşkənd

Pedaqoji Universitetinin qarşısında ucaldılmış Nizami Gəncəvinin, eləcə də, Azərbaycanın görkəmli dövlət və siyasi xadimi, Ulu öndər Heydər Əliyevin büstlərinin açılışı nəzərdə tutulmuşdu. Bu tədbirlər çərçivəsində Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetində dahi Azərbaycan şairi Nizami Gəncəviyə həsr olunmuş Özbəkistan və Azərbaycan alimlərinin iştirak etdiyi Beynəlxalq Elmi Konfrans da keçirilməli idi. Bu konfransda elmi məruzələrlə çıxış etmək üçün AMEA-nın Nizami adına Ədəbiyyat İnstitunun və Bakı Dövlət Universitetinin bir qrup əməkdaşı - şərqşünas alimlər, xalq şairi Nəbi Xəzri Daşkəndə ezam olunmuşdu. Mən də bu konfransda çıxış etmək üçün Daşkəndə getmişdim və bütün bu dövlət tədbirlərində iştirak etmək mənə də qismət oldu. Bu vaxt mən, tale rüzgarı tərəfindən 4-5 yaşlarından Cənubi Qazaxıstana atılmış, sonra Özbəkistanaa yaşamış, bütün ömrünü bu qardaş türk məmləkətində məskən salıb, çalışmış bir azərbaycanlı-həmvətənlimizlə, bu zaman Azərbaycanın Özbəkistanda Fövqəladə və Səlahiyyətli səfiri olan Aydın Əlibəy oğlu Əzimbəyovla tanış oldum. Əslən naxçıvanlı olan bu həmvətənlimiz bütün ömrü boyu əsasən Özbəkistanda yaşamasına baxmayaraq, öz milli şəxsiyyətini, soy-kökünü, əsl-

nəcabətini heç vaxt unutmamış, əksinə, daim onları qorumağa çalışmışdır. Təbiidir ki, dünyanın dörd tərəfində həmvətənlərimiz yaşayır, müxtəlif işlərdə işləyir, yaşadıqları ölkənin həyatı, adət-ənənələri ilə qaynayıb-qarışırlar. Əgər nəzərə alsaq ki, azərbaycanlılar daha çox milli mentallıqla bağlı olaraq, tarixi vətənlərinə, doğma el-obalarına həddindən artıq bağlı insanlardır, onların uzun müddət (hələ ömürlük qalmalarını demirəm), başqa - qərib bir ölkədə qalıb yaşaması çox çətindir. Hətta, bir neçə gün vətənindən uzaqda yaşayan hər bir azərbaycanlı, öz el-obası, doğma yurd-yuvası üçün darıxmağa başlayır. O da qala ki, bu günlər uzun illər ola, ömürlük ola. Bu gün mövcudluğuna həddindən artıq ehtiyacımız olan milli diasporumuzun bir sıra başqa xalqlarla müqayisədə zəif olmasının əsas səbəbini, elə bəlkə də bunda axtarmaq lazımdır.

Elə buna görə də, Ulu öndər Heydər Əliyevin xarici ölkələrdə Azərbaycan diasporunun inkişaf etdirilməsi, gücləndirilməsi barədə dəyərli, uzaqgörən tövsiyələri təsadüfi deyildi.

Aydın Əlibəy oğlu Əzimbəyov xarici ölkədə yaşayan, lakin ürəyi daim vətənlə birgə döyünən belə həmvətənlərimizdən biridir. Aydın Əzimbəyovun valideynləri də, digər minlərlə günahsız azər-

baycanlılar kimi, keçən yüzilin əvvələrində doğma el-obasından, vətənindən didərgin salınmış, sovet rejiminin qurbanlarından biri olmuş, mühacirət, sürgünlük həyatı yaşamışdır. Özbəkistanda yaşayan Aydın Əzimbəyov, bu mühitlə qaynayıb-qarışmış, yeni vətəninin layiqli vətəndaşı olmağa çalışmış və olmuşdur.

Əslinə qalsa, Özbəkistan Sibir deyil. O zaman kiminin taleyinə Sibir yazılmışdı (H.Cavid və neçə-neçə Azərbaycan ziyalısı), kiminə də Orta Asiya - Qazaxıstan, Qırğızıstan və ya Özbəkistan. Təsadüfi deyil ki, yeni özbək ədəbiyyatının klassiklərindən biri olan Məqsud Şeyxzadə də vaxtilə Özbəkistana sürgün edilmiş bir azərbaycanlı ailəsinin övladıdır. Keçən əsrin əvvəllərindən başlayaraq, Özbəkistan azərbaycanlıları arasında xüsusi bir ziyalı təbəqəsi formalaşmağa başlamış, bugünkü ifadə ilə desək, özünəməxsus bir diaspora formalaşmışdır. Aydın Əzimbəyov da bu ziyalı təbəqəsinin ən tipik, bəlkə də ən parlaq nümayəndələrindən biridir. Hələ lap gənc yaşlarında Özbəkistanın ictimai-siyasi həyatında fəal şəkildə iştirak edən Aydın Əzimbəyov, bu ölkədə böyük uğurlar qazanmış, parlaq bir həyat yaşamışdır. Bu dəyərli həmvətənlimizi bir qədər yaxından tanımaq üçün onun şərəfli və zən-

gin həyat yoluna ötəri də olsa nəzər salaq. Aydın Əzimbəyov kimdir? Yuxarıda qeyd etdiyim kimi, valideynləri doğma vətəndən Özbəkistana sürgün edilmiş, Aydın da hələ lap kiçik yaşlarından etibarən bu isti Orta Asiya ölkəsində, Əlişir Nəvainin, Əmir Teymurun vətənində yaşamışdır. O, orta və ali təhsilini burada almış, nəqliyyatçı mühəndis peşəsinə yiyələnmişdir. Əmək fəaliyyətinə sadə mexanik kimi başlayan bu ali savadlı gənc, öz zəhmətsevərliliyi, işinə məsuliyyətlə yanaşması, xüsusi qabiliyyəti, qeyri-adi istedadı və insani keyfiyyətləri sayəsində tezliklə inkişaf etmiş, ictimai-siyasi fəaliyyətini genişləndirmişdir. O, əmək fəaliyyətinə idarə rəisi vəzifəsindən başlayaraq, müxtəlif dövlət vəzifələrində çalışmış və 1974-cü ildə Sırdərya Vilayət partiya komitəsinə seçilmiş, bu komitənin sənayə və nəqliyyat şöbəsinin müdiri təyin edilmişdir. Bir qədər sonra isə o, Vilayətin sənaye, ticarət və nəqliyyat üzrə katibi seçilmişdir. Addım-addım yaşadığı respublikanın siyasi elitasının “olimpinə” yüksələn A.Ə.Əzimbəyov Özbəkistan Kommunist Partiyasının birinci katibi və məşhur yazıçı Şərəf Rəşidov, Özbəkistan Nazirlər Sovetinin sədrinin müavini, Dövlət Plan Komitəsini sədri Qüdrətulla Əhmədov, əmək qəhrəmanı, akademik Nazim

Xamrayev, görkəmli dövlət və partiya işçisi Rauf Əbdürrəhmanov, Özbəkistan Respublikası Xalq Nəzarəti Komitəsinin sədri Viktor Xaydurov Gülüstanda məsul vəzifədə işləyən, əslən azərbaycanlı, Aydın Əzimbəyomun yetirməsi Fikrət Quliyev kimi görkəmli şəxsiyyətlərlə bir yerdə, çiyin-çiyinə çalışmış, onların yaxın dostu olmuşdur.

Azərbacanın müstəqillik qazandığı ilk illərdə Özbəkistandan gələrək qısa müddətdə Gəncə şəhər İcra Hakimiyyətinin başçısı olan və tezliklə gəncəlilərin sevimlisinə çevrilən, o dövrdə respublikada hökm sürən xaosun ilk qurbanlarından biri olan Hacı Vaqif də Aydın Əzimbəyovun yaxın dostlarından olmuşdur.

Özbəkistan Milli Elmlər Akademiyasının və Rusiya Kənd Təsərrüfatı Elmləri Akademiyasının akademiki, texnika elmləri doktoru, professor N.R.Xamrayev deyir: ***"...Mən səmimi qəlbdən şadam ki, həyatımda Aydın Əlibəyoğlu kimi dostum var və illər bizim qarşılıqlı rəğbətlərimizə və xoş hisslərimizə təsir göstərə bilməmişdir".***

A.Ə.Əzimbəyovun işgüzarlığını, əmək qabiliyyətini və qeyri-adi istetadını nəzərə alaraq respublika rəhbərliyi onu Özbəkistan Respublikasının Avtomobil Nəqliyyatı naziri vəzifəsinə irəli çəkmişdir.

A.Ə.Əzimbəyovun insani və təşkilatçılıq keyfiyyətlərindən bəhs edən R.Q.Əbdürrəhmanov deyir: ***" ...Onu nadir hallarda kabinetdə tapmaq mümkün idi - o, daim sahələrdə - iş başında: inşaatçıların, fatehlərin, nəqliyyatçıların arasında olurdu. O, insanlarla bir rəhbər kimi deyil, sadə, inamlı tərzdə ünsiyyət qurur, onları dinləyə və eşidə bilirdi".***

Müstəqillik qazandıqdan sonra, Azərbaycanın bəzi burnunun ucundan uzağı görə bilməyən dırnaqarası siyasətçilərinin səriştəsiz fəaliyyətləri və yaxud fəaliyyətsizlikləri nəticəsində qardaş Özbəkistanla ölkəmizin münasibətləri demək olar ki, tam şəkildə pozulmağa başlamışdı. Yenidən hakimiyyətə gələn Ulu öndər Heydər Əliyevin qarşısında o zaman bir sıra çox çətin problemlərin həlli dayanırdı ki, bunlardan biri də bu iki qardaş dövlətin xoş münasibətlərini bərpa etmək idi.

Uzaqgörən Ümummilli lider Heydər Əliyev böyük siyasətçi səriştəsi ilə bu problemin də həll yolunu tapdı. Onun fikrincə, bu mürəkkəb missiyanı yalnız Özbəkistanda həm ictimaiyyət, həm də dövlət strukturlarında çox böyük hörməti və nüfuzu olan Aydın Əlibəy oğlu Əzimbəyov həyata keçirə bilərdi. Heydər Əliyev Aydın Əzimbəyovu Azər-

baycanın Özbəkistanda Fövqəladə və Səlahiyyətli səfiri vəzifəsinə təyin etdi. Prezidentin bu seçimi, bu etimadı tezliklə öz təsdiqini tapdı. Akademik N.R.Xamrayev yazır: ***“..Onun (Aydın Əlibəy oğlu Əzimbəyovun) təyinatı ilə Azərbaycan Respublikasının səfirliyi ən fəal iş qabiliyyətli səfirliklərdən birinə çevrilir”.***

Hətta, özbək ziyalıları deyirdilər ki, o dövrdə Özbəkistanda cəmi iki  səfirlik (Azərbaycan və ABŞ) fəaliyyət göstərirdi.

Aydın Əzimbəyovun Özbəkistanda səfir olduğu dövrdə Azərbaycan və özbək xalqları arasında ictimai, siyasi, mədəni əlaqələr daha da dərinləşmiş, millətlərimiz bir-birinə daha çox yaxınlaşmışdır. Aydın müəllim səfir kimi fəaliyyət göstərdiyi dövrdə Azərbaycan səfirliyinin yeni binasını, Mədəniyyət Mərkəzitnin binasını inşa etdirdi, (onun bir tərəfində Azərbaycanın-Bakının simvolu olan Qız qalasının kiçildilmiş forması da vardı) Nizami Gəncəvi adına Daşkənd Dövlət Universitetinin qarşısında dahi şairimizin və şəhərin mərkəzində Heydər Əliyevin heykəllərinin ucaldılmasına nail oldu. Mədəniyyət mərkəzi yerləşən küçəyə Ulu öndər Heydər Əliyevin adı verildi. Akademik N.R.Xamrayev bununla əlaqədar yazır: “***...Özbəkistan Respublikasının rəhbərliyi***

***ilə ən gözəl işgüzar və şəxsi münasibətləri olan Aydın Əlibəyoğlu səfirliyin yeni binasının, Azərbaycan Mədəniyyət mərkəzinin binasının tikintisi, eləcə də, görkəmli siyasi xadim Heydər Əlirza oğlu Əliyevin heykəlinin ucaldılması üçün yerlər və meydanlar seçilməsində o qədər də sadə olmayan məsələləri operativ surətdə həll etməyi bacardı".***

Özbək ziyalılıları da etiraf edirlər ki, ***"indi bu tikililər, Daşkənd şəhərinin ümummemarlıq strukturu ilə harmoniya təşkil edən çox gözəl komplekslərdəndir və təbii ki, onu daha da gözəlləşdirmişdir"***

Özbəkistanda Azərbaycan Mədəniyyət Mərkəzinin açılması, heç şübhəsiz ki, xüsusi əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, eyni soy-kökə malik olmağımıza baxmayaraq, hələ bu günə qədər Azərbaycan və özbək xalqları bir-birinin tarixi, mədəniyyəti, ədəbiyyatı haqında tam təsəvvürə malik deyil. Bu boşluğu aradan qaldırmaq üçün bu tipli mədəniyyət mərkəzlərinə böyük ehtiyac var. A.Ə.Əzimbəyovun təşəbbüsü ilə tikilən və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Respublikanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın, Fondun vitse-prezidenti

Leyla xanım Əliyevanın birbaşa iştirakı ilə açılan bu Mədəniyyət Mərkəzi Azərbaycan dilinin, adət-ənələrimizin, tariximizin, ədəbiyyatımızın Özbəkistanda daha yaxşı tanınmasına xidmət etmək üçün inşa edilmişdir.

Təsadüfi deyil ki, Azərbaycan və Özbəkistan Respublikaları arasında dostluq əlaqələrinin inkişaf etdirilməsi və dərinləşdirilməsində xidmətlərinə görə Özbəkistan rəhbərliyi Azərbaycanın səfiri A.Ə.Əzimbəyovu 2002-ci ildə 70 yaşı olarkən "Xalqlar Dostluğu" ordeni ilə mükafatlandırmışdır. Artıq Aydın Əzimbəyovun 80 yaşı tamam olmuşdur. Bu münasibətlə onu həm sırdəryalılır, həm naxçıvanlılar, ümumiyyətlə, onu yaxından tanıyan bütün özbəklər və azərbaycanlılar ürəkdən təbrik edir, ona möhkəm can sağlığı və gələcək məzmunlu həyatında uğurlar arzulayır.



***Surxay Əliyev,***
*hüquq elmləri namizədi,*
*Azərbaycan Respublikasının*
*Moldova Respublikasında*
*Səfirliyinin müşaviri*

## Canlı epopeya

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində işlədiyim müddət ərzində ölkəmizin Özbəkistan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri Aydın Əzimbəyov haqqında çoxlu ürəkaçan və xoş sözlər eşitmişdim.

Bilirdim ki, atası Əlibəy 30-cu illərin əvvəllərində Stalin rejiminin qurbanı olmuş və Orta Asiyaya (indi Mərkəzi Asiya adlanır) sürgün edilmişdir. Çox keçməmiş anası və bacıları da repressiya qurbanı olaraq, ora «yatab» olunurlar və beləliklə, bütün Əzimbəyovlar ailəsinin Orta Asiyayda sürgünlük həyatı başlayır. Əzimbəyovlar ailəsinin sürgünlük epo-

peyası ilə bağlı bir hadisə heç vaxt yadımdan çıxmır.

... Gecə-gündüz yol gedən, günahsız insanlarla ağzına qədər dolu eşalon qısamüddətli dayanır. Su gətirməyə göndərilən bir nəfərdən onun balaları üçün də su gətirməyi xahiş edən ana, həmin adamın geriyə əliboş qayıtdığını görəndə təəccüblənir. Sözsüz, sualına: «Qoy uşaqların üçün suyu öz ərin Əlibəy gətirsin!» -cavabını eşidir. Həyat yoldaşı neçə il əvvəl sürgün olunmuş və xəbərsiz-ətərsiz itkin düşmüş köməksiz ana kiçik Aydına və qızlarına suyu haradan tapacağı barədə düşünən zaman Əlibəy qəfildən əlində su dolu çaydan vaqona daxil olur.

Beləliklə, müxtəlif vaxtlarda sürgünə göndərilmiş ailə üzvləri taleyin hökmü ilə baş verən bir möcüzə nəticəsində qovuşaraq, yenidən birləşmiş olurlar.

Sürgün həyatında Aydın müəllim ali təhsil alır, Özbəkistanın yüksək dövlət orqanlarında rəhbər vəzifələrdə çalışır. Hələ Sovet dövründə, - o, SSRİ Nazirlər Soveti sədrinin I müavini işləyərkən - 80-cı illərin ortalarında Özbəkistanın Nəqliyyat naziri vəzifəsində çalışanda, müəllifi olduğu «Nəqliyyat dəhlizi» layihəsi Azərbaycanın ümummilli lideri Heydər Əliyev tərəfindən də bəyənilir. Aydın müəllimlə ilk tanışlığım 90-cı illərin sonlarında tele-

fon vasitəsi ilə olmuşdu. Mərkəzi Asiyada yeganə Azərbaycan Səfirliyi Özbəkistanda səfir Aydın Əzimbəyovun rəhbərliyi ilə fəaliyyət göstərirdi. Mənə o vaxtlar Türkdilli Dövlət Başçılarının Qazaxıstanda keçiriləcək Sammitinin hazırlanması tapşırılmışdı. Aydın müəllim hazırlıq işlərinin gedişi ilə maraqlandı. Mən də ona Sammit haqqında geniş məlumat verdim. Bu zaman heç fikirləşmirdim ki, bir neçə ildən sonra onun rəhbərliyi altında çalışacağam.

2001-ci ilin iyun ayında məni Azərbaycanın Özbəkistandakı Səfirliyinə birinci katib vəzifəsinə təyin etdilər (o zaman Xarici İşlər naziri Vilayət Quliyev idi). Ezamiyyət müddətim hələ başlamamış Aydın müəllim Bakıya səfərə gəlmişdi. O vaxta qədər biz artıq Bakıda, bir sıra xeyir-şər məclislərində üz-üzə görüşmüşdük. Nazirlikdə isə ayaqüstü rastlaşdıq. O, mənim işlərimlə maraqlandı və onda başa düşdü ki, Özbəkistana təyin olunan yeni işçi mənəm. Aydın müəllim üzr istəyərək, nazirin qəbul otağına getdi. Bir neçə dəqiqədən sonra qayıdaraq, mənə «Gedin, yeni əmrinizi alın!» -dedi və Daşkəndə yola düşdü. Həqiqətən, bir neçə dəqiqədən sonra Azərbaycanın Özbəkistandakı Səfirliyinə müşavir vəzifəsinə təyin olunmağım barədə yeni əmrin surətini mənə verdilər.

Aydın müəllim ilə üç ildən artıq birgə işlədiyim müddətdə onun sözün əsl mənasında nə qədər böyük ürək sahibi olduğuna bələd oldum. Onun qayğıkeş insan və rəhbər, gözəl valideyn və ağsaqqal olmasını bir daha öz gözlərimlə gördüm.

Təbiətcə yaradıcı xüsusiyyətlərə malik olan Aydın müəllim səfir olduğu müddətdə Daşkənd şəhərində Azərbaycan Səfirliyinin özəl və gözəl binasını tikmişdir. Aydın müəllim Daşkənd şəhərinin mərkəzində, Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetinin önündə bu dahi Azərbaycan şairi və filosofunun əzəmətli büstünün qoyulmasına və Azərbaycan Mədəniyyət Mərkəzinin tikilməsinə də nail olmuşdur.

Hər üç obyektin qırmızı lenti Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 2004-cü ilin mart ayında Özbəkistan Respublikasına rəsmi dövlət səfəri zamanı kəsilmişdir.

Ən yaddaqalan hadisələrdən biri də Aydın müəllimin Daşkənddəki evimizdə mərhum anam Həbibə xanımla dialoqudur. O vaxtlar anam tez-tez təyyarə ilə övladları və nəvələrinin yaşadığı Moskva və Tümen şəhərlərinə, oradan da Daşkəndə gələrdi. Evimizdə qonaq olan Aydın müəllim zarafatla anama təklif etdi ki, bəlkə, səni kosmosa göndərək? Anam da ona cavab olaraq, gülə-gülə «Lazım olsa,  kosmosa da uçmağa hazıram».

Bir sıra dövlət mükafatlarına layiq görülmüş Aydın müəllimə mən də öz növbəmdə «Əsl qayğıkeş insan və vətənpərvər» mükafatını verərdim. Dörd yaş yarımlıqda sürgün həyatına başlamış, ömür boyu qazaxların, özbəklərin və rusların arasında yaşayan bu dahi insan bütün həyatı boyu Azərbaycan dilinin Naxçıvan ləhcəsində danışmış, onu unutmamış, xalqını sevmiş və ona layiqli övlad kimi xidmət etmişdir.

Elə bu səbəbdən Aydın Əlibəy oğlu Əzimbəyovun qarşısında baş əyib, təşəkkür edir, ona möhkəm cansağlığı və üzün ömür arzu edirəm.

***Kişinev şəhəri,***
***30 mart 2012-ci il***



***Faiq Ağayev,***
*tibb elmləri doktoru,*
*professor*

## Bəşəriyyətin adamı

Mən Aydın Əzimbəyovla 2005-ci ildə o, uzun illər Daşkənddə yüksək dövlət vəzifələrində çalışdıqdan, son 10 il ərzində isə ölkəmizin Özbəkistandakı səfiri işlədikdən sonra doğma Azərbaycana qayıdanda tanış olmuşam.

Bu tanışlıq həmin ilin sentyabr ayında, təsadüfən Aydınla eyni vaxtda Xəzər sahilində yerləşən istirahət evində olanda baş verdi.

O, yaşına görə çox cavan və gümrah görünürdü. Elə birinci gün dənizdə çox uzağa üzməsi ilə xilasedicilərin və istirahət evininin işçilərinin həyəcan keçirməsinə səbəb olmuşdu. Onda ilk baxışdan çox ciddi və qaraqabaq adam təsiri bağışlayan Aydın heç nə

olmamış kimi sakitcə duş qəbul etdikdən sonra, «Əvvəllər bundan da soyuq vaxtlarda mən o boyda Amuderyanı neçə dəfə o tərəf-bu tərəfə üzərdim»-dedi.

O gündən sonra burada istirahət edənlərdə də, xidmət personalında da ona qarşı xüsusi hörmət yarandı. Biz isə iki həftə ərzində hər gün dənizdə birgə üzdükdən, maraqlı söhbətlərdən və bir yerdə tayı-bərabəri olmayan Xəzər balığının dadına baxdıqdan sonra ayrılmaz dostlara çevrildik. Birgə olduğumuz günlər bir an kimi ötüb keçdi.

O vaxtdan bəri mənim bu maraqlı insanla hər görüşüm bir bayrama çevrilir. Əhval-ruhiyyəmin necə olmasından, hansı çətinliklərin, həyati problemin məni narahat etməsindən asılı olmayaraq, onunla görüşdən sonra elə bilirəm ki, yer üzü cənnətdir.

Aydın harada olur-olsun, müxtəlif yaşlarda olan insanlar mütləq onun ətrafına toplaşır, çünki o, hamı üçün maraqlı insandır. Aydın müəllim keçdiyi çətin həyat yolundan, repressiya vaxtı hələ körpə ikən ailəsi ilə birlikdə sürgünə - uzaq, yad, ac və soyuq, insan nəfəsi duyulmayan yerlərə göndərilmələrindən, ailəsinin üzləşdiyi məhrumiyyətlərdən, çox ağır keçən uşaqlıq illərindən böyük məhəbbətlə söz açır. Təbiətində olan istedada və əməksevərliyinə görə o, sadə özbəkistanlıların sevgisini və hörmətini qazana bilmiş, layiq olduğu yüksək vəzifələrdə çalışmışdır. Mən məhz onun sayəsində özbək xalqı və onun qədim tarixi haqqında çoxlu maraqlı şeylər öyrənə bilmişəm.

Məncə, Özbəkistanda elə bir azərbaycanlı tapılmaz ki, onun hörmətəlayiq bir insan olduğunu eşitməmiş olsun, yaxud onu şəxsən tanımasın. Harada, haçan onun adı çəkilirsə, hamı bir səslə: «O, adı böyük hərflərlə yazılmalı insandır!» - deyir və belə də fikirləşir.

Adamda belə bir təəssürat yaranır ki, o, həmişə və hər yerdə insanlarla dil tapmağı, onlarla yola getməyi bacarmışdır, elə buna görə də yaşından asılı olmayaraq, adamlar həmişə ona tərəf can atırlar. Böyük həyat təcrübəsinə malik olan bu insan həmişə adamların səsini eşitməyi və onları dinləməyi bacarır. Elə buna görə də hamı - çoxsaylı dostları, tanışları, qohum-əqrəbası həmişə məsləhət, kömək üçün, bəzən də, sadəcə, öz dərdini-sərini bölüşmək üçün onun yanına gəlir. O, əsl diplomat kimi bunu çox ustalıqla edir, «iti küncləri sığallayır», həll edilməsi mümkün olmayan problemlərdən adamların çıxış yolu tapmalarına kömək edəcək lazımi istiqaməti göstərməyi bacarır.

Xidməti borcu ilə əlaqədar olaraq, o, bir çox ölkələrdə olmuş, çoxlu sayda müxtəlif insanlarla görüşməli olmuşdur.

Sadə insanlarla görüşlərindən də fərəhlə danışan Aydın Əzimbəyov özü kimi qonaqpərvər və xeyirxah həmyerlilərini də unutmur.

Harada, hansı ölkədə olmasından asılı olmayaraq, hər yerdə onu öz doğmaları kimi qəbul edirlər.

Mən Aydın Əzimbəyovu «Dünyanın səfiri», yaxud «Bəşəriyyətin adamı» adlandırardım!



***Mirələkbər Mirmöhsün oğlu Seyidov (Miri)***

## «Azərbaycanlı» adını ləyaqətlə təmsil edən insan

Mən Aydın müəllimi 1999-cu ilə kimi yaxından tanımamışam.

Yaz ayları olardı...

Azərbaycan KP MK-nin İnzibati Orqanlar Şöbəsinin keçmiş müdiri Sabir Hüseynovla birgə müğənni Zaur Rzayevin yeni açılacaq kafesinə gəlmişdik. Hələ içəriyə daxil olmamış, həyətdə Sabir müəllim bizi tanış etdi və dedi: «Yaxından bir-birinizi tanımağa çalışın, deyəsən, qohum çıxacaqsınız». Hər şey o deyən kimi də oldu. Biz,

doğrudan da, yenicə qohum olmuşduq, mənim böyük qızım Günayla Aydın müəllimin xalası nəvəsi Samir (Zərri [Nəsibə] müəllimənin oğlu) yenicə ailə həyatı qurmuşdu. Söhbətdən eyni zamanda məlum oldu ki, mənim atam papaqçı Mirmöhsünlə Aydın müəllimin atası Əlibəy yaxın dost olublar və atam 1959-cu ildə vəfat edənədək bu dostluq davam edib...

Mən Daşkənddə SSRİ dövründə bir neçə dəfə olmuşdum. Lakin mənim Özbəkistanla əsl tanışlığım 1999-cu ilin sonundan başladı və əsasən, Aydın müəllimin sayəsində oldu. Onunköməkliyi və dəstəyi ilə Özbəkistanda bir çox önəmli biznes proyektləri həyata keçirə bildim: Fərqanə NPZ-nin yağ sexinin çalışması üçün lazımi kimyəvi maddələri Dubaydan alaraq, zavoda verdim, istehsalın normal vəziyyətə düşməsini təmin etdim və eyni zamanda, həmin yağdan böyük miqdarda Türkiyəyə göndərilməsinə nail oldum. 2003-2004-cü illərdə Azərbaycanda taxıl qıtlığı olarkən Özbəkistandan Vətənə 10 min tonlarla taxıl göndərdim. Azərbaycanın toyuqçuluq sənayesinə böyük miqdarda soya göndərilməsini təmin etdim və s.

Bizneslə əlaqəli bütün bu işlər, həm də mənəviyyatla bağlı məsələlərin həllinə kömək etdi.

Hər iki yöndə işlər gördüm və çoxlu önəmli insanlarla tanış oldum. Bunların içərisində tikintisi 2000-ci ildən başlayaraq, 2003-cü ildə başa çatan Daşkəndin azərbaycanlıların çox yaşadığı Tezikovka deyilən məhəlləsində tikilən «Azərbaycan Evi» Mədəniyyət Mərkəzini xatırlamaq xüsusilə yerinə düşərdi... 2000-ci ilin yayında biz Aydın müəllimlə səhər tezdən birgə evdən çıxarkən (o vaxtlar çox vaxt o məni öz evində saxlayardı, başqa yerdə qalmağa qoymazdı) mənə dedi: «Bu gün nahardan sonra yerli diasporanın nümayəndələrini səfirliyə dəvət etmişəm, sən də gəl». Deyilən vaxt, əvvəllər Rayon İctimai Təminat şöbəsi yerləşən səfirlik binasında 10-15 nəfər yerli azərbaycanlılar və 2-3 nəfər də səfirliyin işçiləri yığışmışdılar. İclası Aydın müəllim açaraq, səfirliyin işçisi İsmayıl Rüstəm oğlu Məmmədovdan soruşdu ki, bizim «Azərbaycan Evi» Mədəniyyət Mərkəzi ilə əlaqəli nə qədər vəsait yığışıb, məlum oldu ki, 500 dollardan da az vəsait vardır. Aydın müəllim iştirakçılara müraciət edərək, dedi: «Nə düşünürsünüz, imkanınız varmı, bu məsələlərə kömək edəsiniz? Axı bu mərkəz, həm bizim millətimizi burada tanıtdıracaq, həm balalarımızın öz dilini unutmamasına kömək edəcək, mədəniyyətimizi yaşadacaq və bizi

birləşdirəcək. Binanın bir tərəfindən də mərasimlər keçirmək üçün istifadə edəcəyik. Layihə-smeta sənədlərini hazırlamışıq, bir neçə ildir ki, hazırdır. Bu məsələ yerli təşkilatlarla rəsmən razılaşdırılıb, torpaq sahəsi də ayrılıb».

Dəvət olunanların əsasən, susmağa üstünlük verdiyini görüb, mən söz aldım və dedim ki, gəlin əl-ələ verib, bu məqsədlə Aydın müəllimin ətrafında birləşək, imkanımız daxilində bu məsələdə kömək etməyə çalışaq. Cibimdən 1000 dollar da pul çıxarıb, İsmayıla verdim və dedim ki, gələcəkdə də imkan düşdükcə kömək etməyə çalışacağıq. (Mən bu haqda Azərbaycandakı biznes partnyorum olan kürəkənim Səmədlə də razılaşdım və bu işlər bizim tərəfdən müntəzəm surətdə 2004-cü ildə Aydın müəllim təqaüdə çıxanadək davam etdi). Mənim ardımca iştirakçıların bir qismi elə oradaca imkanları daxilində öz yardımlarını etdilər, bir qismi isə sonradan bu işə qoşuldular.

Aydın müəllim də öz növbəsində bu işləri elə qura bildi, azərbaycanlıları bu məqsəd ətrafında elə birləşdirə bildi ki, hər bir azərbaycanlı bu məsələnin önəmini başa düşdü, hər kəs bu işi özünə bir vəzifə kimi qəbul etdi. O vaxtlar mən də bir müddət Daşkənddə, Kifayət xanımın Tezikov-

kadakı evində kirayədə qalırdım. İmkan olduqca tikintidə olur, yeni-yeni insanlarla təmas qurur, işlərin sürətlə qabağa getməsini görüb, fərəhlənirdim. Kimi texnika ilə (Naxçıvanlı Vasif), kimi tikinti materialı ilə, kimi  maddi vəsaitlə (Süleyman müəllim, Akif Ağatalıbov, Paşa müəllim, Kamal, Mobil, Hüseyn Hüseynov, Bəxtiyar, Kamil, Həmid və İbrahim Vəliyevlər və s.), kimlərsə, sadəcə, fəhləliklə, bəziləri işləyənlərə yemək bişirməklə və ya çay paylamaqla, kimisi öz avtomobili ilə lazım olan yerə gedib-gəlməklə və işləri koordinasiya etməklə (Famil Bağırov və İsmayıl Məmmədov) məşğul olurdu. (Kimlərisə tanımadığıma, görmədiyimə, və ya unutduğuma görə adlarını çəkmədimsə məni bağışlasınlar...).

İnsanlarda elə ruh yüksəkliyi yaranmışdı ki, hamı bir-birinə can deyib, can eşidirdi, mehribançılıq ən yüksək insani dəyərlər səviyyəsinə yüksəlmişdi. Hisslə qavranılan, gözlə görünməyən bir çox şeyləri özüm üçün kəşf etməyə başlayırdım. Burada cani dildən çalışanların bir qismi 1930-cu illərin repressiya dövründə Azərbaycandan məcburi surətdə köçürülənlər və ya onların törəmələri idi. Onlara qoşulan özbək dostları da cani dildən çalışırdılar. Bu faciədən keçən on illər ərzində onlar

həmişə vətən, torpaq, bir də ana dilində danışmaq həsrəti çəkmiş, milli-mənəvi dəyərlərimizi qan yaddaşlarında, zəkalarda saxlamışdılar. Vətəndən uzaq olsalar da, ürəkləri həmişə Azərbaycan üçün döyünürdü. Onlar özlərini elə xoşbəxt, elə rahat hiss edirdilər və bir-birləri ilə elə mehriban davranırdılar ki, bunu görüb, hiss etməmək mümkün deyildi. İndi bunları xatırladıqca o vaxtlar özümün də onlar kimi xoş anlar yaşamağım, sevindiyim yadıma düşür, xoş hisslər, duyğular keçirirəm.

İllər keçdi... Bir gün Aydın müəllim mənə (rus dilində) təxminən belə bir söz dedi: ***«Mən həmişə düşünürdüm ki, necə oldu ki, mən o cür böyük bir işin - tikintinin öhdəsindən gələ bildim, bu zaman yadıma düşür ki, sən 2000-ci ildə səfirlikdəki görüşdə ürəkdən gələn xoş niyyətlə, həm də bir seyid kimi ilk köməyi etmişsən»...***

Mən isə indiyə kimi də düşünürəm ki, Aydın müəllim hansı sözləri, hansı üsulları, dili tapıb insanlarla danışa bilirdi ki, özbəklər də bizim azərbaycanlılarla əl-ələ verib, işə ürəkdən köməklik edirdilər. Bu böyük işi məhz bu həmrəyliyin sayəsində başa çatdırmaq mümkün oldu. Onun mənim barəmdəki qənaətinə mütləq bunu da əlavə etmək istərdim ki, içərisində az-çox xoş niyyət

daşıyan bütün insanları Aydın müəllim öz xoş məramı ilə ətrafında birləşdirərək, (həm azərbaycanlıları, həm özbəkləri və digər xalqların nümayəndələrini) öz bacarığı və zəkasını ortaya qoydu, yaradıcılıq və təşkilatçılıq qabiliyyətini nümayiş etdirdi, həm də özünün də vətənindən sürgün edilməsini xatırlayaraq, vətənindən ayrı düşmüş didərgin azərbaycanlılarla eyni hissləri yaşadı və sonda ümumi dəyəri 600 min dollardan çox olan belə bir möhtəşəm obyekt - «Azərbaycan evi» meydana çıxdı. Aydın müəllim sonralar mənə danışmışdı ki, həmin mədəniyyət mərkəzinin tikintisində Özbəkistanda yaşayan azərbaycanlılardan başqa digər ölkələrdə yaşayan azərbaycanlılar və Azərbaycanın özündən də çoxlu vətənpərvər insanlar, onun dünyanın müxtəlif yerlərində yaşayan dostları, qohumları da iştirak etmişdilər: Xüsusilə, Abbas Aydın oğlu Abbasovu (Azərbaycan Respublikası Nazirlər kabineti sədrinin keçmiş birinci müavini) ayrıca qeyd etmək lazımdır. SSRİ dönəmində o, Özbəkistan CCP-in quşçuluq sənayesinə rəhbərlik edənlərdən biri olaraq, uzun müddət Özbəkistanda yaşamış və işləmişdi.

Hələ rəhmətlik ulu öndər H.Əliyevin sağlığında - 2002-ci ildə bina artıq hazır idi. Aydın müəllim

xatırlayırdı ki, mərkəzin onun adı ilə adlandırılmasını dəfələrlə H.Əliyevdən xahiş etsə də, o, buna razılıq verməmişdi... Həmin mədəniyyət mərkəzində kitabxana (azından 10000 kitab olmaqla), Azərbaycan dili kursları, milli musiqi dərnəkləri, rəqs dərnəyi, idman zalı, yaşlıların mədəni istirahət etməsi üçün, müxtəlif tədbirlərin keçirilməsi üçün yerlər və s. var idi. Binanın bir hissəsi isə azərbaycanlıların müxtəlif xeyir və şər mərasimlərinin keçirməsi üçün nəzərdə tutularaq, «Qız qalası» formasında inşa olunmuşdu və onun ayrıca girişi vardı.

2000-2002-ci illərdə tikinti dövründə və sonra mən dəfələrlə orada olurdum və yerli, yaşlı azərbaycanlıların istəyi ilə rus dilində Kraçkovskinin tərcüməsində kitabxanaya bir neçə nüsxə «Quran» bağışlamışdım. 2009-cu ildə orada olarkən yuxarıda göstərdiyim dərnəklərin heç birinin fəaliyyət göstərməməsini, kitabxanada kitabların çox az qaldığını, Krackovskinin tərcümə etdiyi «Quran»ın olmadığını görüb, təəccübləndim və azərbaycanlı tərcüməçi Elmir Quliyevin tərcüməsində (birbaşa ərəb dilindən rus dilinə) nəfis nəşr olunmuş «Quran»ı yenə hədiyyə etmək qərarına gəldim. Lakin kainatın buta formasını (yuxarıdan baxıldıqda) ifadə edən «Qız Qalası» hissəsinin sökülməsi və ar-

tıq mərasim üçün yerin olmaması məni təəccübləndirdi. Axı bu, həm də Azərbaycanın Özbəkistanda bir simvolu idi...

Aydın müəllim xatırlayır: ***«...2003-cü ilin dekabrında ulu öndərimiz H.Ə.Əliyev vəfat edərkən Özbəkistanın ali rəhbərliyi prezident İ.Ə.Kərimov başda olmaqla, bir qrup rəhbər işçilər Azərbaycanın Özbəkistandakı səfirliyini ziyarət edərək, H.Ə.Əliyevin vəfatı münasibəti ilə xalqımıza başsağlığı verdilər». Sonda İ.Ə.Kərimov mənə müraciət edərək, soruşdu: «Sizin yerli hökumətdən bir xahişiniz, arzunuz varmı?» Mən imkan olarsa, İ.Ə.Kərimovun məni qəbul etməsini rica etdim: İ.Ə.Kərimov elə oradaca yanındakılara göstəriş verdi ki, məni sabah saat 11-də onun qəbuluna yazsınlar. Üstündən bir saat keçməmişdi ki, mənə Özbəkistanın Xarici İşlər naziri zəng edərək, sabahkı qəbulda hansı məsələlərin müzakirə mövzusu olacağını soruşdu. Mən həmin məsələləri söylədim:***

***- Daşkənd şəhərində Azərbaycan Respublikasının səfirlik binasının açılışı;***

***- Daşkəndin azərbaycanlıların sıx yaşadığı Terikavka məhəlləsində «Azərbaycan evi» mədəniyyət mərkəzinin açılışı;***

*- «Azərbaycan evi» yerləşən küçəyə H.Ə.Əliyevin adının verilməsi;*

*- Həmin mərkəzin qarşısında H.Ə.Əliyevin (Azərbaycandan kənarda ilk) büstünün qoyulması;*

*- Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetinin qarşısındakı meydanda böyük Azərbaycan mütəfəkkiri və filosof-şairi Nizami Gəncəvinin büstünün qoyulması.*

*Az müddət keçmişdi ki, Nazir yenidən zəng edərək bütün məsələlərin prezident İ.Kərimova məruzə olunaraq, ondan müsbət cavab alındığını bildirdi və onu da qeyd etdi ki, Nizami Gəncəvinin büstünün qoyulması məsələsini isə Özbəkistan tərəfi öz üzərinə götürür. Bütün bu məsələlərin belə tez və operativ surətdə həlli məni çox sevindirdi və artıq Özbəkistan prezidenti İ.Kərimovun qəbuluna getməyə lüzum qalmadı».*

*İnsanlar var ki, onlar ölmürlər, onların ruhu və xoş əməlləri yaşayır. Uzun illər öncə bir özbək qadını həmin Nizami Gəncəvinin büstü qoyulacaq meydanda mənə yaxınlaşıb, meydandakı heykəli göstərərək, demişdi: «Niyə Nizami adına Pedaqoji Universitetin qarşısında*

***Nizaminin yox, başqa bir şəxsin heykəli qoyulmuşdur?» - haqlı sualının cavabı və onun həlli indi 2003-cü ilin dekabrında ümummilli liderimiz H.Ə.Əliyev vəfat etdikdən sonra öz məntiqi və layiqli həllini tapdı...»***

Qeyd etmək lazımdır ki, bu möhtəşəm tədbirlər Azərbaycan Respublikasının prezidenti İlham Əliyev, Azərbaycan Respublikası prezidentinin xanımı, H.Əliyev fondunun prezidenti Mehriban xanım Əliyeva, H.Əliyev fondunun 1-ci vitse-prezidenti Leyla xanım Əliyevanın iştirakı ilə baş tutdu.

Müstəqil Azərbaycan dövlətinin vəsaiti ilə tikilmiş ilk Azərbaycan Respublikası Səfirliyinin yeni binasının və həmin binada H.Ə.Əliyevin büstünün 2004-cü ilin mart ayında məhz Novruz (Zurvan) bayramında Özbəkistanın Daşkənd şəhərində Azərbaycan prezidenti İ.H.Əliyevin iştirakı ilə «Azərbaycan Evi», Mədəniyyət Mərkəzinin həmin mədəniyyət evinin qarşısında H.Ə.Əliyevin büstünün açılışı oldu. Azərbaycan mədəniyyət evinin yerləşdiyi küçəyə «H.Əliyev» adı verildi. N.Gəncəvi adına Daşkənd Pedaqoji Universitetinin qarşısında dahi Azərbaycan şairi N.Gəncəvinin büstü qoyuldu.

Aydın müəllimin razılığı ilə həmin tədbirlərdə iştirak etmək üçün xalq şairi Nəbi Xəzrini, akade-

mik Vasim Məmmədəliyevi, filologiya elmləri doktorları Elməddin Əlibəyzadəni və Cəlil Hağıyevi, ADU nəşriyyatının oedaktoru Məmməd Əlizadəni mən özümlə Daşkəndə apardım. Orada biz filologiya elmləri doktoru Vaqif Arzumanlı və AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru Teymur Kərimli, Özbəkistan EA-nın əməkdaşı filologiya elmləri doktoru Akif Azalp və digər ziyalılarla birlikdə həqiqətən möhtəşəm və tarixi tədbirlərdə iştirak etdik.

Şair, ədəbiyyatşünas, tərcüməçi, «Salam, dar ağacı!» şeirinin ilk müəllifi (bu şeir ilk dəfə onun tərəfindən 1986-cı ildə M.Qorbaçovun «yenidənqurması» dövründə Qdlyan və İvanovun Özbəkistanda törətdiyi azğınlıqlara qarşı özbək dilində yazılmışdı) Akif Azalp, qaldığımız «TA-TA» mehmanxanasına, Azərbaycanın Xalq şairi Nəbi Xəzrinin və digər alimlərin görüşünə gəldi.

Hazırda Akif Azalp, həm Azərbaycanda, həm də Özbəkistanda çalışır, özü dediyi kimi «bir ayağı burada, bir ayağı oradadır...»

Azərbaycanın Xalq şairi Nəbi Xəzri və Özbəkistanın Xalq şairi SSRİ Dövlət mükafatı laureatı Rəmz Babacanın çox istiqanlı görüşünün şahidi olduq. Onlar bir-birinin əsərlərini qarşılıqlı olaraq,

özbək və azərbaycan dillərinə tərcümə etmişdilər. Eyni zamanda, N.Xəzri R.Babacanın «Abu-Həyat» poemasını da azərbaycan dilinə tərcümə etmişdir...

Səfərimiz tək Daşkənd şəhəri ilə məhdudlaşmadı. N.Xəzrini Bakıya yola salıb, akademik Vasim Məmmədəliyev, elmlər doktorları, professorlar Elməddin Əlibəyzadə və Cəlil Nağıyev, Məmməd Əlizadə və mən rahat mikroavtobusla Səmərqəndə yollandıq. Yolüstü Əl-Buxarini də ziyarət etdik. Səmərqənddə, həm «Əfrasiyab» deyilən yerdə qədim türk oğuz abidələrini gəzdik, həm özbək ziyalıları, həm də yerli Azərbaycan diasporasının nümayəndələri ilə görüşlərimiz oldu. Alimlər buradakı görüşlərdə həm önəmli bilgilərini paylaşdılar, həm də gələcək elmi fəaliyyətləri üçün lazım olan əlavə materiallar əldə etdilər…

Aydın müəllimin sözü yadıma düşdü.....1996-cı ildə səfir təyin olunarkən rəsmi qəbul zamanı Özbəkistan Respublikasının prezidenti İ.Ə.Kərimov bu sözləri demişdi:

***«Для меня эта полная неожиданность, но приятная».*** *(«Bu mənim üçün tamamilə gözlənilməz olsa da, çox xoşdur» .- Red.)*

8 il sonra isə 2004-cü ildə Nizami Gəncəvinin büstünün açılışında isə o, belə dedi:

***«Эти мероприятия - еще одно подтвереждение исторической дружбы наших двух народов, моего глубокого уважения памяти Гейдара Алиевича Алиева и глубокого уважения нынешнему президенту Азербайджана Илхаму Алиеву, сыну выдающего Г.А.Алиева».***

Bu sözlər, həm də Aydın Əlibəy oğlu Əzimbəyov 1996-cı ildə səfir təyin olunarkən Ümummilli Lider Heydər Əliyev tərəfindən onun qarşısında qoyulmuş vəzifələrin icrasına verilən bir qiymət idi.

Tədbirlər Özbəkistan Respublikasının prezidenti İ.Kərimovun, Özbəkistan Nazirlər Kabinetinin sədri Ş.Mirziyayevin iştirakı ilə çox yüksək səviyyədə keçdi...

Səfir Aydın Əzimbəyovun həmin möhtəşəm obyektlərin tikintisində göstərdiyi xidmətləri barədə Özbəkistan Nazirlər Kabinetinin sədri Ş.Mirziyayevin Azərbaycan Respublikasının vəsaiti ilə xarici ölkədə tikilən ilk səfirliyinin binasının açılışında söylədiyi bu sözlər mənim yaddaşıma həkk oldu: «***Aydın Əzimbəyov iki xalqın oğludur. O, Azərbaycandan sürgün olunsa da, öz milli kim-***

***liyini saxladı, unutmadı, Özbəkistan üçün çox böyük işlər gördü, çoxlu möhtəşəm proyektlərin həm müəllifi, həm də, sadəcə, icraçısı oldu, özbək xalqı içərisində çox böyük hörmət qazandı, qazandıqları ona haqq verdi ki, bütün bu obyektlərin tikintisində və başa gəlməsində özbək mütəxəssislərini də çox vaxt, sadəcə, yalnız özünün şəxsi hörməti və etdikləri sayəsində onları dostyana işləməyə cəlb edə bildi***».

Burada bir haşiyə çıxaraq, mənim özbək biznes partiyorum N.K.Usmanovun evində (2007-ci il) olarkən Özbəkistanın keçmiş Neft Qaz Korporasiyasının sədri H.X.Xakulovun dediyi sözlər yadıma düşür: ***«...Əgər hər bir özbək Özbəkistan üçün A.Əzimbəyov etdiyi qədər etsəydi, Özbəkistan çoxdan cənnətə dönmüşdü».***

Aydın müəllimin bir qudasını tanıyıram: Hazırda ahıllıq yaşında ömrünün ixtiyar dövrünü yaşayan Hüseyn Nikizadı. Hüseyn müəllim əslən İran Azərbaycanın Xoy bölgəsində dünyaya göz açıb. İkinci Dünya Müharibəsi dövründə cənubda baş verən milli hərəkatın fəal üzvlərindən biri olub. Çox gənc yaşlarında İkinci Dünya Müharibəsi dövründə Sovet rejimi tərəfindən verilən vədlərə inanıb, Bakıya gəlsə də, sonda aldadılıb, Sibirə, Uzaq Şimala

sürgün edilib, bir müddət Qazaxıstanda yaşasa da, sonda o da A.Əzimbəyov kimi Özbəkistanda qərar tutub, orada ailə qurub. Taleyin qismətinə bir baxın ki, Cənubi Azərbaycanın Xoy şəhəri ilə Naxçıvan şəhərinin arası birbaşa xətt çəksək, 80 km-dən artıq olmaz. 1937-ci ildə sürgün olunan Aydın Əzimbəyov və 3-5 il ondan sonra aldadılaraq Xoyu tərk edən H.Nikizad ailələri yenidən birləşənə kimi keçmiş SSRİ ərazisində on minlərlə km məsafə qət etmiş, çox ağır məhrumiyyətlərə dözmüş, doğma vətənini unutmamışdılar. Azərbaycan xalqını layiqincə təmsil edən övladlar yetişdirmiş, nəhayət, taleyin hökmü, qisməti ilə bu iki ailə qürbətdə rastlaşmış qohum olmuş, övladları Həsən və Rufiyyə ailə həyatı qurmuş və beləliklə o taylı-bu taylı Azərbaycanı Özbəkistan torpağında bir-birinə qovuşdurmuşlar.

Mən 2005-ci ilin sonlarında Daşkənddə Aydın müəllimin və Hüseyn Nikizadın nəvəsinin toyunda iştirak etdim. Necə oldusa, yadıma gözəl ağsaqqalımız, fərdi pensiyaçı Sabir Hüseynovun A.Əzimbəyovun 70 illiyində yazdığı «Göylərin iltifatı» məqaləsi və orada təsvir olunan «Qatarda ata-oğul görüşü», həm də Hüseyn bəyin öz sürgün həyatı barədə mənə söylədikləri xatirələr düş-

dü. Və onların bu cür çətin və şərəfli həyat yaşamaqlarına baxmayaraq, indi bu toyda qollarını qaldırıb, öz övladları və nəvələriylə birgə oynamaları məni sevinc qəhərində boğdu. ***İlahi! Ey Böyük Yaradan! Şükür Sənə, şükür Sənin qüdrətinə, hikmətinə!..***

Sovet hökuməti, İran və erməni birliyi bir çox hiylələr quraraq, insanların taleləri ilə oynamağa çalışdılar. Və elə bildilər ki, bunu bacardılar. Hüseyn Nikizad və Əzimbəyovlar ailəsi, onun kimi minlərlə, on minlərlə şimalda və cənubda yaşayan azərbaycanlıları öz doğma vətənlərindən müvəqqəti olaraq, ayrı salsalar da, sonda onlar Özbəkistanda öz səadətlərinə qovuşdular.

Hüseyn bəy Azərbaycan adını xalqımızın zərif mətbəx mədəniyyətini, öz mahir bacarığını ortaya qoymaqla yüksəklərə qaldırdı. Özbəkistanın bir çox rəsmi dövlət tədbirlərinin aparıcısı və təşkilatçısı oldu. O, bu gün də sağ-salamatdır. Və həyatdan zövq ala-ala yaşayır.

Aydın Əzimbəyov şəxsiyyətini daha dolğun anlamaq üçün bir-iki misal gətirmək istərdim. Özbəkistandakı diasporanın fəal üzvlərindən biri əslən Azərbaycanın Beyləqan rayonundan olan İbrahim Vəliyev onun dəyərli məsləhətlərindən yararlanaraq

1995-2010-cu illər arasında orada mənəviyyat sahəsində çox önəmli işlərə imza atmış və bir çox kitablar yazıb, nəşr etdirmişdir: «Kaffal Şoşi», «Şahi Zinda», «Elm aşiqi», «Vaxt quşu» və s. İ.Vəliyevin bu çalışmaları Özbəkistan respublika rəhbərliyi tərəfindən də təqdir olundu. Görkəmli mütəfəkkir Kaffal Şoşinin məqbərəsi İ.Vəliyev tərəfindən təmənnasız olaraq təmir edildikdən sonra 2007-ci ildə Daşkənd şəhəri Ümumdünya İslam Mərkəzi elan olunarkən həmin məqbərənin ətrafı möhtəşəm mədəni tarixi abidələrlə zənginləşdi: mədrəsələr, məscidlər, muzeylər inşa olundu, uçuq-sökük binaların yerində böyük bir kompleks yarandı, park salındı. Həmin yerlər gülzarlığa döndü. Səfir A.Əzimbəyoun məsləhətlərindən, və bizim ona göndərdiyimiz rəhmətlik Əjdər Fərzəlinin müəllifi olduğu «Ноев Ковчег и Гямигая - Гобустанский алфавит» kitabından və digər əlavə mənbələrdən yararlanan İbrahim özü də bu məsələləri dərindən öyrənmək qərarına gələrək araşdırmalar apardı və Azərbaycanın tarixinin bəzi səhifələrini, o cümlədən Nuh Peyğəmbərin gəmisinin və qəbrinin Naxçıvanda olmasını, Ulu Öndərimiz H.Əliyev şəxsiyyətinin bəzi məqamlarını «Baxt quşu» kitabında işıqlandıraraq yaymağa çalışdı və müəyyən mənada onlara nail ola bildi.

Valideynləri A.Əzimbəyovun ata-anası kimi qolçomaq (kulak) adı ilə XX əsrin 30-ci illərində Rusiyanın Volqaboyu bölgəsindən Qazaxıstana və Özbəkistana sürgün olunanlardan biri də Tutovlar ailəsi olmuşdur. Həmin nəslin yetişdirməsi olan Vyaçeslav Qriqoryeviç Tutov da A.Əzimbəyov kimi avtomobil mühəndisi idi. Onunla Özbəkistanın avto-nəqliyyat müəssisələrində birgə çalışmışdı. Çox savadlı, dünyagörüşlü, hər şeyi yerində etməyə çalışan və qonaqpərvər, gözəl bir insan idi. 2000-ci ildə Fərqanə NPZ-də, 2001-2004-cü illərdə mən taxıl və soya şurotu ilə əlaqəli bizneslə məşğul olarkən Aydın müəllim  bütün bu işləri onun köməyi və yardımı ilə görməyi məsləhət bilmişdi. Sağlığında mənim dostum olan, hazırda haqq dünyasına qovuşan Tutovların övladı Alekseylə indi də səmimi insani münasibətlərimiz davam edir. Demək istədiyim odur ki, Aydın Əzimbəyovun çətin, lakin şərəfli həyat yolunda qazandığı dostlardan, insanlardan biz də istifadə etdik. Və sonda  görülən işlərdən yaranan maddi və mənəvi qaynaqlar, həm çətin günümdə mənə kömək oldu, həm də onun müəyyən bir hissəsini də Özbəkistanda - bu xatirələrimin əvvəlində göstərdiyim işləri görmək üçün yardımçı oldu. Yəni ,əslinə

qalsa, diqqətlə baxsaq, hər şey bir-birinə bağlıdır, iç-içədir.

Aydın Əzimbəyov isə pillə-pillə Özbəkistan dövlətinin ən yüksək rəhbər zirvələrinə kimi qalxdı, sonda müstəqil Respublikamızın bütün Mərkəzi Asiya üzrə ilk Fövqəladə və Səlahiyyətli Səfiri oldu, Azərbaycanın adını yüksəklərə qaldırdı.

Səfir vəzifəsindən 2005-ci ildə təqaüdə çıxdı. Həmin il mənim yaddaşımda, həm də Azərbaycana qarşı çox incə düşünülən növbəti mənfur erməni planının həyata keçirilməsi üçün edilən növbəti cəhdlə yadımda qaldı. Bu dəfə Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvana elmi ekspedisiya adı altında, guya dünyanın hər bir yerində Nuh peyğəmbərin gəmisini, qəbrini axtaran rus jurnalisti Andrey Polyakovun internetdə yerləşdirdiyi *(www. poan.ru)* sensasiyon iddialarla dolu materiallarla tanış olduqdan sonra dostlarım - Mahmud Mahmudov, Hacı Salman Məmmədli, rəhmətlik, ağır-əziz dostumuz Elman Əliyevlə birgə bu məsələləri öyrənib, araşdırıb, Azərbaycanın lazımi dövlət orqanları ilə birgə fəaliyyət göstərə bildik. Bunlar barədə, eyni zamanda paralel olaraq, vaxtaşırı Aydın Əzimbəyovu da məlumatlandırır və onun dəyərli məsləhətlərini alırdım: Nuh peyğəmbərin Naxçı-

vanda qəbrinin tapılmasından başlamış, qəbirüstü abidəsinin tikintisinə qədər Azərbaycan alimlərinin iştirakı ilə Gəmiqayaya təşkil edilən «Nuh 2005» ekspedisiyasının tədqiqatından əldə olunan elmi nəticələr barədə Aydın müəllimlə bir ağsaqqal, təcrübəli diplomat və dövlət adamı, əslən naxçıvanlı bir şəxs kimi məsləhətləşib, onun dəyərli tövsiyyələrindən yararlanırdıq. A. Polyakov öz saytında Nuh peyğəmbərin Naxçıvanı tikməzdən əvvəl şəhərin yaxınlığında yerləşən, adı müqəddəs kitabımız «Qurani-Kərim»də də çəkilən «Əshabi-Kəhf» mağarasında yaşaması barədə iddialarını da ona söyləmişdim. Məsələ bundadır ki, A. Polyakov öz ekspedisiyasını məhz bu məkanda arxeoloji qazıntı aparmaqla başlamaq istəyirdi...

Həmin ziyarətgah ulu öndərimiz Heydər Əliyevin çox diqqət göstərdiyi, onun təşəbbüsü və tapşırığı ilə yüksək səviyyədə təmir olunaraq, ziyarət üçün yenidən açılan müqəddəs bir yerdir. Aydın müəllimlə bu ziyarətgah haqqında bir neçə dəfə söhbət etdikdən sonra o, yenidən bu müqəddəs yeri ziyarət etmək qərarına gəldi. Naxçıvandakı qohumları - Əzimovlarla birgə ziyarətgaha və ətrafındakı bir çox müqəddəs yerlərə, o cümlədən Təndir bulağa ziyarətə getdi.

A.Polyakova cavab olaraq, filologiya elmləri namizədi Ə. Fərzəlinin müəllifi olduğu, tərəfimizdən rus dilində nəşr edilən **«Ноев Ковчег и Гямигая - Гобустанский алфавит»** adlı kitabı çapa hazırlayarkən A.Əzimbəyovla bu mövzuda çoxlu müzakirələr apardıq. Aydın müəllim Özbəkistanda səfir işləyərkən mənimlə tanış etdiyi gənc diplomat kadrlar da bu məsələdə çox ciddi fəallıq göstərdilər və bacardıqları köməkliyi əsirgəmədilər.

**- Şahin Məmmədxanoğlu**- 2005-ci ildə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində yenidən UNESKO-nun Azərbaycan nümayəndəliyinə rəhbərlik edirdi. Bu məsələlərdə AMEA-nın rəyasət heyətinin bəzi üzvlərindən fərqli olaraq, çox böyük köməklik göstərdi və sonda A. Polyakovun qarşısı alındı.

- **Atif Novruzov** isə 2005-ci ildə Azərbaycanın Rusiyadakı Səfirliyinin məsul işçisi idi. Onu da Aydın müəllim bu məsələ barədə məlumatlandırmışdı. Sonralar Atif müəllim mənə söyləyirdi ki, Azərbaycana gəlməsinə qadağa qoyulduqdan sonra A.Polyakov müxtəlif yollarla, eləcə də səfirliyimizin vasitəsilə Naxçıvana getməyə icazə almağa çalışırdı...

Bu məsələlərdə diplomat **İlham Zamanov** da ciddi surətdə maraqlanır və bacardığı köməkliyi etməyə çalışırdı.

Azərbaycanın Özbəkistanda Səfirliyi yaranarkən Aydın Əzimbəyovun seçdiyi və yetişdirdiyi, yuxarıda adları çəkilən diplomatlar Azərbaycan üçün çox önəmli olan belə həyati məsələlərdə də özlərini bir vətənpərvər, millətinə, tarixinə, mədəniyyətinə, mənəviyyatına sahib çıxan kadrlar kimi göstərdilər.

Onun qəlbi bugün də  həyat eşqi ilə, yaşayıb-yatarmaq eşqi ilə döyünür, sapsağlamdır. Xalqına, vətəninə yenə də bacardığı qədər xidmət etməyi düşünür və bunu heç vaxt unutmur.

Bizim vəzifəmiz isə bu cür həqiqi ağsaqqalların, vətən fədailərinin,canlı ensiklopediyaların təcrübəsindən Müqəddəs Vətənimiz-Azərbaycanımızın gələcək inkişafı və yüksəlişi naminə istifadə etmək və onların qayğısına qalmaq, onlara diqqət göstərməkdir...

Onların bizdən bundan artıq heç bir gözləntisi və umacağı yoxdur.

Bu yazı, mənim ağsaqqal və ziyalı dostum, qohumum, atası atamın dostu, ***həqiqi  A-zər-bəy-can-lı  Aydın Əlibəy oğlu Əzimbəyov*** haqqında xatirələrimin xülasəsidir.

Özbəkistanın məşhur şairi Şöhrət Aydın Əzimbəyovun 65 illik yubileyi münasibətilə açılmış bayram süfrəsi arxasında öz dostuna aşağıdakı sətirlər həsr etmişdir:

***Zirvələr fəth edib, göyə yüksəldi,***
***Mənim tanıdığım o dahi insan.***
***Savadın, biliyin sayəsində o,***
***Yaratdı xariqə, dostluq simvolu***
***Səs gəldi bu yandan – bizim Bakıdan,***
***Belə qərar verib böyük komandan,***
***Bu gündən elçisən qardaş ölkədə***
***Siyasi səhnədə oldun sərkərdə.***
***Yığdın ətrafına Oğuz boyların,***
***Dedin, birgə olsun doğma xalqların.***
***Caladın zəfəri qələbələrə,***
***Can verdin yenidən əlaqələrə!***

***Tərcümə edən: Məhərrəm Zaman***

***10.12.1997***

## Yekun sözü

Alın yazısı, yaranış, ölüm... İnsanı yaşadan, düşündürən bu amillər hər kəs kimi məni də həmişə maraqlandırmış və həyatın hər iki üzünün ən dərin yerlərinə baş vurmağa vadar etmişdir.

Tale, qismət elə gətirdi ki, mən lap uşaq ikən zillət və zülmlərlə üzləşərək, bu dünyaya gəlməyimə peşman oldum. Biz Azərbaycan Kommunist Partiyasının IX qurultayında çıxış edən Azərbaycan Kommunist Partiyasının katibi Ə.Qarayevin qənaətinə görə «düşmən» idik. Həmin qurultaydakı çıxışında o sözbəsöz belə demişdi: «...Düşmənlərimiz hər yerdədir. Düşmən kinoda da var, teatrda da var. Təhsil müəssisələrində, ədəbiyyatda, təşkilatlarda, məişətdə hər yerdə, hər yanda bu elementlər mövcuddur».

Bununla belə görünür dünyada tarazlıq anlayışı mövcuddur. Necə deyərlər, insan nə qədər ağlayır, bir o qədər də gülür, nə qədər bədbəxt olur, bir o qədər də xoşbəxt anlar yaşayır. Tanrı insana kədərlə sevinci eyni miqdarda verir. Nə az, nə də çox. Mən buna elə öz timsalımda əmin oldum.

Uşaqlığım və gəncliyim dəhşətli dərəcədə ağır keçsə də, jmıx yeyə-yeyə böyüsəm də, sonralar tale uşaqlıqda necə məndən üz döndərmişdisə, eləcə də, addım-addım mənə yaxınlaşdı, həmsirdaş, dost oldu və mən nazir kürsüsündə əyləşdim, zirvələr fəth etdim, nailiyyətlər qazandım, xoşbəxt anlar yaşadım.

Təbii ki, həyatımın ən yüksək zirvəsini, Ümummilli Liderimizlə görüşdüyüm anı və onun tapşırığı ilə Vətənim üçün xidmət etdiyim dövrləri sayıram və xoşbəxtəm ki, mən bunu layiqincə yerinə yetirə bildim.

Nə vaxtsa, hələ lap uşaq vaxtı istəmədən tərk edib, həsrətini çəkə-çəkə yaşadığım doğma Azərbaycanıma xidmət göstərib, onun layiqli övladı olduğumu sübut etmək də mənə qismət oldu.

Doğma Vətənimlə uzun illər ayrılıqdan sonra görüşdüyüm gün həyatımın ən unudulmaz günü oldu. Dörd yaşında tərk etdiyim yerlərdə

hər şey dəyişsə də, evimiz hələ ki yerindəydi. Bir Allah şahiddir ki, mən evimizin divarlarını dilimlə yalamağa hazır idim. Neçə dəfə yerdən torpaq götürüb, köksümə sıxdım... Əlbəttə, bu anları təkcə danışmaqla, təsvir etməklə çətin ki, mən öz içimin hisslərini çatdıra bilim. Bunu yalnız yaşamaq lazımdır.

Bu kitab, mənim həyatımın ən yadda qalan anlarını əks etdirir. Onun səhifələrində yaxınlarımın, dostlarımın ürək sözləri, o cümlədən "Körpü" povestində təsvir olunan ağrılı-acılı, dadlı-duzlu həyatımın xatirələri öz əksini tapmışdır.

Həyatımda qazandığım çox şeylər olub. Təbii ki, bunların əksəriyyəti mənə əzizdir. Lakin yaxşı insan, yaxşı vətəndaş, yaxşı ata, yaxşı qohum, yaxşı dost olmağı bacarmağımı bütün nailiyyətlərimin zirvəsi hesab edirəm.

Yeri gəlmişkən, bu kitabın işıq üzü görməsinin çox qəribə, özünəməxsus səbəbi var. Bu haqda deməmək, bundan yan keçmək mümkün olmadığı üçün, daha ətraflı yazmaq qərarına gəldim.

Günün birində dostum Mirələkbər (Miri) bizə gəldi. Adəti üzrə salam-sağoldan sonra, birbaşa mətləbə keçdi: ***" - Aydın müəllim, sizin həyatınız böyük bir tarixi ensiklopedi-***

***yadır. Nədən həyatınızdan kitab yazılmasına təşəbbüs göstərmirsiniz?*** "- dedi.

Çox düşündüm və qərara aldım ki, qoy, bu kitab da mənim Vətənim qarşısında son xidmətim, hesabatım olsun. Axı mənim həyatım ölkəmin qaranlıq və işıqlıq tarixinin bir hissəsidir. Onu oxuyanlar Azərbaycanın hansı yollardan keçib, hansı nailiyyətlərə çaldığını daha dolğun duya bilərlər. Axı mənim həyatım müəyyən qədər xalqımın, ölkəmin, Vətənimin tarixinin qaranlıq və işıqlı səhifələrinin bir hissəsini güzgü kimi əks etdirir.

Azərbaycanın Ümummilli lideri Heydər Əliyev tariximizin, mədəniyyətimizin, dilimizin, folklyorumuzun öyrənilməsinə xüsusi diqqət yetirirdi. O, bu vacib sahələrdə elmi tədqiqatlara hər cür dəstək verirdi.

Son vaxtlar bu suallarla bağlı canlanma hiss olunur. Heydər Əliyevin ideyalarının layiqli davamçısı Azərbaycan Respublikasının prezidenti İlham Əliyev son illərdə elmin o cümlədən, tarix, arxeologiya, azərbaycan dili, mədəniyyətimiz və folklorumuzun inkişafı istiqamətində bir neçə sərəncam imzalamışdır. Bu sənədlər strateji fəaliyyət istiqamətini göstərir və milyon manatlarla hesablanan əlavə maddi vəsaitlə dəstəkdən xəbər verir.

Bu yerdə dəyərli Prezidentimiz İlham Əliyevin Respublikamızdan kənarda yaşayan Azərbaycan diasporasının inkişafına verdiyi xüsusi önəm mütləq qeyd edilməlidir. Diaspora xaricdə ölkənin tanınması və siyasi arenada özünəlayiq yer tutması üçün mühüm amildir və dövlətimizin bu yöndə apardığı ardıcıl zərgər dəqiqliyi ilə hesablanmış dəsti-xətti təqdirəlayiqdir.

Azərbaycan diasporu Vətənin dayğı ola bilər və olmalıdır. O  çox böyük daxili potensiala malikdir, onu realizə etmək və doğma Azərbaycanın gələcəyi naminə birləşdirmək, bir yerə yığmaq lazımdır. Biz ən əvvəl özümüzü tanımalı və dərk etməliyik.

Bununla belə Heydər Əliyev fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, ölkənin birinci xanımı Mehriban Əliyeva, bu Fondun vitse- prezidenti Leyla Əliyeva tərəfindən  azərbaycan mədəniyyətinin nəinki MDB məkanında, həm də bütün dünyada təbliğ edilməsi sahəsində son vaxtlarda çox böyük işlərin  görülməsi sevindirici haldır. Bütün bunların nəticəsi kimi Umumdünya YUNESKO  fondu «Dünya mədəni irsi» siyahısına aəzrbaycan muğamlarını, azərbaycan xalçalarını, açıq səma altındakı tarixi-bədii muzey kompleksi  Qobustanı da daxil etmişdir.

Bu da çox sevindirici haldır ki, Naxçıvanda, Naxçıvan MR Ali Məclisinin sədri, Heydər Əliyevin ideyalarının sadiq davamçısı, Prezident İlham Əliyevin ləyaqətli köməkçisi Vasif Talıbovun rəhbərliyi altında Nuh Peyğəmbərlə bağlı çox geniş elmi tədqiqatlar aparılmış, onun sovet dövründə dağıdılmış məqbərəsi yenidən bərpa olunmuş və məzarı üzərində yeni Məqbərə ucaldılmışdır. Bütövlükdə Nuh dövrünün Ümumdünya Subasma hadisəsi ilə bağlı tədqiqatlar bundan sonra da davam etdiriləcək, Gəmiqaya qayaüstü rəsmlərində, Naxçıvan MR Ordubad rayonunda, Kiçik Qafqaz dağlarının ən yüksək zirvəsi Qapıcıqda bu qədim mədəniyyətin qalıqları daha geniş araşdırılacaqdır.

Yeri gəlmişkən, Naxçıvanın şəhərlərinin, rayon mərkəzlərinin qəsəbələrinin bu günkü gözəl görkəmi, kommunikasiya sahəsində görülən işlərin böyük həcmi insani sevindirir və heyran edir.

Kitaba mövzuya – deportasiya və onun köklərinə aid biblioqrafik siyahı əlavə edilmişdir. Bu siyahını, Azərbaycan Elmlər Akademiyası A.Bakıxanov adına Tarix İnstitutunun əmədaşları, tarix üzrə fəlsəfə doktorları E.Məhərrəmov və H.Həsənov təqdim etmiş-

dir. Siyahı davam etdirilməsi və və genişləndirilməsi üçün açıqdır...

Kitabı oxuyanlar və mənbələrlə tanış olanlar müstəqil Azərbaycanın bu günkü nailəyyətlərə çatmaq üçün hansı çətinlikləri dəf etməsi barədə daha əitraflı məlumat ala bilərlər.

Beləliklə, budur, həmin kitab sizin qarşınızdadır.

***Aydın Əzimbəyov***

***P.S***.

*Bu kitab əzizim, dostum, dədə-baba qohumum* ***Bəhruz Nuru oğlu Əzimovun*** *yaxından köməyi və dəstəyi ilə çap olunub.*

*Kitabın ərsəyə gəlməsi üçün göstərdikləri diqqətə, həssaslığa, dəstəyə, hörmətə və zəhmətə görə Sevda Mikayılqızına, Məhərrəm Zamana, Mirələkbər (Miri) Seyidova, Vahid Rzayevə, Famil Bağırova, Elmar Məhərrəmov və Hacı Həsənova, Şamil Qurbanova, Günay Əmirovaya, Aysel Heydərliyə, İradə Kamalqızına, Bela Zakirovaya, Liliya Jdanovaya, nəvəm Eliyana Maxkamovaya, Azərbaycan və Özbəkistandakı dəyərli dostlarıma, qohumlarıma və yoldaşlarıma öz dərin minnətdarlığımı bildirirəm.*

# Fotoşəkil qalereyası



Uşaqlıq dövrü, məktəb və tələbəlik illəri

Əmək fəaliyyətinin səhifələri

Ümummilli lider
Heydər Əliyevlə
unudulmaz görüşlər

Azərbaycan Respublikasının
Prezidenti İlham Əliyevin
Özbəkistan Respublikasına
rəsmi dövlət səfəri

Ailə üzvləri, dostlar və qohumların
əhatəsində



*Aydın Əzimbəyovun valideynləri - Əlibəy və Əminə xanım*



*Uşaq vaxtına aid fotolardan indiyə kimi salamat qalmış bu yeganə şəkil. Aydın (xalası oğlu Abbasın qucağında) anası Əminə, xalası Həcər, bacıları Laçın, Fəxriyyə, Foqiyə və Qeyslə. 1934*





*Zamanında Naxçıvanın ən yaraşıqlı evlərindən biri olan bu bina 1929-cu ildə Aydın Əzimbəyovun ana babası Ələkbər bəy tərəfindən tikilmişdir. A.Əzimbəyovun xalası Həcərin nəvələri (soldan) Samir, Seymur və Səbuhə Seyidovlar. (Şəkil 1971-ci ilin sentyabrında bina sökülməzədən bir qədər əvvəl çəkilmişdir)*



*Əlibəy Əzimbəyovun həyatının
Özbəkistan səhifələrindən*



1947-ci il. Qazaxstan SSR, Taldı-Kurqan vilayəti, Kirov r-nun Tentek stansiyasındakı məktəbin 5-ci sinif şagirdi Aydın



Qazaxstan SSR, Çimkənd vilayəti Slavyanka rayon orta məktəbin 8-ci sinfində oxuyarkən pambıq yığımında



Şəklin arxasındakı yazı:
На долгую и вечную память Теме Хаджар от Айдына. Взгляните и вспоминайте меня
Славянск. 25.11.1947





*Qazaxstan. Orta məktəbi bitirdikdən sonra*



*Aydın artıq Daşkənd Kənd Təsərrüfatının İrriqasiyası və Mexanizasiyası Mühəndisləri İnstitutunun (DKTİMMİ) I kurs tələbəsidir*



İnstitutun I kursunda oxuyarkən pambıq yığımında



İnstitutun II kursunda





*Dostları və həmkarları ilə birgə*



*İnstitutun III kursunda M.Məhəmmədcanovla*



İməcilikdə





İnstitutun II kursunda oxuyarkən təcrübə mübadiləsi zamanı



*Dostları ilə birgə*



*İnstitutun III kursunda dostları Slavik və Pyotrla*



*Əslən Naxçıvanın Şərur bölgəsindən olan, anası xan nəslindən olduğuna görə valideynləri ilə birgə sürgün olunmuş, sonradan Aydının böyük bacısı Laçınla ailə həyatı qurmuş Teymur (ikinci sırada solda) və dostu Pyotrla (sağda). Slavyanka.*




*Əslən Naxçıvanlı dostu Nadirlə (solda). Slavyanka.*



*Məktəb həyatının sona yetdiyi dövr*



*Mexanik Aydın Əzimbəyovun ilk iş günlərindən biri*



*Slavyankada iməcilikdə*



*Slavyankada dostları ilə*




*Avtobazanın direktoru A.Əzimbəyov kollektivlə birgə.
31.XII.1962*



*Avtobazanın baş mühəndisi iş otağında*



*Dünya şöhrətli futbol hakimi Tofiq Bəhramov*
*A.Əzimbəyovun qonağıdır*



*Avtobaza kollektivi pambıq yığımında (1958)*



*Avtobaza direktorları ilə birlikdə.
Daşkənd, 1963*



*Slavyanka, avtobazanın qarşısında. (soldan avtobazanın baş mühəndisi Q.Yemelyanov, vilayət partiya komitəsinin katibi Usmanxodjayev, (1985-89-cu illərdə Özb. KP MK-nın I katibi), Sırdərya vilayət avtonəqliyat trestinin rəisi R.Nəbiyev, avtomobil nəqliyyatı nazirliyinin nümayəndəsi E.Dadacanov)*



*Aydın Əzmbəyovun qazandığı ilk medal*



A.Əzimbəyov Sırdərya Vilayətinin Avtonəqliyyat trestinin direktoru olarkən tabeliyindəki avtobaza direktorları ilə



Avtotrestin işçiləri ilə



*Aydın Əzimbəyov Sırdərya Vilayət Partiya Komitəsinə katib seçildiyi iclasda*



*Vilayət Partiya Komitəsinin rəhbər işçiləri ilə birgə, katib seçildikdən sonra*



Sırdərya vilayətində İstilik - Elektrik Stansiyasının tikintisində
(soldan yeddinci Özbəkistan KP MK-nın I katibi Ş.R.Rəşidovdur). 1975-ci il.



Özbəkistanın müxtəlif vilayətlərinin partiya komitə rəhbərlərinin yığıncağında



Sırdərya Vilayət Partiya Komitəsinin rəhbərləri “Böyük Vətən müharibəsi” abidəsinin açılışında



*Özbəkistanın Sırdərya vilayətindəki Yağ-Ekstraksiya zavodunun tikintisində (ortada Özbəkistan KP MK-nın I katibi Ş.R.Rəşidov və onun yanında MK katibi A.Xodjayev A.Əzimbəyovla söhbət edir)*



*Özbəkistan KP MK-nın I katibi Ş.R.Rəşidov, MK katibi A.Xodjayev (soldan birinci) və Sırdəya Vilayət Partiya Komitəsinin I katibi V.Haydurov (sağda) Sırdərya Vilayətində tikilən Yağ-Ekstraksiya zavodunun tikintisində*



*Sırdəryada tikilən İstilik-Elektrik Stansiyasında Özbəkistanın partiya və dövlət rəhbərləri ilə birgə (soldan ikinci A.Əzimbəyovdur)*



*A.Əzimbəyov
Vilayət Partiya Komitəsinin iclasında çıxış edərkən*



*Özbəkistanın  Sırdərya Vilayət Partiya komitəsinin işçiləri ilə birgə Qələbə bayramında*



*Özbəkistanın Sİrdərya Vilayət Partiya Komitəsinin həyətində rəhbər işçilərlə*






*Gənclik dövrü*



*Özbəkistan Nazirlər Sovetinin Nəqliyyat və Rabitə şöbəsinin müdiri işləyərkən iş yoldaşları ilə. 1989*



KXDR-da Sov İKP MK xətti ilə ezamiyyətdə olarkən. A.Əzimbəyov (sağdan birinci), həyat yoldaşı Rahilə xanım (ikinci); Az. KP MK-nın şöbə müdiri Sabir Hüseynov (soldan altıncı), həyat yoldaşı Şəmsiyyə xanımla (sağdan yeddinci)



Özbəkistanın  Avtomobil Nəqliyyat Nazirliyinin kollegiyasında



Daşkənd şəhərində Mərkəzi xəstəxananın açılışında

*Aydın Əzimbəyovun Özbəkistanın Nəqliyyat naziri
işlədiyi dövrü əks etdirən anlar*







*Azərbaycanın nümayəndə heyəti Özbəkistanlı həmkarları ilə görüşdə (oturanlar - sağdan Özbəkistan Nazirlər Soveti sədrinin I müavini İ.Curabekov və Azərbaycan Nazirlər Sovetinin sədri H.Həsənov)*



*Kollegiya iclasında*

*Özbəkistan Nazirlər Sovetinin Nəqliyyat, Rabitə Kommunal Təsərrüfatı şöbəsinin müdiri A.Əzimbəyov iş yoldaşları ilə. 1989.*







*Səmərqənd. Yusuf, əmisi oğlu Nuru Əzimov
və qohumu Qadirlə (soldan). 1975-ci il*



*Azərbaycandan gələn dostları və qohumları Özbəkistanda
A.Əzimbəyovun qonağıdır
(sağdan Səməd Mirzəyev, Nuru Əzimov və İslam müəllim)*



*Yaxın dostu Sabir Hüseynovla Bakı bulvarında*



*Unudulmaz xatirə. Özbəkistanda böyük hörmət sahibi olan çox yaxın dostu,  əslən Gəncəli Hacı Vaqiflə doğma Göy-gölün sahilində. 1982*



*Qazaxıstan, Çimkənd, Slavyanka kəndindəki evlərinin həyətində atası Əlibəy, həyat yoldaşı Rahilə xanım və dostları ilə*



*Kislovodskda həyat yoldaşı ilə birgə istirahətdə olarkən*




*Həyat yoldaşı ilə Kislovodskdə. 1971*



A.Əzimbəyov və Q.Abdurəhmanov.
İstanbul 1991-ci il.
Bu şəkil çəkiləndə A.Əzimbəyov zarafatla: "Biz lap iki ölkə səfirinə oxşayırıq", - demişdi. İllər sonra, doğrudan da, belə oldu...



*Azərbaycan Respublikasının Özbəkistanda ilk Fövqəladə və Səlahiyyətli Səfiri Aydın Əzimbəyovun diplomatik fəaliyyətinin önəmli anlarından*



*Azərbaycanın Özbəkistanda ilk Səfirliyinin işçiləri*





*Azərbaycan Respublikası Prezidenti H.Əliyevin tapşırığı ilə səfir A.Əzimbəyov Özbəkistan Respublikası Xarici İşlər Naziri M.Kamilovla iki ölkə arasında diplomatik münasibətlərin bərpası barədə protokol imzalayır*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Özbəkistan Respublikasına rəsmi dövlət səfəri. 1997-ci il







*Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Özbəkistan Respublikasına rəsmi dövlət səfəri.*
*1997-ci il*



İclas zalından görünüş



Jurnalistlərlə görüş





*Yüksək səviyyədə rəsmi dövlət qəbulu*





*Prezidentlər Daşkənd Dövlət Universitetində*



*Heydər Əliyevin Daşkənd Dövlət Univesitetində çıxışı*



*Prezident Heydər Əliyev dahi Azərbaycan
şairi Məhəmməd Füzulinin portretini Daşkənd
Dövlət Universitetinə hədiyyə edir*





*Səfirliyin açılışı zamanı  Prezident Heydər Əliyevin Azərbaycan diasporasının üzvləri ilə görüşü*





*Heydər Əliyev Səfirliyin açılışında Azərbaycan diasporası üzvləri ilə görüşərkən*



*Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyev onunla birgə Özbəkistana gəlmiş nümayəndə heyətinin üzvlərini Özbəkistan Respublikasının Prezidenti İ.Ə.Kərimova təqdim edir (ön planda soldan birinci səfir A.Əzimbəyov)*



*Azərbaycan Respublikasının Prezidenti H.Əliyev Səfirliyin xatirə kitabına öz ürək sözlərini yazır*



*Özbəkistan Respublikasının Prezidenti İslam Kərimov Daşkənddə Azərbaycan Səfirliyinin açılışında jurnalistlərin suallarına cavab verir*



*İki qardaş ölkənin Prezidentlərinin iştirakı ilə Azərbaycanın Özbəkistandakı Səfirliyinin həyətində Azərbaycan Respublikasının bayrağı ucaldılır*



*İki qardaş xalqın Prezidentləri H.Əliyev və İ.Kərimov Azərbaycan Respublikasının Özbəkistandakı Səfirliyinin rəsmi açılışı ərəfəsində*



*İki qardaş xalqın Prezidentləri H.Əliyev və İ.Kərimov Azərbaycan Respublikasının Özbəkistandakı Səfirliyinin rəsmi açılışında*



*Rəsmi dövlət tədbirinin bədii hissəsindən görüntülər*





*İki qardaş xalqın Prezidentləri H.Əliyev və İ.Kərimov Azərbaycan Respublikasının Özbəkistandakı Səfirliyinin rəsmi açılışında*





*İki qardaş xalqın Prezidentləri H.Əliyev və İ.Kərimov Azərbaycan Respublikasının Özbəkistandakı Səfirliyinin rəsmi açılışında*



Səfirliyin foyesində



Özbəkistan Respublikasının Prezidenti İ.Kərimov
Səfirlikdən yola salınarkən

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xanımı Mehriban Əliyeva ilə birgə Özbəkistan Respublikasına rəsmi dövlət səfəri. Mart 2004*







*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xanımı Mehriban Əliyeva ilə birlikdə Özbəkistan Respublikasına rəsmi dövlət səfəri.*
*Mart 2004*





*Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyevin və Özbəkistan Respublikasının Prezidenti İ.Ə.Kərimovun iştirakı ilə Daşkənd şəhərindəki Nizami adına Pedaqoji Universitetin qarşısında dahi Azərbaycan şairi və filosofu Nizami Gəncəvinin büstünün açılış mərasimində*




KUCH
TAF




"Azərbaycan evi"nin açılışında




*"Azərbaycan evi"nin açılışında*









*"Azərbaycan evi" Mədəniyyət Mərkəzinin açılışında*






*Heydər Əliyevin "Azərbaycan evi" Mədəniyyət Mərkəzinin qarşısında qoyulmuş büstünün açılışında*





"Azərbaycan evi" Mədəniyyət Mərkəzinin açılışında





*Müstəqil Azərbaycan Respublikasının vəsaiti hesabına xaricdə tikilmiş yeni Səfirlik binasının açılışında*





*Müstəqil Azərbaycan Respublikasının vəsaiti hesabına xaricdə  tikilmiş yeni Səfirlik binasının açılışında*





*Müstəqil Azərbaycan Respublikasının vəsaiti hesabına xaricdə tikilmiş yeni Səfirlik binasının açılışında*





*Müstəqil Azərbaycan Respublikasının vəsaiti hesabına xaricdə tikilmiş yeni Səfirlik binasının açılışında*





*Müstəqil Azərbaycan Respublikasının vəsaiti hesabına xaricdə tikilmiş yeni Səfirlik binasının açılışında*





